

# Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 276 (8299) CÜMƏ AXŞAMI, 12 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Ümummilli liderlik: miqyası və missiyası

Çoxəsrlik ənənələrə malik olan Azərbaycan dövlətçiliyi tarixində görkəmli dövlət xadimi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan epoxa xüsusi əhəmiyyətə malikdir.

Əvvəla, siyasi olimpin zirvəsinə doğru inkişafda Heydər Əliyev adidən aliyə doğru bütün pillələri addım-addım keçmiş, zəngin həyat təcrübəsi əldə etmiş və mükəmməl dövlət idarəçiliyi mədəniyyəti qazanmışdır. Naxçıvan Pedaqoji Məktəbində, Bakı Dövlət Universitetində və Leninqrad Təhlükəsizlik Orqanları Məktəbində yiyələndiyi biliklər onun gələcək böyük həyata hazırlanmasında mühüm rol oynamışdır.

O, eyni zamanda Sovet İttifaqının "daxili dünyasına" dərindən bələdçilik üçün əvəzsiz imkanlara malik olan təhlükəsizlik orqanlarındakı fəaliyyəti dövründə də ciddi təkamül prosesləri yaşamış, siyasi sistemin bütün dərinliklərinə bələd olmaq fürsətini qazanmışdır. Ən başlıcası, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi, Heydər Əliyev rəhbərlik etdiyi respublikanın ictimai-siyasi və iqtisadi-mədəni həyatının bütün sahələrinə dərindən nüfuz edərək, cəmiyyətdə gedən prosesləri izləmiş, irəliyə doğru inkişaf üçün zəruri olan bütün addımları atmışdır.

Beləliklə, *Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq görkəmli dövlət xadimi Heydər Əliyev Ümummilli Lider səviyyəsini fəth etmişdir.*

Daha doğrusu, *məhz Ulu Öndər Heydər Əliyevin çoxillik siyasi və dövlətçilik fəaliyyəti sayəsində Azərbaycanda dövlət rəhbərliyi Ümummilli Lider statusu qazanmışdır.*

*Heydər Əliyev Azərbaycan dövlətinin çoxəsrlik tarixində birinci Ümummilli Liderdir.*

*Ümummilli liderlik Heydər Əliyevin milli dövlətçilik istedadının ardıcıl və məqsədyönlü fəaliyyətinin mühüm nəticəsidir.*

Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, ümummilli liderlik üçün ən zəruri şərtlərdən biri siyasi şəxsiyyətin mübarizəsində ümummilli ideallların aparıcılıq təşkil etməsi, xüsusi yer tutmasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində: sovet hakimiyyəti illərində, keçid proseslərində və müstəqillik mərhələsində həmişə mənsub olduğu xalqın azadlığı və tərəqqisi üçün çalışmış, xalqını və ölkəsini ümummilli idealların işığında böyük hədəflərə doğru aparmışdır.

*Ardı 3-cü səh.*

# Robert DADLİ: "Azərbaycandan başqa heç bir ölkə bunu edə bilməzdi"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də BP qrupunun baş icraçı direktoru Robert Dadlini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlət başçısına minnətdarlığını bildirən **Robert DADLİ** dedi:

- Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV** dedi:

- Sizi yenidən görməyə şadam. Azərbaycana yenidən xoş gəlmisiniz. Mənə məlumat verilib ki, siz gələn il vəzifənizi tərk edəcəyinizlə bağlı açıqlama vermisiniz.

*Ardı 2-ci səh.*

# Xilaskar Lider

Tarixdə ilk hüquqi dövlətin yaradıcılarından Hamurapiyə aid edilən çox maraqlı bir fikir var. Müdrik Babil hökmdarı deyirdi ki, "Keçmişini unudan onu yenidən yaşamağa məhkumdur..."



Bu kəlam ayrı-ayrılıqda fərdlərə də, bütöv xalqlara da aid edilə bilər. Keçmiş öz tarixi sınaqları, acılı-şirinli xatirələri, qazandırdığı təcrübə ilə hər nə qədər dəyərli olsa da, onun yenidən yaşanması tənəzzül deməkdir. Fərd üçün də, xalq üçün də böyük bir dövrün inkişaf imkanlarının itirilməsidir. Çünki zaman, həyatın təkamül qanunauyğunluğu keçmişdən bugünə, bugündən isə gələcəyə doğru yol alır. Keçmişi yenidən yaşamaq gələcəyə doğru yolu itirmək deməkdir. Ona görə də keçmişi tez-tez xatırlamaq, onu olduğu kimi öyrənmək və yeni nəsillərə də öyrətmək lazımdır. Bu, olub-keçənlərin təcrübəsindən ibrət almağa, eyni yanlışları bir daha təkrarlamamağa kömək göstərir.

*Ardı 5-ci səh.*



# Tarix yaradan şəxsiyyət

Böyük alman filosofu Fridrix Nitşe yazırdı: "Şəxsiyyətləri tarix yaratmır, şəxsiyyət tarixi yaradır". Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu qırx illədək bir dövrü qüdrətli şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Tarixdə nadir hadisələrdəndir ki, Heydər Əliyev iki ictimai-siyasi quruluşda Azərbaycana rəhbərlik etmişdir.

Müstəqil Azərbaycan Respublikasının memarı Heydər Əliyev iki əsrin ayrıcında öz dövlətini və xalqını qlobal sarsıntılar dövrünün fırtınalarından, zamanın ən çətin sınaqlarından sağ-salamat çıxararaq, ölkənin milli dəyərlərinin qorunub saxlanılmasına, ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. Ulu Öndər həm sovet dövründə, həm də müstəqillik illərində həmişə öz xalqı ilə birlikdə olmuş, onun bir millət və dövlət kimi inkişafı naminə həyatını belə əsirgəməmişdir.

*Ardı 6-cı səh.*



# İmzası dövlətin simvoluna çevrilən dahi

Müəyyən hadisələr var ki, üstündən illər keçməlidir ki, onun əhəmiyyəti, mahiyyəti daha aydın görünsün. Ancaq elə məqamlar da olur ki, nəticəsi göz qabağındadır. Onu şüanın sınmasına bənzətmək olar: işıq şüası ya udulur, ya da istiqamətini dəyişir.

Bəzən bir xalqın taleyində də belə həlledici məqam yetişir. Olum ya ölüm dilemması qarşısında qalan millət həmin an qəti söz deyə bilən, vədinin üstündə duran bir şəxsə ehtiyac hiss edir. Əgər elə bir şəxsiyyət irəli çıxırsa və tarixin gedişinə öz təsirini göstərirsə, xalq yeni bir inkişaf xəttinə, yeni düşüncə müstəvisinə keçə bilir. Əks halda millətin varlığı sual altında qalır. O an dövlətlə liderin adı sanki eyniləşir və ondan sonra o liderin imzası dövlətin simvoluna çevrilir. Ən yeni tarixdə Azərbaycanın taleyində belə həlledici məqam Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə əlaqəlidir.

Bir hadisənin mahiyyəti, miqyası daha böyük bir rakursda daha dolğun və aydın görünür.

*Ardı 8-ci səh.*

# Bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb

2019-cu il dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb.

Bu barədə AZƏRTAC-a Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən məlumat verilib.

Milli Məclisin mətbəəsində Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin əməkdaşları, eləcə də dairə seçki komissiyalarının sədrləri və katiblərinin iştirakı ilə şəffaf şəkildə keçirilən prosesi beynəlxalq və xarici qurumlar, kütləvi informasiya vasitələri və müxtəlif seçki subyektlərinin yaxından izləmələrinə hərtərəfli imkan yaradılıb. Tədbirdə seçki bülletenlərinin hazırlanması və aidiyyəti üzrə çatdırılmasının təşkili ilə bağlı qanunvericiliyin tələbləri barədə kütləvi informasiya vasitələrinə ətraflı məlumat verilib, aşkarlığın təmin olunması üçün bütün mərhələlər media təmsilçiləri tərəfindən geniş işıqlandırılıb, eyni zamanda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

*Ardı 2-ci səh.*

# Robert DADLİ: “Azərbaycandan başqa heç bir ölkə bunu edə bilməzdi”

Əvvəli 1-ci səh.

Bu imkandan istifadə edərək Azərbaycanda biznesin inkişafına verdiyiniz töhfəyə görə sizə minnətdarlığımı bildirmək istərdim. Biz sizinlə bir neçə dəfə birgə layihələrimiz barədə müzakirələr aparmışıq və bildiyimə görə, BP-nin prioritetləri siyahısında da bu layihələr ən yüksək mövqedədir. Bilirsiniz ki, BP ilə əməkdaşlığımız strateji əhəmiyyətə malikdir. Mən dəfələrlə ictimai qaydada bu barədə açıqlamalar vermişəm. Çox şadam və fəxr edirəm ki, bu 25 illik tərəfdaşlıq eyni məqsədi olan və bu məqsədlərə çatmaq üçün səmərəli addımlar atmış dostların tərəfdaşlığı olub. Bu, çox vacibdir. Bəzən məqsədlər müəyyənləşdirilir, lakin onlara necə çatmaq aydın olmur. Bizim nümunəmizdə 1990-cı illərin əvvəllərinin çox çətin geosiyasi vəziyyətində birlikdə tarixi layihələri həyata keçirə bildik. Bakı-Tbilisi-Ceyhan neft kəməri, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun inkişafı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və bu yaxınlarda tamamlanan TANAP. Bu layihələrin hər birinin Azərbaycan üçün tarixi əhəmiyyəti var. Azərbaycanın bugünkü sürətli inkişafı bizim enerji sektorundan əldə etdiyimiz gəlirlər olmadan mümkün olmazdı. Bütün bu illər ərzində biz həqiqətən də tərəfdaşlar kimi çalışdıq, bir-birimizi dəstəklədik, bir-birimizin problemlərinə anlayış göstərdik. Düşünürəm ki, bu, dünyada nadir bir təcrübədir. Hazırda biz bütün vacib layihələrin tamamlanmasına yaxınıq. Mən TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirakımdan şadam. İndi tamamlanmasına yaxın olduğumuz TAP-ın üzərində işləməyimiz lazımdır, - 90 faizi artıq tamamlanıb, - həmçinin BP-nin digər layihələri. Çünki bizim əməkdaşlığımız davam edəcək. “Azəri-Çıraq-Günəşli”nin işlənilməsinin 2050-ci ilə qədər uzadılmasından sonra biz əlavə olaraq aktiv 30 il və daha çox əməkdaşlıq edəcəyik. Beləliklə, bu, indikindən daha da strateji olacaq.

Cənab prezident, bir daha sizə şəxsən verdiyiniz töhfələrə, tərəfdaşlığınıza görə minnətdarlığımı bildirmək istərdim. Sizə uğurlar arzulayıram və əziz qonağımız kimi gələcəkdə sizi daha çox görməyə ümid edirəm.

**Robert DADLİ** dedi:

- Təşəkkür edirəm, cənab Prezident. Bu, Azərbaycanın enerji tarixində çox mühüm hadisədir. Demək istəyirəm ki, onlardan biridir. Sizin uzaqgörən atanız və Siz bunun əsasını qoyarkən bir neçə ölkəni mürəkkəb regionda bir araya gətirdiniz. Yüksək texnologiyalar neft sektoru ilə yanaşı, təbii qaz sektoruna da cəlb edildi və irəlidə hələ də daha çox kəşfiyyat işləri və layihələr var. Fikrimcə, bunlar bir neçə ölkənin sərhədlərini aşmaqla dünyanın ən mürəkkəb layihələridir. Təsəvvür etsək ki, Yer kürəsinin elə bir yeri yoxdur ki, misal üçün, Azərbaycandan Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyaya gedən boru kəmərinin ekvivalentini orada tapmaq olsun. Məncə, Azərbaycandan başqa heç bir ölkə bunu edə bilməzdi. Bu illər ərzində bütün bu ən mürəkkəb ideyaların reallığa çevrilməyini görmək baxımından Sizinlə və Sizin komanda ilə - Rövnəq və Elşadla birgə işləmək şəxsən mənim üçün çox xoş oldu. Bu, möhtəşəmdir. BP-dəki insanların uzun illər boyunca əzmkarlığı çox diqqətəlayiqdir. Cənab Prezident, mən çox məmnunam - BP-də 40 illik fəaliyyətimdən, 10 ilə yaxın baş icraçı direktor olmağımdan və indi də estafeti rahat şəkildə Bernard Luniyə təhvil verməyimdən məmnunam. Bernard çox yaxşı işləyəcək və Azərbaycandakı işlərimizə eyni dərəcədə bağlıdır.

# Azərbaycanda müxtəlif layihələrin həyata keçirilməsində Koreya şirkətləri fəal iştirak edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uokun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uok Koreya Prezidenti Mun Ce-inin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, müxtəlif səviyyəli səfərlərin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyi qeyd olundu. Azərbaycanda müxtəlif layihələrin həyata keçirilməsində Koreya şirkətlərinin iştirakının iqtisadi əməkdaşlığın genişlənməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycanda digər sahələrdə olduğu kimi, statistika sahəsində də islahatların aparıldığı qeyd edildi, Koreya Respublikasının bu sahədə qazandığı təcrübənin Azərbaycanda maraq doğurduğu bildirildi.

Prezident İlham Əliyev Koreya Prezidenti Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Prezidentinə çatdırmağı xahiş etdi.

# Neftçala şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Neftçala şəhərində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına başlanılması məqsədilə **qərara alıram:**

1. Neftçala şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2019-cu il*

# Müdafiə Nazirliyində kollegiya iclası keçirilib



Dekabrın 11-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2019-cu tədris ilində Azərbaycan Ordusunun hazırlığının yekunlarına dair Müdafiə Nazirliyi kollegiyasının geniş iclası keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən cari il ərzində ordu quruculuğu sahəsində aparılan islahatlar, Azərbaycan Ordusunun döyüş fəaliyyəti, silah və texnika ilə təchizatı, maddi-texniki və tibb təminatı, kadr islahatları, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, həmçinin əldə edilən nailiyyətlər barədə məruzə ilə çıxış edib.

Nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən məsul zabitlərin iştirak etdiyi kollegiya iclasında Müdafiə naziri general-polkovnik Zakir Həsənov 2019-cu ildə xidməti döyüş hazırlığının yekunları və 2020-ci tədris ilində qarşıda duran əsas vəzifələrdən danışıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən Müdafiə naziri Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində əldə edilən nailiyyətlərdən danışıb.

General-polkovnik Z.Həsənov cari ildə həyata keçirilən tədbirlərin təhlilini apararaq döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini diqqətə çatdırıb, qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2020-ci ildə icra olunacaq fəaliyyətlərlə əlaqədar komandir-rəis heyəti qarşısında tapşırıqlar qoyub.

Müdafiə nazirinin əmrinə əsasən 2019-cu tədris ilində Azərbaycan Ordusunun qarşıda qoyulmuş tapşırıqların yerinə yetirilməsi, döyüş və səfərbərlik hazırlığının yüksəldilməsi, həmçinin hərbi intizamın möhkəmləndirilməsində yüksək nəticələr əldə etmiş hərbi qulluqçular təltif edilib və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Mərkəzi Seçki Komissiyasının iclası olub

Dekabrın 11-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın noyabrın 16-da və dekabrın 7-də keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyası, Azərbaycan Ümid Partiyası və Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb və sözügedən partiyalar tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

İclasda, həmçinin 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində əraziləri bir neçə seçki dairəsi arasında bölünmüş bələdiyyələrə seçkilərin yekunlarının müəyyən olunması məsələsi müzakirə edilib və komissiyanın qərarı ilə bu cür bələdiyyələr üzrə səsvermə protokollarını tərtib etməli olan dairə seçki komissiyaları müəyyənləşdirilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində də dəyişikliklər olunub və cari məsələlərə baxılıb.

# Bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb

Əvvəli 1-ci səh.

Seçki bülletenlərinin dekabrın 11-də Naxçıvan Muxtar Respublikası və digər bölgələrdə yerləşən ümumilikdə 24 seçki dairəsinin, dekabrın 16-dək isə respublikanın bütün seçki dairələrinin dairə seçki komissiyalarına verilməsi nəzərdə tutulur.

Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilən yüksək təhlükəsizlik şəraitində hazırlanan seçki bülletenləri dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanılması prosesinin mühafizəsi Daxil İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən təmin edilir.

Xatırladaq ki, bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulan müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra, noyabrın 30-dan etibarən seçki bülletenlərinin çapına başlanılıb və komissiyanın qərarı ilə 5020287 (beş milyon iyirmi min iki yüz səksən yeddi) ədəd seçki bülleteni çap olunub. Seçki Məcəlləsinin tələbinə əsasən bülletenlər dairə seçki komissiyalarına paylandıqdan sonra səsvermə gününə azı 3 gün qalanadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.

# Məntəqələr seçkilərə tam hazırdır



Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərinə Salyan rayonunda da hərtərəfli hazırlıq görülüb. 59 saylı Salyan Dairə Seçki Komissiyası üzrə 39 mindən çox seçicini əhatə edən 40 seçki məntəqəsi fəaliyyət göstərir. Həmin məntəqələrdə 7 bələdiyyəyə 77 nəfər üzv seçiləcək. 262 nəfər isə öz namizədliyini irəli sürmüşdür.

Namizədlərin 87 nəfəri Yeni Azərbaycan, Böyük Qurtuluş, Ana Vətən, Azərbaycan Sosial Demokrat, Azərbaycan Demokrat Maarifçilik partiyalarından, qalan 175 nəfəri isə öz təşəbbüsləri ilə irəli sürülənlərdir. DSK-nın sədri Səlamət Kərimov dedi ki, məntəqələr seçkilərə tam hazırdır. Onların hamısı lazımi seçki materialları ilə təmin edilmiş, hər bir məntəqə üzrə seçicilərin siyahısı dəqiqləşdirilmiş, onlar xüsusi lövhələrə vurularaq, məntəqələrin giriş hissəsində yerləşdirilmişdir. Hər bir seçki məntəqəsi telefon, alternativ enerji mənbəyi, seyf, ultrabənövşəyi şüa aparatı, daşınan və daşınmaz qutu, habelə digər ləvazimatlarla təchiz edilmişdir. S.Kərimov onu da bildirdi ki, 8 məntəqədə vebkamera quraşdırılmışdır.

Ən yaşlı seçici 38 saylı Sarvan kənd seçki məntəqəsi üzrə Fikrət Rzayevadır. Onun 103 yaşı var. Digər belə bir seçici Salyan şəhərindəki 5 saylı məntəqədə səs verəcək 101 yaşlı Seyran Səmədzadədir. İlk dəfə səs verənlər isə 1650 nəfərdir. Hər bir məntəqənin qarşısında 2 təşviqat lövhəsi vurulmuşdur. Namizədlərin təşviqat kampaniyasını aparmaları üçün 7 bələdiyyənin hər birində rayon icra hakimiyyəti tərəfindən qapalı və açıq yerlər ayrılmışdır. Dairə üzrə məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri üçün seminar-müşavirələr, izahat və məlumat xarakterli maarifləndirici tədbirlər keçirilmişdir.

Dairənin şəhid Azər Səfərov adına Salyan Şəhər İnternat Məktəbin binasında yerləşən 7 saylı məntəqəsində də olduq. Məntəqə üzrə 1086 nəfər seçici var. Seçicilərin siyahısı məntəqənin girəcəyində ayrılmış yerdə lövhələrdə öz əksini tapmışdır. Məntəqə seçki komissiyasının 6 nəfər üzvü var. Onlardan 2-si Yeni Azərbaycan, 1-i Ana Vətən, 1-i Vəhdət partiyalarının üzvləri, 2-si isə bitərəfdir.

Digər seçki məntəqələrində də hazırlıq işləri başa çatdırılmışdır. Hazırda seçicilərə bildirişlər paylanır.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

# Bakıda rəsmi statistik məlumatların istehsalında İKT və kadr potensialının gücləndirilməsinə dair konfrans

## Konfrans çərçivəsində Azərbaycan və Koreya statistika komitələri arasında anlaşma memorandumu imzalanıb

Dekabrın 11-də Bakıda Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Koreya Respublikasının Statistika Komitəsinin (KOSTAT) birgə təşkilatçılığı ilə “Rəsmi statistik məlumatların istehsalında İKT və kadr potensialının gücləndirilməsi” mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, konfransda Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, KOSTAT-ın sədri Kanq Şin-Uok, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Tonq Op açılış nitqi ilə çıxış ediblər.



Qeyd olunub ki, Dövlət Statistika Komitəsi ilə KOSTAT arasında 2018-2019-cu illərdə Azərbaycanda statistika potensialının gücləndirilməsi ilə bağlı 2 layihə həyata keçirilib. Birinci layihə çərçivəsində Dövlət Statistika Komitəsinin statistika və informasiya texnologiyaları üzrə cari vəziyyəti və ehtiyacları təhlil edilib, komitədə 2 ədəd server avadanlığı quraşdırılıb, rəsmi statistika məlumatlarının yayımı sahəsində beynəlxalq səviyyədə tətbiq olunan standartlara uyğun üslubda, istifadəçiyönümlü “Azərbaycanın Statistik İnformasiya Xidməti - ASİS” statistik məlumatların yayım sistemi hazırlanaraq istifadəyə verilib. İkinci layihə hesabına isə komitədə müasir informasiya texnologiyaları avadanlıqları ilə təchiz edilmiş 31 yerlik təlim otağı yaradılıb, iqtisadi və sosial statistika sahəsində KOSTAT-ın təcrübəsi ilə tanış olmaq üçün Statistika Komitəsinin 34 əməkdaşına Koreya Respublikasında, 50-dən çox əməkdaşına Azərbaycanda təlimlər keçilib, eyni zamanda, ölkəmiz üçün statistikanın müxtəlif sahələrinə dair modul tipli təlim proqramları hazırlanıb.

Sonra konfransda “Statistikanın modernləşdirilməsi - Koreya təcrübəsi”, “Dövlət Statistika Komitəsində rəsmi statistik məlumatların istehsalı proseslərinin təşkili: həyata keçirilmiş islahatlar və yeni çağırışlar”, “Modul tipli statistik təlim proqramları”, “Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi tərəfindən birgə həyata keçirilmiş layihələrin qısa icmalı” mövzularında təqdimatlar dinlənilib.

Konfrans çərçivəsində Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və KOSTAT-ın sədri Kanq Şin-Uok imzalayıblar.

Tədbirdə iştirakçıları və KİV nümayəndələrini maraqlandıran suallar da cavablandırılıb.

# Bölgələrdə vətəndaşlar qəbul edilib

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə dekabrın 11-də Abşeron və Qobustan rayonlarının sakinləri ilə görüşüb.

Sonra Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Goradil kəndində yerləşən Abşeron Suvarma Sistemləri İdarəsinin inzibati binasında Abşeron və Qobustan rayonlarından olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib. Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi üçün boru xətlərinin çəkilməsi, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, suvarma kanallarının beton üzlüyə alınması və digər məsələləri əhatə edib.

Hər bir vətəndaşı fərdi qəbul edərək, müraciətini dinləyən Əhməd Əhmədzadə onları narahat edən məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verib. Qaldırılan məsələlərin bir qismi elə yerində həll edilib. Araşdırılmaya ehtiyacı olanlar isə qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. ASC-nin səlahiyyətlərinə aid olmayan müraciətlər müvafiq aidiyyəti orqanlara çatdırmaq üçün nəzarətə götürülüb.

***

Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rüstəm Şahbazov dekabrın 11-də Quba rayonunda vətəndaş qəbulu keçirib. Qəbulda vətəndaşların fərdi qaydada müraciətlərinə baxılıb. Səslənən müraciətlər əsasən daşınmaz əmlakın qeydiyyatı, o cümlədən fərdi həyət evi, bələdiyyələr tərəfindən müxtəlif məqsədlərlə ayrılmış torpaqların qeydiyyatı, vaxtilə verilmiş pay torpaqlarının sənədləri ilə faktiki vəziyyəti arasında uyğunsuzluqların aradan qaldırılması ilə əlaqədar olub. Eyni zamanda, torpaqların təyinatına uyğun istifadəsi, kateqoriyasının dəyişdirilməsi prosedurları, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı müraciətlər də ünvanlanıb.

Bütün müraciətlər diqqətlə dinlənilib. Əksər məsələlər elə yerindəcə öz müsbət həllini tapıb. Digər müraciətlər nəzarətə götürülüb və qısa zamanda, qanunvericiliyə uyğun şəkildə həll olunması ilə bağlı komitə rəhbərliyi tərəfindən müvafiq tapşırıqlar verilib. Səsləndirilən bir neçə müraciətin komitənin fəaliyyət istiqamətinə aid olmaması vətəndaşlara izah edilib və digər qurumlara göndərilməsi üçün qeydiyyata alınıb.

***

“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov Şirvan şəhərində Şirvan və Hacıqabuldan olan sakinləri qəbul edib.

Gənclər Mərkəzində keçirilən qəbulda Şirvan şəhərindən və Hacıqabul rayonundan olan 40 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşı dinləyən “Azərsu” ASC-nin sədri müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

***AZƏRTAC***

## Azərbaycanın özü qədər əbədi

# Ümummilli liderlik: miqyası və missiyası

*Əvvəli 1-ci səh.*

Sözün əsl mənasında, *Azərbaycan və onun taleyi, xalqın ümidləri və gələcəyi Heydər Əliyev siyasətinin mahiyyətini müəyyən etmişdir.* Bu böyük dövlət xadiminin baxışlarında ölkəsini və xalqını dünya azərbaycanlıları ilə birlikdə geniş miqyasda və tam halda təsəvvür etmək miqyasında düşünülmüş bir qavrayışın ifadəsindən ibarət olmuşdur.

Uzaqgörən dövlət xadimi kimi Heydər Əliyevin Azərbaycan anlayışında dünyada gedən proseslərin fonunda ölkəsinin və çoxmilyonlu xalqının taleyinin ən əsas faktor kimi nəzərə alınması, istiqamətləndirilməsi həmişə ön mövqedə dayanmışdır. Beləliklə, *Heydər Əliyevin timsalında ümummilli liderlik rəhbəri olduğu ölkənin fövqünə qalxmağı bacarmaq, mənsub olduğu xalqın böyük gələcəyinə xidmət etmək deməkdir.*

Ümummilli liderlik ölkə maraqlarını ümumdünya proseslərinin fonunda dəyərləndirib nəticələr çıxarmağı tələb etmişdir. Görkəmli dövlət xadimi *Heydər Əliyev ölkə maraqlarını ümumdünya prosesləri ilə üzvi surətdə uzlaşdırmağı, milli dövlətçilik mənafelərinə xidmət edən qərarlar qəbul etməyi və həmin qərarları zamanında və qətiyyətlə həyata keçirməyi bacarmışdır.*

Bu mənada ümummilli liderlik üçün ümummilli maraqlarla eyni səviyyədə, bəlkə bir qədər də artıq dərəcədə geniş siyasi-ideoloji dünyagörüşə və dövlətçilik təfəkkürünə malik olmaq zəruri şərtlər sırasında xüsusi yer tutur. Aydın, dərin və geniş dünyagörüşə malik olmaq cəhətdən Heydər Əliyev dünyanın müxtəlif ölkələrinin ən adlı-sanlı dövlət başçıları ilə, məşhur siyasi xadimlərlə müqayisə oluna bilər.

*Heydər Əliyev universal zəka sahibi olan görkəmli dövlət xadimi idi.*

Cəmiyyət həyatının ən müxtəlif sahələrinə kamil mütəxəssis səviyyəsində dərindən bələd olmaqda onunla müqayisə edilə biləcək dövlət xadimi göstərmək çətindir. Haqlı olaraq onun adını dünya siyasətində özünü təsdiq etmiş Corc Vaşinqton, Vilyam Çörçil, Şarl de Qoll, Mustafa Kamal Atatürk kimi qüdrətli dövlət xadimləri ilə bir sırada çəkirlər.

*Həqiqətən dünyada gedən siyasi prosesləri dərindən təhlil edib dəyərləndirməkdə, nəticələr çıxarmaqda, həll yollarını proqnozlaşdırmaqda da Heydər Əliyev əlçatmaz zirvədə dayanır.*

*Heydər Əliyev SSRİ adlanan superdövlətin liderləri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvləri arasında geniş dünyagörüşü, təhlil və müqayisə etmək bacarığı, gələcəyə baxışları ilə fərqlənmişdir.*

Sovetlər Birliyinin rəhbərliyində Heydər Əliyevə bəslənən qısqanclıq meyillərinin kökündə duran əsas səbəblərdən biri onun parlaq və aydın zəkası, geniş dünyagörüşə malik olması, müstəsna idarəçilik qabiliyyəti idi.

*Heydər Əliyev zəngin və geniş dövlətçilik təfəkkürünə malik olan nadir dövlət xadimlərindən biridir.*

Dövlətçiliyin nəzəriyyəsi ilə təcrübəsinin möhkəm vəhdətinə nail olmaq və bütün bunları özünün intellektual qabiliyyətləri ilə əlaqələndirməyi bacarmaq Heydər Əliyev fenomeninin əsaslarını təşkil edir.

Dünyanın görkəmli dövlət xadimləri və böyük siyasətçiləri, elm və mədəniyyət xadimləri Heydər Əliyevin dövlətçilik təcrübəsinə həmişə heyrətlə yanaşmış, onun qeyri-adi qabiliyyətə malik olduğunu dönə-dönə etiraf etmişlər.

- Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Heydər Əliyevi dünyanı idarə etmək qabiliyyətinə malik olan dövlət xadimi kimi qiymətləndirmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Heydər Əliyevdən böyük dövlətçilik və idarəetmə məktəbi yaratmış görkəmli dövlət xadimi kimi bəhs etmişdir.
- Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl onu türk dünyasının əsas lideri kimi ucada görmüşdür.
- Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun aşağıdakı sözləri görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik istedadına verilmiş obyektiv qiymətin ifadəsidir: “Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü Müstəqil Dövlətlər Birliyi məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. … Heydər Əliyev yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti - müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi sayəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir”.

Beləliklə, *ümummilli liderlik üçün zəruri olan kamil dövlətçilik təfəkkürü, uzaqgörənlik, ümummilli hədəflərin müəyyən olunması və geniş siyasi dünyagörüş və qətiyyətli addımlar Heydər Əliyev fenomeninin miqyasını müəyyən etmişdir.* O, sözün əsl mənasında, Çingiz Aytmatovun dediyi kimi, “tarixi və əfsanəvi bir şəxsiyyət” kimi diqqəti cəlb etmişdir.

Ümummilli liderliyin geniş miqyası dövlət xadiminin uzaqgörənliyini və qətiyyətini müəyyən edir. Ümummilli idealları həyata keçirmək üçün zəruri olan uzaqgörənlik, qətiyyət və cəsarət liderliyin bu fazasında ideyadan əmələ doğru gedişatın əsas hərəkətverici qüvvəsinə çevrilir.

*Heydər Əliyevin simasında dövlətçilik baxımından müdriklik və uzaqgörənlik nəzəri-metodoloji baxışlar sisteminin, qətiyyət isə əməlin, hərəkətin siyasi ifadəsindən ibarətdir.*

Ümummilli hədəflərin müəyyən edilməsi, üstəgəl atılacaq addımların siyasi mahiyyətinin dərindən təhlil edilib qiymətləndirilməsi və tələb olunan anda qətiyyətli mövqe nümayiş etdirilməsi ümummilli liderlik anlayışının miqyasını müəyyənləşdirir. Bu məqamda ümummilli liderliyin ideya-nəzəri miqyası dövlət xadiminin xalq və ölkə qarşısındakı missiyasını həyata keçirməkdə göstərdiyi dönməz, qətiyyətli mövqe ilə şərtlənir.

*Dünya siyasətində və ölkə rəhbərliyində təmsil olunduğu qırx ilə yaxın bir dövrdə Heydər Əliyevin timsalında ümummilli liderliyin miqyası ilə missiyası həmişə bir-birini üzvi surətdə tamamlamışdır.*

Görkəmli dövlət xadimi Heydər Əliyev xalqının gələcəyini qabaqcadan görmək və ölkəsini həmin ideal gələcəyə doğru real surətdə aparmaq qabiliyyətinə malik olmuşdur. Sovet hakimiyyəti illərində kommunist ideologiyasının hakim olduğu şəraitdə Heydər Əliyevin azərbaycançılıq siyasətini addım-addım həyata keçirməsi, milli-mənəvi dəyərləri ön mövqeyə çəkməyi bacarması nəticə etibarilə xalqda müstəqil dövlətçilik şüurunun formalaşdırılmasında mühüm rol oynamışdır.

Doğma vətəni özünün qibləgahı hesab edən Heydər Əliyevə görə “Azərbaycanı sevmək - azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir”. *Azərbaycançılıq isə Heydər Əliyev üçün ümummilli ideal və milli dövlətçilik ideologiyası mənasını daşımışdır.*

Heydər Əliyevin milli dövlətçilik təlimində azərbaycançılıq ideologiyası xalqın tarixi keçmişi ilə müasir reallıqlarının və gələcəyinin vəhdətdə nəzərə alınması, milli-mənəvi dəyərlərin mövcud şəraitə uyğun olaraq yaşadılması kimi prinsipləri özündə cəmləşdirir. Dahi rəhbərin ifadə etdiyi *“milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, milli xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır” tezisi azərbaycançılığın düsturuna çevrilmişdir.*

Eyni zamanda, Heydər Əliyevin iradəsi ilə 1978-ci ildə Azərbaycan Sovet Respublikasının Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunda yer alması da zamanı qabaqlayan hadisə idi. Beləliklə, sovet dövründə ardıcıl şəkildə və uğurla həyata keçirdiyi azərbaycançılıq siyasəti xalqın milli şüurunun inkişafında böyük rol oynamış, onu milli azadlıq uğrunda mübarizəyə hazırlamışdır. Bu isə öz növbəsində Azərbaycanda müstəqil dövlət qurulduqdan sonra azərbaycançılıq təliminin milli dövlətçilik ideologiyasına çevrilməsi ilə nəticələnmişdir.

Bütün bunlar Heydər Əliyev tərəfindən ictimai-siyasi proseslərin gələcəyini vaxtında görmək, zamanı qabaqlamaq sayəsində baş tutmuşdur. SSRİ dağılandan sonra müstəqil Azərbaycan Respublikasında azərbaycançılığın dərhal milli dövlətçilik statusu qazanması ilə ölkəmiz digər yeni qurulmuş dövlətləri qabaqlamışdır.

*Çünki məhz Heydər Əliyevin sayəsində müstəqillik statusu əldə etmiş digər dövlətlərin yeni cəmiyyət quruculuğu zamanı yaşadığı milli ideologiya axtarışlarını Azərbaycan Respublikası sovet hakimiyyəti illərində keçmişdir. Deməli, müstəqil Azərbaycan Respublikası milli dövlətçilik ideologiyasını müəyyən etməkdə eyni taleyə malik olan başqa gənc respublikadan bir addım qabaqda olmuşdur.*

Görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın taleyi ilə əlaqədar məsələlərdə gələcəyi öncədən görmək və zamanı qabaqlamaq baxımından atdığı addımlardan biri də dövlət müstəqilliyi ərəfəsində taleyin hökmü ilə Naxçıvan Muxtar Respublikasında siyasi fəaliyyətlə məşğul olduğu illərdə həyata keçirdiyi tədbirlərlə bağlı idi.

Belə ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Sovet Respublikası Ali Sovetinin iclasında üçrəngli dövlət bayrağının ölkəmizin dövlət bayrağı kimi qəbul edilməsinə nail olması da xalqın milli azadlığı uğrunda gedən proseslərdə bu böyük dövlət xadiminin zamanı qabaqlamaq missiyasını gerçəkləşdirməsi demək idi. Hələ sovet hakimiyyətinin mövcud olduğu bir dövrdə həmin derjavanın dövlət rəmzlərindən imtina edilməsi və praktiki olaraq gələcək müstəqil dövlətin bayrağının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının iqamətgahı olan binanın üzərində dalğalandırılmasına nail olması nəinki zamanı qabaqlamaq, sözün əsl mənasında, qəhrəmanlıq nümunəsi göstərmək idi.

Əslində, hələ dövlət müstəqilliyinin bərpa edilməsinə 11 ay qalmış Naxçıvan Muxtar Sovet Sosialist Respublikası ifadəsindən “sovet sosialist” sözlərinin çıxarılması da, sovet ordusu birləşmələrinin muxtar respublikanın ərazisindən dinc yolla uzaqlaşdırılması da, SSRİ-nin saxlanmasına dair referendumdan imtina edilməsi də ölkəmizdə milli azadlıq hərəkatını qabaqlamış hadisələrdir.

*Belə taleyüklü hadisələrin gedişində nümayiş etdirdiyi uzaqgörənlik və qətiyyət Heydər Əliyevin ümummilli liderlik missiyasını həyata keçirmək bacarıqlarının təntənəsidir.*

*Bugünün zirvəsindən baxanda həmin hadisələr tarixin inanılmaz ibrət dərsləridir.*

Dünya təcrübəsində öz xalqının milli və dövlətçilik maraqlarına xidmət edən Konstitusiyanın qəbul edilməsi ümummilli liderlik missiyasının həyata keçirilməsinin təməl prinsiplərindən biri hesab olunur. Görkəmli dövlət xadimi Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdən biridir ki, o, həm 1978-ci ildə, sovet dövründə, həm də 1995-ci ildə, müstəqillik mərhələsində iki dəfə ölkəsinin dövlət Konstitusiyasının hazırlanıb qəbul edilməsinə nail olmuşdur. Bundan başqa, tale Heydər Əliyevə fərqli ictimai-siyasi quruluşlarda qəbul edilmiş həmin konstitusiyaları həm də xalqının mənafeyinə uyğun surətdə həyata keçirməyə şərait yaratmışdır. Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevin yazdığı kimi, “Azərbaycan xalqı bilir ki, dövlətimizin ilk müstəqil və demokratik Konstitusiyasının - Ana Qanununun müəllifi Heydər Əliyev... ilk əvvəl Konstitusiyada adı həkk olunmuş müstəqil Azərbaycan dövlətini yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir”.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının Heydər Əliyev Konstitusiyası adlandırılması görkəmli dövlət xadiminin dövlətimizin Əsas Qanununun həm dahiyanə yaradıcısı və həm də qətiyyətli və bacarıqlı icraçısı olmasına verilmiş obyektiv qiymətin ifadəsidir.

*Azərbaycan Respublikasını böhrandan xilas edərək yeni inkişaf yoluna çıxarması da Heydər Əliyevin ümummilli liderlik missiyasını həyata keçirməsi yollarında atdığı tarixi addımlardandır.*

Heydər Əliyev sovet hakimiyyəti illərində Azərbaycan dövlətinə rəhbərlik edərkən respublikanı iqtisadi cəhətdən keçmiş ittifaqa daxil olan 15 müttəfiq respublika arasındakı axırıncı yerlərdən birincilər sırasına çıxarmağa müvəffəq olmuşdur. Adı geridə qalmış aqrar ölkə kimi çəkilən, yalnız xammal mənbəyi kimi tanınan Azərbaycan sovet respublikası qısa müddətdə bütün yönləri ilə inkişaf etmiş keçici bayraqlı respublika səviyyəsinə yüksəldilmişdir.

Müstəqillik dövrünün başlanğıc illərində isə Heydər Əliyev xalqımızı cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş siyasi-iqtisadi, hərbi böhrandan çıxarmış, beyin axınından xilas etmiş və yeni inkişaf yoluna çatdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aşağıdakı sözləri Ulu Öndərin həmin sahədəki tarixi xidmətlərinin qiymətləndirilməsinin obyektiv ifadəsidir: “Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb, inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir”.

Mənsub olduğu xalqı öz ətrafında birləşdirmək, onu taleyüklü çağırışlar uğrunda mübarizəyə səfərbər etmək də ümummilli liderlik missiyasını yerinə yetirmək deməkdir. Ulu Öndər Heydər Əliyev dövlətçilik fəaliyyətinin bütün dövrlərində həyatını doğma xalqına həsr etmiş, ümumxalq ehtiramı qazanmışdır. Xalq həmişə ona inanmış, bu böyük dövlət xadiminin çağırışlarına tam mənası ilə yekdilliklə səs vermişdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən və Azərbaycan Respublikasının Prezidenti ikən Naxçıvanda və Bakı şəhərində törədilmiş dövlət çevrilişi cəhdləri zamanı xalqımızın dərhal Heydər Əliyevin çağırışlarına qoşularaq dahi rəhbərin ətrafında sıx birləşməsi, ümumxalq həmrəyliyi nümayiş etdirməsi Heydər Əliyevə ümummilli liderlik statusu qazandıran tarixi hadisələrdir.*

Xalqın sarsılmaz birliyi vasitəsilə dövlət çevrilişi cəhdlərinin qarşısının böyük qətiyyətlə alınması Heydər Əliyevin ümummilli liderlik missiyasını həyata keçirməsinin əməli ifadəsidir.

*Bu mənada “xalq - Heydər, Heydər - xalq” həmrəyliyinin sarsılmaz qüvvəyə çevrilməsi Heydər Əliyevin dövlətçilik məharətinin dahiyanə əməli ifadəsi olmuşdur.*

Bundan başqa, görkəmli dövlət xadimi *Heydər Əliyevin Azərbaycan coğrafiyasında tarixən yaşayıb fəaliyyət göstərən bütün xalqların və etnik qrupların həmrəyliyinə və birliyinə nail olması da ümummilli liderlik fəlsəfəsinin əməli ifadəsidir.*

Təsadüfi deyildir ki, Heydər Əliyev keçmiş Sovet İttifaqının rəhbərliyində millətlərarası münasibətlərin tənzimlənməsi üzrə əsas fiqur kimi qəbul edilmişdir. XX əsrin yetmiş-səksəninci illərində baş vermiş Qazaxıstandakı hakimiyyət dəyişməsi iğtişaşlarının tənzimlənməsində, Özbəkistandakı Fərqanə hadisələrinin nizamlanmasında Siyasi Büro Heydər Əliyev faktoru ilə razılaşmalı olmuşdur. Azərbaycan Sovet Respublikasında yaşayan bütün xalqlar da Heydər Əliyev simasında özlərinin əsl müdrik rəhbərini görmüşlər.

Dövlət müstəqilliyinin başlanğıc illərinin gərgin hadisələri zamanı da Ulu Öndəri ölkəmizdə yaşayan bütün xalqlar və eyni zamanda dünya azərbaycanlıları eyni məhəbbət və inamla ürəkdən dəstəkləmişlər.

Beləliklə, Heydər Əliyev geniş mənada Azərbaycan xalqının Ümummilli Lideri statusu qazanmışdır.

*Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin strategiyasını, yaxın və uzaq gələcək üçün inkişaf yollarını müəyyən etmək mənasında da Ümummilli Lider olmuşdur.*

*Ümummilli liderlik Heydər Əliyevə Azərbaycan xalqının həm tarixində, həm də gələcək taleyində əbədiyaşarlıq qazandırmışdır. Azərbaycan xalqına özündən sonrakı dövr üçün ən layiqli siyasi varisi yetişdirib hazırlaması da Ulu Öndərin tarixi xidmətidir.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizin yeni tarixi mərhələdəki yüksək və hərtərəfli inkişafını təmin etməklə müstəqil dövlətimizi qətiyyətlə irəli aparır. Dünyada baş verən müasir hərbi-siyasi proseslərə, iqtisadi çalxalanmalara, yeni sənaye inqilablarına çağırışlara, habelə multikultural dəyərlərə fərqli baxışlara uyğun olaraq müstəqil dövlətimizin inkişaf strategiyası və taktikasını daim yeniləşdirən və zənginləşdirən Prezident İlham Əliyev özünün dərin analitik təfəkkürü və çoxcəhətli yorulmaz fəaliyyəti ilə XXI əsrin əsl modern dövlətçilik nümunəsini göstərməkdə davam edir.

Dövlət rəhbərimizin fəaliyyətinin hər anı, hər səhifəsi Azərbaycan xalqının bugünkü inkişafına və daha xoşbəxt gələcəyinə xidmətin əməli ifadəsidir. Məhz Prezident İlham Əliyevin apardığı məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətin nəticəsində müstəqil Azərbaycan Respublikası qısa müddətdə nəinki regionda, dünya miqyasında söz sahibinə çevrilmişdir.

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü seçilməsi dövlət rəhbərimizin həyata keçirdiyi siyasətin beynəlxalq aləmdə tam dəstəklənməsinin göstəricisidir.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi, TANAP layihəsinin Avropaya ayaq açması, “Şimal-Cənub” tranzit nəqliyyat dəhlizinin yaradılması Prezident İlham Əliyevin adı ilə bağlı olan beynəlxalq əhəmiyyətə malik layihələrdir.

Ölkəmizdə neft sektorundan asılılığın aradan qaldırılması üçün aqrar sahənin, nəqliyyat və turizm sektorlarının gəlir gətirən sahələrə çevrilməsi, regionların böyük sürətlə inkişaf etdirilməsi möhtərəm Prezidentin müdrik siyasətinin mühüm nəticələridir.

Elm, təhsil, mədəniyyət və səhiyyə sahəsində əldə edilmiş nailiyyətlər Azərbaycanda yeni bir inkişaf mərhələsinin formalaşmasına böyük töhfələr vermişdir. Dövlət səviyyəsində aparılan multikulturalizm və tolerantlıq siyasəti respublikamızda sabitlik və birliyin möhkəmləndirilməsinə uğurla xidmət edir.

*Ölkəmizdə xalq ilə rəhbər arasında yaranmış sarsılmaz birlik möhtərəm Prezidenti xalqımızın lideri səviyyəsinə yüksəltmişdir.*

*Dünyanın ən mötəbər xitabət kürsülərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni tarixi epoxanın görkəmli liderlərindən biri kimi çıxış edir.*

Eyni zamanda, Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə də dövlət başçımızın dərin məzmunlu nitqləri, çağırışları planetimizdə sülhə, sabitliyə, əməkdaşlığa geniş üfüqlər açır.

Bütün bunlara görədir ki, inkişaf etmiş dünya dövlətlərinin liderləri sırasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi yeri var. Ölkəmiz və xalqımız Prezident İlham Əliyevin liderliyi ilə daha böyük gələcəyə doğru inamla yol gedir.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***



# Azərbaycanın özü qədər əbədi

**Bu gün Ümummilli Lider Heydər Əliyevin anım günüdür. Zaman ötdükcə Heydər Əliyevin yaratdığı irsin, onun ideyalarının dəyərini daha dərindən anlayırıq. Ulu Öndərin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.**

**Ulu Öndərin anım günündə Milli Məclisin deputatları dahi şəxsiyyətlə bağlı təəssüratlarını qəzetimizlə bölüşdülər.**



# Müasir Azərbaycanın qurucusu









## Qüdrətli dövlət xadimi

**Rafiq MƏMMƏDHƏSƏNOV,**
*Milli Məclisin deputatı:*

- 12 dekabr 2003-cü il. Bu tarix müasir dövlətçiliyimizin banisi, Ümummilli Lider Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür. Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq, xalq öz xilaskarını heç zaman unutmur, daim onu ehtiramla yad edir. Çünki xalqı, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməzlər.

Azərbaycanın yarım əsrə bərabər dövrünü əhatə edən Heydər Əliyev epoxası tariximizə qızıl hərflərlə yazılmış əbədiyyət dastanıdır. Milli dövlətçilik tariximizin əbədi şöhrətinə çevrilmiş Ulu Öndər Heydər Əliyev artıq öz bəşəri əməlləri ilə qüdrətli dövlət xadimi və əvəzedilməz şəxsiyyət olduğunu dünya qarşısında nümayiş etdirib.

Hər bir dövlətin mövcudluq tarixində ciddi sınaqlar qarşısında qalması, xalqın milli müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi məqamlar çoxdur. Fəqət, ən çətin, ekstremal siyasi şəraitdə millətin iradəsini və istəklərini, dövlətin diplomatiya və strategiyasını, cəmiyyətin həmrəyliyini və konsensusunu birləşdirməyə qadir şəxsiyyətin sayəsində dövlətlər öz varlığını davam etdirmiş, millətlər dirçəlmişdir. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiya mühitinin dərinləşməsi göstərdi ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər.

Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı ilə milli müstəqilliyimizi itirmək təhlükəsindən xilas etdi. Bununla da ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Azərbaycanın dövlət müstəqilliyi hər cür daxili və xarici təhdidlərdən qurtuldu.

Ulu Öndər Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürdü, eyni zamanda bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkdi. Onun dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli oldu.

Dahi şəxsiyyətin Azərbaycanda gördüyü nəhəng quruculuq işləri müstəqillik dönəminin ən böyük nailiyyətləri olmaqla ölkə tarixinin müasir dövrü üçün silinməz izlər buraxdı. Ümummilli Lider respublikada sosial-iqtisadi inkişafla yanaşı, milli-mənəvi ruhu yüksəltməklə azərbaycanlıların tarixi ənənələrinə, köklərinə bağlılığını sürətləndirməyə çalışırdı. Müxtəlif tədbirlərdə cəmiyyətə milliləşmənin zəruriliyi çağırışını yayır, milli dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı ictimai fikrə böyük müdrikliklə təlqin edirdi.

Azərbaycan tarixinin şanlı salnaməsini yaradan, mənalı ömrünün böyük bir hissəsini doğma vətəninin və canından əziz bildiyi xalqının iqtisadi tərəqqisi, səadət və xoşbəxtliyi naminə mübarizəyə həsr edən Heydər Əliyevə olan sevgi və məhəbbət təkcə Azərbaycanda yaşayan yurddaşlarımızın deyil, vaxtilə müxtəlif ictimai-siyasi münaqişələr üzündən doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın da qəlbində yaşayır.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə, inkişafa doğru məhz Heydər Əliyevin təməlini qoyduğu yol ilə inamla irəliləməkdədir. Ötən 16 ilin siyasi-iqtisadi-sosial mənzərəsi göstərir ki, cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz lider olduğunu təsdiqləyib, ictimai inamı tam doğruldub. Dövlət başçısının fəaliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə ən optimal qərarlar qəbul etməyi, ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır.

Əminliklə deyə bilərik ki, Ulu Öndər Azərbaycan xalqının birliyinin və dövlət müstəqilliyinin rəmzidir. Nə qədər söz desək də, Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yaradılması, möhkəmləndirilməsi, inkişafı, qüdrətli ölkəyə çevrilməsi uğrunda göstərdiyi xidmətləri, fədakarlığı, mübarizliyi ifadə etməyə yetərsizdir.

## Ulu öndər daim yüksək ehtiramla anılacaq

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri:*

- Müasir Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin adı tariximizə qızıl hərflərlə həkk olunub. Ölkəmizin inkişafının şanlı, o cümlədən müstəqillik dövrünün ilk şərəfli səhifələri məhz Ulu Öndərin müəllifliyi ilə yazılıb. Xalqımızın qəlbində özünə taxt qurmuş bu dahi şəxsiyyət çalışdığı bütün vəzifələrdə, fəaliyyətinin bütün mərhələlərində vətəninə, xalqına layiqincə, böyük məhəbbətlə xidmət edib, milli dəyərlərimizə hər zaman bağlı olub. Bu mənada xalqımızın malik olduğu ali keyfiyyətlər Heydər Əliyev dühasının kamil şəxsiyyətində öz təcəssümünü tapıb.

Təbii ki, Ulu Öndər Heydər Əliyevin xalqın Ümummilli Liderinə çevrilməsini şərtləndirən əsas keyfiyyətlər onun çətin, mürəkkəb və böhranlı siyasi-iqtisadi situasiyalarda milli təəssübkeşlikdən çıxış etməsi, problemlərin həlli üçün əsl vətəndaşlıq nümunəsi göstərməsidir. Heydər Əliyevin tarixi xidmətlərindən söz açandan ilk olaraq onun 50 il əvvəl Azərbaycanda başlatdığı inkişaf prosesləri yada düşür. 1969-cu ilin yayından Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyevin elə ilk günlərdən respublikanın və xalqın inkişafı istiqamətində fəaliyyətinin, atacağı addımların cizgiləri, istiqamətləri məlum idi. Bütün sahələrdə neqativ hallara son qoyulması, respublikanın iqtisadi potensialının hərəkətə gətirilməsi, səriştəli kadrların irəli çəkilməsi kimi vəzifələri müəyyən edən Heydər Əliyevin ölkəyə rəhbərliyi ilk vaxtlardan Azərbaycanda böyük iqtisadi inkişafa yol açdı. Ulu Öndərin yenilikçi təşəbbüsləri ilə həyata keçirilən genişmiqyaslı islahatlar yeni iqtisadi potensialın formalaşdırılmasına, o cümlədən sosial-mədəni həyatın canlandırılmasına, milli-mənəvi dəyərlərin dirçəldilməsinə təkan verdi.

Bu mənada 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı inkişaf və quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Hansı ki, bu işlər həm də ölkədə müstəqil düşüncəyə yol açmış, Azərbaycanın gələcək dövlət müstəqilliyi üçün zəmin formalaşdırmışdı. Lakin xalqımız öz azadlığına nail olduqdan, müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyətə gələn iqtidarlar bu potensialdan səmərəli istifadə etmək əvəzinə dövləti parçalanmaq təhlükəsi qarşısında qoydular. Onların bir-birilə apardıqları hakimiyyət uğrunda mübarizə hətta ərazi bütövlüyü uğrunda ölüm-dirim savaşını da arxa plana keçirdi. Elə bunun nəticəsində Ermənistan öz işğalçılıq planlarını gücləndirdi, ərazilərimiz işğala məruz qaldı.

Həmin çətin, ağır, böhranlı günlərdə xalqımız çox düzgün qərar qəbul edərək yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün Heydər Əliyevə müraciət etdi. Xalqın təkidli tələbi ilə məhz Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın hələ kövrək olan müstəqilliyinin qorunmasına və gücləndirilməsinə xidmət edən amil oldu. Ulu Öndərin siyasi hakimiyyətə tarixi qayıdışı ilə Azərbaycan bir dövlət kimi məhvolmadan, dünya xəritəsindən silinməyin real təhlükəsindən xilas oldu. Müstəqilliyimiz əbədiliyə və dönməzliyə çevrildi.

Ulu Öndər Heydər Əliyev özünün zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamış tarixi şəxsiyyətdir. Məhz buna görə xalqımız Heydər Əliyevin adını tariximizə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin uzaqgörən və zəngin siyasi fəaliyyəti sayəsində mümkün olmuşdur. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcək.

Ulu Öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli inkişaf strategiyası bu gün onun layiqli varisi - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəni inamla icra edir. İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan tək regionda deyil, dünyada sayılıb-seçilən ölkədir.

Xalqımız Heydər Əliyevi daim yüksək ehtiramla xatırlayacaq. Çünki Ulu Öndər daim qəlblərdə yaşayır və yaşayacaq. Bu gün Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı, ölkəmizin dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyev ideyalarının yaşamasının, Ümummilli Liderin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir.

## Xilaskar

**Tahir SÜLEYMANOV,**
*Milli Məclisin deputatı:*

- Ulu Öndər Heydər Əliyev şəxsi keyfiyyətləri, davranışı, keçdiyi şərəfli ömür yolu ilə hər birimizə nümunə olan böyük şəxsiyyətdir. Onun dövlətimiz qarşısındakı tarixi xidmətləri o qədər böyükdür ki, bütün bunları sadalamaqla qurtarmaq olmaz. Dekabrın 12-si bir daha Heydər Əliyevi anmaqla, məzarını ziyarət etməklə, Ulu Öndərin əziz xatirəsinə öz ehtiramımızı bildiririk.

Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri əvəzedilməzdir. Həssas olan bir bölgədə yerləşən Azərbaycanda dövlətçiliyin yaradılması və bu dövlətçiliyin bütün bəşəriyyətə örnək olan inkişaf modelinin qurulması istiqamətində Heydər Əliyevin tarixi xidmətləri dünyanın qəbul etdiyi və öyrəndiyi zəngin bir irsdir. Heydər Əliyev müasir dövlət quruculuğu fəlsəfəsini yaradan bir siyasətçi idi. O, sivil, demokratik, dünyəvi dövlət quruculuğu təcrübəsini ortaya qoydu. Heydər Əliyev kimi şəxsiyyətlər tarixi yaradırlar, sonrakı nəsillər üçün örnək və məktəb olurlar.

Sovet illərində Heydər Əliyevin təşəbbüsləri ilə xalqımızın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən tədbirlər həyata keçirilirdi. Bu mənada o illərdə təkcə sosial-iqtisadi yüksəliş deyil, milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi. Sovet ideologiyasının qılıncının arxasının da, qabağının da kəsdiyi bir dövrdə Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin əriyib itməməsi üçün əlindən gələni etdi. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən məqsədyönlü siyasət Azərbaycan xalqının milli-mənəvi dəyərlərini xalqın şüurundan silə bilmədi.

Əgər Ulu Öndər 1993-cü ildə xalqın təkidli çağırışlarını qəbul etməsəydi, indi nə müstəqil dövlətimiz vardı, nə də firavan yaşayışımız. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycan dövlətçiliyini qurdu, yaşatdı. Ulu Öndər ağır döyüşlərin getdiyi cəbhə bölgələrinə, səngərlərə baş çəkirdi, hərbçilərin problemləri ilə yerindəcə tanış olurdu, respublikamızın bütün regionlarına, eləcə də xarici ölkələrə səfərlər edirdi, islahatlar aparırdı, yorulmadan çalışırdı. Bu tükənməz enerji, dərin siyasi təcrübə sayəsində yeni, gənc müasir Azərbaycan dövləti quruldu. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib, reallıqlardan lazımi nəticə çıxaran Heydər Əliyev kimi vətənpərvər insan, siyasətçi yalnız bu tarixi yarada və yaza bilərdi.

Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyev kimi dahi şəxsiyyət onun sıralarından çıxıb. Biz bu gün müstəqilliyimizdə, inkişafımızda Heydər Əliyevə borcluyuq. Biz bu gün atdığımız hər bir addıma Heydər Əliyevin baxışları ilə qiymət verməliyik. Tarix sübut edir ki, Heydər Əliyevin Azərbaycan üçün seçdiyi yol düzgün idi. Bu gün Azərbaycan bütün parametrlər üzrə nəinki regionun, ümumilikdə götürdükdə böyük bir arealın inkişaf nümunəsidir. Heydər Əliyev irsinə dünyanın bir çox yerlərində müraciət edirlər. Dünyanın neçə-neçə ölkəsində Ulu Öndərin abidəsi qoyulub, onun irsi öyrənilir. Biz Heydər Əliyevlə fəxr edirik, ondan nümunə götürürük.

İllər ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, amma bu qoca dünyanın unikal və qədim sivilizasiya ərazilərindən olan Azərbaycanda bir ad daim yaşayacaq, hörmətlə, ehtiramla xatırlanacaq - Heydər Əliyev. Bu adın qarşısında saysız-hesabsız titullar, millət, xalq, Vətən qarşısında misilsiz və müstəsna xidmətlər dayanır - Azərbaycanın xilaskarı, müstəqil dövlətçiliyin memarı və qurucusu, Ümummilli Lider, fenomen şəxsiyyət, Azərbaycan və azərbaycanlıların şərəf simvolu...

Ümummilli Liderimiz həm də unikal bir siyasi məktəbin, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi, milli inkişafı şərtləndirən ideoloji-siyasi irsin müəllifi kimi əbədiyaşarlıq qazanıb. Heydər Əliyev elə bir tarixi şəxsiyyət idi ki, onun ideyaları Azərbaycanın özü qədər əbədi olacaq. Biz Azərbaycan xalqının dünyaya belə bir şəxsiyyət bəxş etməsindən qürur hissi keçiririk. Bu dahi insanın vətən qarşısındakı xidmətləri, həyat və fəaliyyəti hər birimiz üçün örnəkdir.

Hər bir xalqın milli inkişaf yolunun banisinə çevrilən liderlər həm də dövlətçilikdə siyasi varislik ənənələri formalaşdırır, mütərəqqi ideyaların davamlılığını təmin edirlər. Ötən əsrdə xalqımızın yetirdiyi belə nadir şəxsiyyətlərdən birincisi olan Heydər Əliyev müstəqil Azərbaycanın davamlı inkişaf konsepsiyasını irəli sürməklə yanaşı, həm də bu strateji kursu qloballaşma dövrünün diktə etdiyi yeni şərtlərlə davam etdirməyə qadir olan, istedadlı, praqmatik, rasional təfəkkürlü, xalqını və dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı - lider yetişdirmişdir. Heydər Əliyev elə bir partiya yaratdı ki, onun da sıralarından Heydər Əliyev kursunu, onun ideyalarını və hətta dəstxətini ləyaqətlə davam etdirə biləcək yeni siyasi lider yetişdi. Təsadüfi deyil ki, bu gün Prezident İlham Əliyev təkcə dövlət başçısı olaraq deyil, həm də Yeni Azərbaycan Partiyasının sədri və ideoloji kursun lideri kimi Heydər Əliyevin başladığı işləri bütün aspektlərdə davam etdirir.

Bu gün Ulu Öndərin milli dövlətçilik konsepsiyasının bütün atributları öz real təsdiqini tapmaqla, Azərbaycanı iqtisadi, siyasi, sosial, humanitar inkişaf yoluna çıxarmışdır. Gündən-günə tərəqqi edən Azərbaycanın hansı guşəsinə baxsan, gözümüzün önündə Ulu Öndər Heydər Əliyevin vətənimiz və xalqımız üçün gördüyü möhtəşəm işlər canlanır.

## Dövlətçiliyimizi və müstəqilliyimizi əbədi edən şəxsiyyət

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Xalqların və dövlətlərin tarixdəki yüksəliş mərhələlərinin bilavasitə nəhəng şəxsiyyətlərin fəaliyyətinin nəticəsi olduğunu elə tarix özü həmişə isbat edib. Dahi şəxsiyyətlərin ideyalarından kənarda tarixin mütərəqqi səhifələrini yazmağın mümkün olmaması da çoxdan sınaqdan çıxmış reallıqdır. Hər bir dövlət və xalq öz tarixinin ən möhtəşəm və qürur doğuran səhifələrini məhz dahi şəxsiyyətlərinin müdrikliyi və qətiyyəti nəticəsində yaratmağa nail olur. Adı XX əsrin görkəmli dövlət xadimləri ilə bir sırada çəkilən Heydər Əliyev də xalqımıza şərəfli bir tarix yaşatmış şəxsiyyətdir.

Ulu Öndər Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq unudulmaz tarixdir. Çünki o, hansı vəzifədə çalışmasından asılı olmayaraq fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və öz vətəndaşının mənafeyinə xidmət edib, Azərbaycanın azadlığı uğrunda fədakarlıq göstərib, bu yolda mümkün ola bilən hər şeyi edib. Bəli, hələ 50 il əvvəl rəhbərliyə ilk gəlişi ilə Azərbaycanı tənəzzüldən inkişafa doğru istiqamətləndirən bir siyasi xəttin əsasını qoyan Heydər Əliyev 1993-cu ildə ölkəmizə müstəqillik, xalqımıza azadlıq bəxş etdi. Öz əməlləri ilə müasir, müstəqil Azərbaycan dövlətinin banisinə çevrildi. Müstəqil Azərbaycanın beynəlxalq birlikdə öz yerini tutması məhz Heydər Əliyevin xidmətləri sayəsində mümkün oldu.

Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi dövrlərdə xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilib, milli dövlətçilik ənənələrinin formalaşması prosesi sürətlənib. Bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması kimi misilsiz tarixi prosesi əhatələyir. Bu mənada Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər birmənalı olaraq böyük quruculuq illəri, Azərbaycanın hərtərəfli və sürətli tərəqqi mərhələsi kimi səciyyələndirilir.

Ulu Öndərin anım günü ərəfəsində bu böyük dühanın Azərbaycan dövləti və xalqı qaşısında xidmətlərinə nəzər yetirməklə həm də bu böyük şəxsiyyətin xatirəsinə öz ehtiramımızı ifadə edirik. Bu qeydləri yazarkən Prezident İlham Əliyevin Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdəki dərin məzmunlu, müstəqillik dövrünün həqiqətlərini dəqiq əks etdirən nitqini bir daha dinlədim. Dövlətimizin başçısı tədbirin keçirildiyi teatr binasında vaxtilə Ulu Öndərin iştirakı ilə Sumqayıtın yubileyinin qeyd edildiyini xatırlayaraq burada onun ruhunun olduğunu bildirdi. Əslində, cənab Prezidentin sözləri sumqayıtlılarla görüşün tarixi və rəmzi xarakterini ifadə edirdi. Lakin elə bu fikrə söykənib tam əminliklə deyə bilərik ki, Ulu Öndərin Azərbaycanın hər yerində ruhu, hər bir vətənpərvər azərbaycanlının qəlbində sevgisi yaşayır. Cənab Prezident nitqini yekunlaşdırarkən bir mühüm məqamı da diqqətə çatdırdı: "Ulu Öndər siyasi vəsiyyətində demişdi, bir çox işlər görülüb, amma görə bilmədiyimiz işləri bizim davamçılarımız görəcəkdir. Belə də oldu!"

İlk dəfə 2003-cü ilin 15 oktyabrında keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunu böyük vətəndaş fəallığı ilə dəstəkləyərək, bu məktəbin ən layiqli nümayəndəsini - cənab İlham Əliyevi özünə rəhbər seçməklə yeni əsrdə böyük uğurlarına imza atmış, nəticə etibarilə dövlətimizin bundan sonra da sabitlik, tərəqqi yolunda irəliləməsi mümkün olmuşdur. Bu, Azərbaycan dövlətinin və xalqının gələcəyi üçün gerçəkdən tarixi, strateji bir seçim idi. 1993-cü ilin 15 iyununda taleyini Heydər Əliyevin dühasına etibar edən Azərbaycan xalqı 2003-cü ildən sonra keçirilmiş bütün seçkilərdə Heydər Əliyevin siyasətinə sadiqliyini, həmin yola alternativ görmədiyini bir daha təsdiqlədi. İlk gündən Heydər Əliyev siyasi kursunu qəti və prinsipial mövqeyi ilə davam etdirən cənab İlham Əliyev yüksək dövlətçilik təəssübkeşliyi, insanların rifahının yaxşılaşdırılması niyyətilə həyata keçirdiyi tədbirlər nəticəsində xalqımızın gələcək inkişafının təminatçısı kimi böyük ehtiram qazanmışdır.

Dövlətlərin tarixi təcrübəsi göstərir ki, prezidentlər dəyişəndə ölkənin siyasi kursunun strateji xətti dəyişmir. Ona görə də siyasi kursda stabilliyin saxlanması olduqca vacib məsələlərdən biridir. Amma hazırda Azərbaycanın sürətli inkişaf tempi elə bir mərhələyə gəlib çatıb ki, obyektiv şərait dövlətin idarəçiliyində, dövlət siyasətinin həyata keçirilməsində zamanın tələbinə uyğun yeni münasibətləri zəruri edir. Ötən 16 ildə ölkədə irəliyə doğru baş verən yeniliklər təsdiqləyir ki, prinsipləri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilib, amma müasir dövrün tələbləri qarşısında bəzi keyfiyyət dəyişikliklərinə məruz qalıb. Yəni İlham Əliyev Heydər Əliyevin siyasi kursunu yalnız qoruyub saxlamır, yeni şəraitin tələblərinə uyğun şəkildə inkişaf etdirir. Ölkədə son illərdə yeni müstəviyə qədəm qoyan sosial-iqtisadi və siyasi islahatlar bunun təsdiqidir. Bu mənada bütün sahələrdə öz həyati effekivliyini sübut etmiş, zamanın sınaqlarından uğurla çıxmış Heydər Əliyev siyasi kursunun, ideyalarının davam etdirilməsi, bu siyasətin prinsiplərinin yaradıcı şəkildə istifadə olunması prezident kimi İlham Əliyevin fəaliyyətini şərtləndirən başlıca istiqamətdir.

Beləliklə, Azərbaycanda gedən inkişaf prosesləri bir reallığın obyektiv dərkidir ki, ölkənin daha da qüdrətlənməsinin, dövlətçiliyimizin, müstəqilliyimizin əbədiliyinin yolu məhz hər sahədə Heydər Əliyev kursunun davam etdirilməsindən, Ulu Öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir. 15 ildən çoxdur respublikamızın ictimai həyatında yaxından iştirak edən, öz proqram və layihələri ilə İlham Əliyevin sosial siyasətinə böyük töhfələr verən, Azərbaycanı dünyada təbliğ edən Heydər Əliyev fondunun amalı da məhz bu məqsədə - Heydər Əliyev ideyalarının yaşadılmasına xidmət etməkdir. Bu gün Birinci vitse-prezident, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə fondun gördüyü işlər, həyata keçirdiyi bütün layihələrin hər biri cəmiyyətin, xalqımızın və nəticə etibarilə dövlətimizin mənafelərini layiqincə təmin edir. Son olaraq dekabrın 6-da Nəsiminin 650 illik yubileyi ilə əlaqədar Azərbaycanın hər yerində 650 min ağacın əkilməsi Mehriban Əliyevanın nəcib təşəbbüsü kimi ictimiyyət tərəfindən geniş təqdir edildi.

Bu gün Azərbaycanın bütün sahələrdə əldə etdiyi nailiyyətlərin öz başlanğıcını Heydər Əliyevin ideyalarından götürdüyü bütün xalqımız, hər bir azərbaycanlı tərəfindən birmənalı olaraq qəbul edilir. Aradan uzun illər keçəcək, nəsillər dəyişəcək, hər şey tarixə dönəcək, amma Heydər Əliyevin Azərbaycanın xoşbəxt gələcəyinə xidmət edən dövlətçilik idealları bütün zamanlarda yüksək ehtiramla xatırlanacaq və istinad nöqtəsi olacaqdır. Heydər Əliyev ideyaları dünya durduqca yaşayacaq, dövlətçiliyimizin və milli maraqlarımızın əsas qayəsini təşkil edəcək.

***"Azərbaycan"***

*Azərbaycanın özü qədər əbədi*

Əvvəli 1-ci səh.



# Xilaskar Lider

## Keçmişə aydın baxış

Sumqayıt şəhərinin 70 illik, daha sonra isə Bakı Dövlət Universitetinin fəaliyyətinin 100 illik yubileylərindəki çıxışlarında Azərbaycan Respublikasının Prezidenti çox maraqlı məqamlara toxundu. Cənab İlham Əliyevin yaxın keçmişimizin ayrı-ayrı səhifələri ilə bağlı diqqətə çatdırdığı tarixi həqiqətlər bu yazının ideyasına çevrildi. Dövlət rəhbərimizin çıxışını dinlədikcə tarixə verilən obyektiv qiymətin xalqın, dövlətin bu günü və gələcəyi üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyinin bir daha fərqində oldum. Və bu mövzuda düşüncələrimi qələmə almağı da özümə borc bildim.

Düşünürəm ki, bu mövzuda nə qədər yazılsa, nə qədər söhbət açılsa, bir o qədər faydalı olar. Nəsillər dəyişdikcə bəzən keçmişə münasibət də dəyişməyə başlayır. Tarixi həqiqətləri o dövrün canlı şahidləri olmamış gənclərə təhrif edilmiş şəkildə çatdırmağa cəhd göstərənlər də tapılır. Bu yanlış yanaşmalar isə ayrı-ayrı xalqların həyatında müəyyən dönəmlərdə tarixi yanlışlıqların təkrarlanmasına da rəvac verə bilir. Bu səbəbdən, Azərbaycanın yeni tarixindəki hadisələrin gənc nəslə olduğu kimi çatdırılması həmin dövrün şahidi olmuş, baş verənlər haqqında aydın təsəvvürlərə malik hər kəsin mənəvi borcu olmalıdır.

Azərbaycan Prezidentinin tarixi mövzulara həsr olunmuş hər iki tədbirdə ötən əsrin 80-ci illərinin sonlarından etibarən keçmiş sovet məkanında, o cümlədən, Azərbaycanda baş verənlərə obyektiv baxışı, tarixə dürüst qiymət verilməsi, bir neçə on il əvvəl olanların tarixşünaslıq prizmasından şərhi çox mühüm əhəmiyyətə malikdir.

Bu çıxışlarının birində Prezident İlham Əliyev SSRİ-nin süquta uğraması səbəblərinə diqqət yönəltdi. İqtisadi münasibətlərin düzgün qurulmamasını, planlı iqtisadiyyatın özünü doğrultmamasını ilkin səbəblərdən biri kimi göstərdi. Həqiqətən Sovet İttifaqının inkişafı 1980-ci illərdə daha çox neft amilinə söykənirdi. Neftin qiyməti dünya bazarlarında kəskin şəkildə düşəndən sonra isə gəlirlər azaldı və bu gəlirləri başqa sahələrdən əldə edilən mənfəət hesabına formalaşdırmaq mümkün olmadı. Bu gün Azərbaycan dövlətinin qeyri-neft sektoruna həyati vacib məsələ kimi baxması, bu istiqaməti inkişaf etdirməsi, iqtisadiyyatın neft amilindən asılılığının azaldılması, insan kapitalına qoyulan sərmayə on illər əvvəl sovet iqtisadiyyatının yol verdiyi yanlışlıqlardan çıxarılan dərsdir, həyati təcrübədir.

Ötən əsrin 80-ci illərinin sonlarına doğru Sovet İttifaqında milli siyasət sahəsində buraxılan kobud səhvlər haqqında Azərbaycan Prezidentinin fikirləri də tarixi həqiqətləri əks etdirirdi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Sovet İttifaqını böyük, çoxmillətli ölkə kimi ayaqda saxlayan həm də milli siyasət idi. Amma 1985-ci ildən sonra bu sahəyə böyük zərbə vuruldu. Xüsusilə müsəlman respublikalarına qarşı çox mənfi siyasət yürüdüldü. Müsəlman respublikalarının rəhbərlərinə, o cümlədən, uzun illər Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevə qarşı qarayaxma kampaniyalarına başlandı. Ümumittifaq mətbuatında bu respublikalar haqqında ancaq mənfi materiallar dərc edilirdi. Bu respublikalara mərkəzdən istintaq qrupları göndərilirdi. Elə bir rəy yaradılmışdı ki, Orta Asiya respublikalarında və Azərbaycanda vəziyyət bərbaddır, kritik həddə çatıb və bu respublikaları idarə edənlər vəzifə borcunu yerinə yetirə bilmirlər. "Əlbəttə ki, hər bir respublikada pozuntular da, nöqsanlar da olmuşdur, ancaq digər respublikalarda da bunlar var idi. Nə üçün bu istintaq qrupları Ermənistana, Gürcüstana, Ukraynaya, Moldovaya və digər respublikalara göndərilmirdi? Ancaq Orta Asiya respublikalarına və Azərbaycana göndərilirdi. Beləliklə, Sovet İttifaqının təməl sütunu olan milli siyasət artıq deformasiyaya uğramışdı" - Azərbaycan Prezidenti müsəlman xalqlarına qarşı hər kəsə bəlli olan mənfur münasibəti M.S.Qorbaçovun simasında keçmiş SSRİ rəhbərliyinin həyata keçirdiyi yanlış milli siyasətə belə qiymət verdi.

## Gün işığına çıxarılan həqiqətlər

Bu, illərin o üzündə görünən digər həqiqətləri də gün işığına çıxarır. 1987-ci ildə Heydər Əliyev yüksək dövlət vəzifələrindən uzaqlaşdırılandan sonra Azərbaycanın başına gətirilənlər ona qarşı həyata keçirilən qərəzli kampaniyaların son məqsədi idi. Ulu Öndər həmin dövrdə yüksək dövlət vəzifəsində qalsaydı, Azərbaycana rəhbərlik etsəydi, ermənilər və onların havadarları Dağlıq Qarabağ münaqişəsini yaradaraq torpaqlarımızı işğal edə bilməyəcəkdilər.

Bu barədə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin keçmiş birinci katibi A.Koçinyan yazırdı: "Mənim rəhbərliyim dövründə Qarabağ məsələsi neçə dəfə qaldırılmış, lakin Heydər Əliyevin nüfuzu, mərkəzdə sözünün iti kəsəri bu məsələnin həllinə imkan verməmişdi".

1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən cəmi iki həftə sonra Azərbaycana qarşı amansız planlar işə düşdü. Xalqın başına min bir müsibət açıldı. 1990-cı ilin 20 yanvarında sovet ordusu Bakı küçələrini günahsız vətəndaşların qanına boyadı.

Torpaqlarımız işğal edildi, yüz minlərlə soydaşımız yurd-yuvasından didərgin salındı. İqtisadiyyat dağıdıldı, Heydər Əliyevin ölkəyə 14 illik rəhbərliyi dövründə qurub yaratdıqları cəmi bir neçə ilin içində yerlə-yeksan edildi. İnsanlarımız bir tikə çörəyə möhtac vəziyyətə salındı.

O ağır illərdə də Moskvada, xüsusi xidmət orqanlarının nəzarətində, ən məhdud imkanlar çərçivəsində olsa belə, xalqın haqq səsinə səs verməyə çalışan, başımıza açılan oyunları dünyaya çatdırmaq üçün həyatı ilə risk edən yenə də Heydər Əliyev idi.

Bir anlıq təsəvvür edək: Bakıda 20 Yanvar qətliamı törədilib. Azərbaycan xalqı faciənin miqyasından sarsılıb. Hamı böyük acı içindədir. O vaxt respublikaya rəhbərlik edən, antimilli siyasətlə fərqlənən Vəzirov respublikanı tərk edərək hərbi təyyarə ilə Moskvaya qaçıb. Ölkənin heç bir rəhbər işçisinin bu qanlı cinayəti qınayan qətiyyətli fikri eşidilmir. Ancaq o vaxt pensiyada olan Heydər Əliyev ona qarşı çox çirkin kampaniya gedə-gedə ailə üzvləri, o cümlədən, o vaxt Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun gənc müəllimi olan İlham Əliyevlə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək səsini ucaldır. Bütün dünyaya 20 Yanvar faciəsi haqqında cəsarətlə məlumat verir. Sovet İttifaqının rəhbərliyini qınayır, onların siyasətini pisləyir və uzun illər xidmət göstərdiyi Kommunist Partiyasının ədalətsiz sıralarını tərk edir.

"O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, bir gün Sovet İttifaqı dağılacaq. Yəni bu addımı atarkən Heydər Əliyev təcrübəli rəhbər kimi bilirdi ki, ona qarşı çox böyük təzyiqlər olacaq və nəinki təzyiqlər, hətta onun həyatı təhlükə altına düşə bilər. Belə də oldu. Sonrakı tarix bunu bir daha göstərdi, onun həbs edilməsi haqqında qərar verildi. Bakıya gəlməli idi, həmin gün onun ən yaxın tərəfdarı qətlə yetirildi. Bundan sonra onun səfəri təxirə salındı. Sonra Bakıya gəldi. Ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, Naxçıvana üz tutdu. Beləliklə, Azərbaycanın yeni dövrü başladı". Ümummilli Liderin ən yaxın silahdaşlarından biri kimi cənab İlham Əliyev həmin illərdə yaşananları öz çıxışında belə xatırlayırdı.

## Fəlakətə yol açan AXC-Müsavat iqtidarı

1987-ci ildən Azərbaycana qarşı qurulmuş hiyləgər plan Heydər Əliyevin Naxçıvana dönüşündən sonra öz yeni mərhələlərinə qədəm qoydu. Azərbaycana başçılıq edən səriştəsiz rəhbərlərin naşı idarəçiliyi üzündən ölkə çıxılmaz girdaba düşmüşdü. Cəbhə bölgəsində kəndlər, rayonlar bir-birinin ardınca erməni işğalçılarına təslim edilirdi. Başı hakimiyyət davasına qarışmış vəzifə hərislərinin etinasızlığı üzündən erməni cəlladları 1992-ci ilin 26 fevral günü Xocalıda dinc əhaliyə qarşı ötən əsrin ən dəhşətli soyqırımını törətdilər.

1992-ci ilin mayında hərbi çevriliş nəticəsində qanunsuz yolla hakimiyyətə gələn AXC-Müsavat cütlüyü ölkəni yeni-yeni fəlakətlərə sürüklədi. Əslində, Azərbaycanın taleyinin AXC-Müsavat hakimiyyətini təmsil edən antimilli ünsürlərin əlinə keçməsinin özü elə ən böyük fəlakət idi.

Gənclər o dövrdə ölkəni idarə edən səriştəsiz kəslərin kimliyinə diqqət yetirsələr, bu fəlakətin miqyasını az-çox təsəvvürə gətirə bilərlər. Ölkə Prezidenti olaraq son dərəcə taleyüklü bir vəzifəni həyata keçirən, bu qədər ağır, məsul yükün altına girmiş şəxs heç bir idarəetmə səriştəsi olmayan elmi işçi idi. Onun zəifliyi, iradəsizliyi, qətiyyətsizliyi ölkənin milli maraqlarına zidd olan hər cür qərarların həyata keçməsinə, xarici dairələrin Azərbaycanı öz məqsədlərinə uyğun yönəltmələrinə, ölkədə hərc-mərcliyə şərait yaradırdı. Bəzi xarici ölkələrin Azərbaycandakı səfirləri ölkə rəhbərinə istədiklərini diktə edirdilər. Prezidentin məsuliyyətsiz bəyanatları, düşünülməmiş addımları Azərbaycanın qonşu ölkələrlə münasibətlərini korlamışdı. Respublikaya qarşı xarici təhdidlər güclənmişdi. Müxtəlif regionlarımızda separatizm ocaqları qalanmaqda idi.

Ovaxtkı rəhbərliyin naşı, təcrübəsiz, səriştəsiz mövqeyi dövləti, xalqı uçuruma aparır, xalq bunu açıq-aşkar görürdü. Həmin hadisələrə və o hadisələrin günahkarlarına obyektiv və tam aydın münasibət Azərbaycan Prezidentinin onlara verdiyi qiymət o dövrü yaxşı xatırlayan hər kəsin rəyi ilə tam üst-üstə düşür: "Bax budur xalq cəbhəsi, müsavat hakimiyyəti. Ona görə biz bu faciəvi vəziyyətlə üzləşmişdik. Əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı. Bunların da hərəsi qaçıb bir yerdə gizlənəcəkdilər, necə ki qaçıb gizlənmişdilər. Beləliklə, bizim müstəqilliyimiz XX əsrin əvvəllərində olduğu kimi, yenə də yarımçıq qalacaqdı".

## İstiqlal yolumuza işıq salan ümid çırağı

Bu mənada Azərbaycanın istiqlal yolu əslində məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan öz dövlət müstəqilliyini 1991-ci ilin 18 oktyabrında elan etmişdi. Amma bu, demək olar ki, formal bir məsələ idi. Üçrəngli bayrağımızın Milli Məclisdə qaldırılmasının hansı çətinliklər, maneələr hesabına başa gəldiyini, yəqin ki, heç kim unutmayıb. Halbuki Heydər Əliyev hələ 1990-cı ilin 17 noyabrında bu bayrağı Naxçıvan Ali Məclisində ucalda bilmişdi. Xalq müstəqilliyin ilk günlərindən bütün nəzərlərini Ulu Öndərin məskun olduğu Naxçıvana dikmişdi. Nicat, qurtuluş yolunu yalnız oradan gözləyirdi. İnsanlar onu arzulayırdılar, onu görmək istəyirdilər. Əgər Heydər Əliyev 1990-cı ildə Moskvadan Naxçıvana yox, Azərbaycanın istənilən bölgəsinə - Qarabağa, Şirvana, Şəkiyə, Gəncəbasara getsəydi, yenə də vətəndaşlarımız onu bağırlarına basacaqdılar, qoruyacaqdılar. Özlərindən bir addım da kənara buraxmayacaqdılar. Çünki düşdüyümüz vəziyyətdən xilas gücünü onda görürdülər. Bu məqamda Ulu Öndər də təkcə Allahın ona verdiyi fitri qabiliyyətə yox, həm də öz xalqına güvənirdi.

Hər xalqın öz adına çıxdığı, çox məşhur ifadə var: ümid axırıncı ölür. Xalqın xoşbəxt günlərində bəlkə də bu ifadəni yada salan olmur. Amma milli böhran anlarında, kritik dönəmlərdə, bütün ümidlərin az qala puça çıxdığı vaxtlarda bu aforizm yada düşür. Heydər Əliyev hər zaman biz azərbaycanlıların ümid yeri olub. Bu ümid heç vaxt öləziməyib. Əksinə, insanların qəlbində çıraq kimi yanıb, onları mübarizəyə səsləyib, yaşamağa ruhlandırıb.

## Heydər Əliyev olmasaydı...

İndi düşünürəm: kaş ki, Heydər Əliyev hakimiyyət rəhbərliyinə iki il gec yox, heç olmasa 1991-ci ilin oktyabrından, elə müstəqilliyimizin ilk günlərindən qayıdaydı. Çünki 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək olan dövr Azərbaycanda dövlət quruculuğunun inkişafı yönündə əldən çıxmış, boşa getmiş illər oldu. Nə qədər torpağımız işğal edildi. Neçə-neçə igid övladımızı itirdik. Həmin illər Azərbaycan dövlətinin təşəkkülü yox, tənəzzülü dövrü kimi yaşandı. Hər hansı sahədə inkişaf bir yana qalsın, 1969-1982-ci illərdə yaradılanların da çoxu dağıdıldı. Ölkənin iqtisadi potensialı sarsıldı. Siyasi hərc-mərclik, anarxiya, siyasi ambisiyalar xalqı təngə gətirdi. Azərbaycan faktiki olaraq parçalanma təhlükəsi qarşısına, uçurumun bir addımlığına gəlib çatdı.

1993-cü ildə AXC-Müsavat cütlüyünün daxili işlər naziri özü Milli Məclisin iclasında etiraf edirdi ki, əllərdə olan silahların sayı bilinmir, respublikada kriminogen vəziyyət son dərəcə kəskindir. Ölkənin necə deyərlər, altı da, üstü də qaynayırdı.

Ölkədə siyasi mədəniyyətdən əsər-əlamət yox idi. Siyasi partiya adı altında qeyri-qanuni silahlı dəstələr bir-biri ilə didişir, ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoyurdular. Əgər Heydər Əliyev olmasaydı, bugünkü Azərbaycanı qoruyub saxlamaq mümkün olacaqdımı? Bu, o çətin dövrə ünvanlanmış ən mühüm suallardandır.

Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdıqdan sonra onunla görüşənlər, söhbətləşənlər, ziyarətinə gedənlər dəfələrlə vurğulayıblar ki, Heydər Əliyev yenidən işləmək, hakimiyyətə qayıtmaq arzusunda deyildi. O, ömrünün axırınadək doğma ata-baba yurdunda yaşamaq, necə deyərlər, min ilin yorğunluğunu canından çıxarmaq, xatirələrini yazmaq fikrində imiş. Amma sən demə, zaman və tale onu dincəlməyə, ömrün ixtiyar çağlarını sakitcə yaşamağa yox, böyük sınaqlara doğru aparırmış.

Ulu Öndərin hakimiyyətə qayıdışı sadəcə hansısa siyasətin tərkib hissəsi deyildi: hakimiyyətdən gedib, sonradan qayıdanlar barədə tarixi məxəzlərdə o qədər məlumatlar var ki... Amma böyük rəhbərin hakimiyyətə yenidən qayıdışı tamamilə ayrı siyasi-fəlsəfi müstəvidə idi. Bu, təbliğatın, təşviqatın, yaxud kimlərinsə istəyinin nəticəsi deyildi. Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışı tarixi zərurət, milli-mənəvi tələbat idi.

## Suallara cavablar

Heydər Əliyev hakimiyyət rəhbərliyinə qayıdışı ilə Azərbaycanı təkcə parçalanma təhlükəsindən, vətəndaş müharibəsi girdabından xilas etmədi. Ulu Öndər Azərbaycana siyasi mədəniyyət gətirdi. Ona adi lampa işığında yaradılmış Yeni Azərbaycan Partiyası timsalında siyasi mübarizənin əslində necə aparılmalı olduğunu, seçki mədəniyyətini, partiya quruculuğu təcrübəsini öyrətdi. Heydər Əliyev xaotik bir mühitdən demokratik, hüquqi dövlət qurdu. Ölkənin sarsılmış sosial-iqtisadi həyatını aydın inkişaf yoluna çıxardı. Əsl dövlət, əsl dövlət adamı necə olmalıdır, təcrübəsini və həqiqətini göstərdi. Hakimiyyət rəhbərliyinə bir dövlətçilik ədəbi gətirdi. Milli Məclisin iclas zalında, televiziya efirində siqaret fısıldan, bir-birini küçə söyüşləri ilə söyən "meydan qəhrəmanları"nın yerlə bir etdikləri siyasi etiket normalarını öz yerinə qoydu.

Ulu Öndər Azərbaycan Prezidenti kimi ali dövlət vəzifəsini tutan, ölkənin və xalqın gələcəyinə görə məsuliyyət daşıyan şəxsin ən çətin məqamlarda necə böyük qətiyyət göstəməli olduğunu nümayiş etdirdi. Müxtəlif dönəmlərin kritik anlarında atdığı qətiyyətli addımlarla, ortaya çıxan suallara doğru cavabları ilə, yeri gələndə sərtliyi, yeri gələndə humanizmi, müdrikliyi, gələcəyə baxışı ilə əsl Lider nümunəsi yaratdı.

Heydər Əliyev AXC-Müsavat cütlüyü hakimiyyətinin yüksək vəzifələrində təmsil olunan şəxsləri də əslində labüd ölümdən xilas etdi. Çünki Ulu Öndər olmasaydı, gözü yeri-göyü görməyən silahlı müxalif dəstələr çox güman ki, onlara divan tutacaqdılar. Canlarının qorxusundan hərəsi bir yerdə gizlənmiş bu "qəhrəmanlar" ara sakitləşəndən sonra Heydər Əliyevə qarşı qərəzli kampaniyalara başlayıb onun nüfuzunu sarsıtmağa çalışsalar da, vətəndaşlarımız kimin kim olduğunu yaxşı bilirdi. Xalqın gözü tərəzidir.

Heydər Əliyev isə belələrinə, demək olar ki, fikir vermirdi. O daha böyük işlərə, tarixi missiyanın icrasına başlamışdı və belə cılız qara qışqırıqçılara necə deyərlər, heç baş qoşmağa belə dəyməzdi.

Dahilərdən biri yazır ki, "Nə üçün" sualına cavab verməyi bacaran insanlar həmişə "Necə" sualına da cavab tapa bilirlər. Böyük Öndər "biz müstəqil Azərbaycan dövlətini quracağıq, möhkəmləndirəcəyik, onun müstəqilliyini əbədi edəcəyik" deyərkən bunun necə baş verəcəyini də bilirdi.

Ulu Öndərin öz cismani sağlığında qurub yaratdıqları da, bu gün Azərbaycanı tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı nailiyyətlər də "necə" sualının cavabıdır. Azərbaycan bu nailiyyətləri ona görə əldə edə bilir ki, xalqdan dəstək alır. Bu dəstək isə kor-koranə bir hiss deyil, insanların inamıdır, güvənidir. Azərbaycan vətəndaşları Heydər Əliyev ideyaları işığında ölkəmizi inkişaf etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə tərəddüdsüz inanırlar. Bu inam ortaya qoyulan real işə əsaslanır. Real əməllərə söykənir. Azərbaycan vətəndaşı görür ki, cənab İlham Əliyev xalqına verdiyi bütün sözlərə sadiqdir. Hər bir işi həyata keçirib onun nəticələri haqqında danışır. Daha boş vədlər üzərində siyasət qurmur.

Vətəndaş ölkəmizin beynəlxalq nüfuzunun getdikcə necə yüksəlməsinin, Azərbaycanın regionda əsas söz sahibinə çevrilməsinin, bu bölgələrdə bir çox irimiqyaslı qlobal layihələrin yalnız Azərbaycanın xeyir-duası ilə həyata vəsiqə qazanmasının fərqindədir.

Bu gün Azərbaycan vətəndaşı hökumətin həyata keçirdiyi sosial siyasətin nəticələrini öz gündəlik həyatında, getdikcə artan məvacibində, pensiyasında, infrastruktur imkanlarında, təhsil, səhiyyə xidmətlərinin yaxşılaşdırılması üçün atılan addımlarda aydın görür. Azərbaycan dövləti bu gün öz vətəndaşının yanındadır, onun qayğısı isə hər an insanların başı üzərindədir.

Heydər Əliyev ideyaları işığında yaradılmış Heydər Əliyev Fondu indiyədək ayrı-ayrı müvafiq dövlət qurumları ilə birgə nə qədər vətəndaşımızın problemlərinin həllinə kömək göstərib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial-humanitar layihələrdən Azərbaycanda və dünyada nə qədər insan faydalanıb. Son illərdə Azərbaycan vətəndaşının həyatında saya gəlməyən böyük dəyişikliklər baş verib. Cəmiyyətimizdə sosiallaşma meyilləri güclənib. Təhsil, savad, biliklərə yiyələnmə, insan kapitalı Azərbaycan cəmiyyətində də əsl dəyərə çevrilib. Gənclərimizə fərdi inkişaf, karyera uğurları, ölkənin ictimai həyatında yaxından iştirak üçün nə qədər böyük imkanlar yaradılıb.

## Gəncliyə tövsiyə

Bu gün Azərbaycan gəncliyinin ən böyük vəzifəsi dövlətçilik dəyərlərimizə sadiqlik, Vətənin bu gününə və gələcəyinə sahib çıxmaq, səadətimizi istəməyən xarici qüvvələrin və daxildə onların sifarişlərini yerinə yetirən sapı özümüzdən olan baltaların fitnə-fellərinə uymamaqdır.

Bunun yeganə yolu yenə də bilikdən, təhsildən, tariximizi öyrənməkdən, keçmiş haqqında dürüst qənaətə gəlməkdən, keçmişin dərslərindən ibrət almaqdan, Azərbaycanın bu gününə inanıb Vətənin xoşbəxt gələcəyini yaratmaqdan ibarətdir. Azərbaycan Prezidentinin gənclərimizə ən əsas tövsiyəsi də elə budur: "Gənclər özləri də tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Bir daha demək istəyirəm ki, bizim müstəqillik dövrlərimiz Azərbaycan xalqının tarixində çox məhduddur. Məhz ona görə ki, aldanmışıq, əzilmişik. Buna imkan vermək olmaz və verməyəcəyik, biz möhkəm dayanmışıq. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy ləkələsinlər, qoy yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, Vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək".

Əminlik var ki, vətənpərvər, aydın zəkalı Azərbaycan gəncləri bu tövsiyələri hər zaman əldə rəhbər tutacaq, biliyi, bacarığı, istedadı, savadı ilə həm vətəndaş olaraq özlərinin, həm də Azərbaycanın firavan gələcəyini təmin etməklə, Heydər Əliyev ideyaları işığında Vətəni daha böyük uğurlara aparacaqlar.

**Nurlana ƏLİYEVA,**
**Bakı Slavyan Universitetinin rektoru, professor**

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının nümayəndələri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ulu Öndəri Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ümummilli Liderin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tarixin yetirdiyi nadir şəxsiyyətlərdən olan Ümummilli Lider Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub.

Ulu Öndər Heydər Əliyevin zəkası bütün maneələri aşaraq və qarşıya çıxan çətinliklərə baxmayaraq, Azərbaycanı tənəzzüldən, hərc-mərclikdən, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsindən uğurla çıxarıb, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb.

Əbədiyaşar liderimiz Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının (YAP) banisidir.

Ümummilli Liderin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 700 mindən çox üzvü birləşdirərək ölkənin avanqard siyasi qüvvəsi kimi, respublikamızda YAP-ın sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

# Ağsaqqallar Şurasının üzvləri Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər



Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, rayon və şəhər təşkilatlarının nümayəndələri və şura üzvləri Ulu Öndərin anım günü ilə əlaqədar dekabrın 11-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də tər çiçəklər düzülüb.

Fəttah Heydərov jurnalistlərə müsahibəsində Ulu Öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurucusu olduğunu, onun siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

# Bədən Tərbiyəsi və İdman Akademiyasında Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.






AZƏRTAC nazirliyin saytına istinadla xəbər verir ki, tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK baş katibinin müavini Azər Əliyev, digər rəsmilər, Olimpiya və dünya çempionları, müəllim və tələbə heyəti iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub. Sonra Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin ifasında Ümummilli Liderin sevdiyi musiqilər ifa edilib.

Çıxışlarda qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə digər istiqamətlərdə olduğu kimi, idman və təhsil sahələrinə də münasibət kökündən dəyişib. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi islahatlar nəticəsində dövlət təhsil siyasətinin əsas məqsədi ölkənin malik olduğu təbii sərvətlərin insan kapitalına çevrilməsidir. Sevindirici haldır ki, bu sahədə görülən işlər nəticəsində mühüm nailiyyətlər əldə edilib.

# Tarix yaradan şəxsiyyət



Əvvəli 1-ci səh.

Çiyinlərində bütöv bir xalqın varlığını, bütün bəşəri keyfiyyətlərini, dövlətçilik missiyasını daşıyan Ümummilli Lider millətin xarakterini, milli iradəni atdığı hər bir addımında əks etdirmiş, Azərbaycanın, eləcə də dünyanın siyasət arenasına yeni mədəniyyət gətirmiş, ölkənin ictimai-siyasi, mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl bir elmi-nəzəri sistem - dövlət quruculuğu fəlsəfəsi, dövlətçilik ideologiyasını yaratmışdır. Ölkəmizin gələcəyinə istiqamətlənmiş, effektiv və davamlı inkişafını təmin edən, intellektual və elmi potensialın yüksəlməsini nəzərdə tutan siyasətin əsası formalaşdırılmışdır.

Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində, milli-siyasi təfəkkürümüzdə, dövlətçilik şüurumuzda çox böyük məna yükünü daşıyan fenomendir. Müstəqil Azərbaycan dövlətinin hər bir atributu Heydər Əliyevin adı, onun yorulmaz fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin rəhbərliyi ilə xalqımız sosial-iqtisadi tərəqqi, milli oyanış, mədəni intibah, azadlıq hərəkatı mərhələsindən keçərək müstəqillik əldə etmiş, suverenliyini və milli birliyini təmin edərək onu qorumaq imkanlarına malik olmuşdur. Bu gün biz ötən dövrlərin siyasi durumunu dərk etməyə çalışarkən başa düşürük ki, bu böyük insanın bütün fəaliyyəti, bu fəaliyyətin hər səhifəsi, hər mərhələsi dövr və zəmanəmizi ifadə edən əzəmətli bir abidədir. Onun keçdiyi yol isə zəngin bir həyat ensiklopediyasıdır. Heydər Əliyev təkcə öz ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyil, bütöv bir xalqın tarixinin yüksək zirvəsindədir. Bu zirvədən yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bügünü, sabahı görünür. Bu zirvə Heydər Əliyev simasında bütün Azərbaycan xalqının, dövlətçilik, müstəqillik, demokratiya tariximizin yüksəldiyi zirvədir. Tanınmış qırğız yazıçısı Çingiz Aytmatovun dediyi kimi, Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır. Zaman-zaman yeniləşən nəsillər bu dahi şəxsiyyətin ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar.

1969-cu ilin iyulunda Azərbaycan KP MK-nın plenumunda Heydər Əliyevin birinci katib seçilməsi ilə SSRİ-nin geridə qalmış ucqarlarından olan Azərbaycanın tarixində yeni bir dövr başladı. Azərbaycanın müstəqilliyinə yönəlmiş müdrik siyasətin təməli hələ sovetlər dövründə - XX əsrin 70-ci illərində Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz bu illərdə xalqın azadlıq idealları, azərbaycançılıq, dövlətçilik dəyərləri şüurlarda geniş meydan tapdı. Milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşdı, zəruri tarixi-mənəvi prosesə çevrildi.

Heydər Əliyev kənd təsərrüfatında geriliyin aradan qaldırılmasında və onun inkişafının təmin edilməsində düzgün istiqamət, uzunmüddətli perspektiv strategiya və taktika müəyyən etdi. Aparılan nəhəng dəyişikliklər, tutumuna və həcminə görə iqtisadi və sosial sahələrdə tətbiq olunan islahatlar Azərbaycan xalqının maddi rifah halının keyfiyyətcə yeni mərhələyə çatmasına böyük təkan verdi. Həmin dövrdə ölkədə gedən geniş tikinti quruculuq işləri, kənd təsərrüfatının inkişafı, pambıqçılıq, üzümçülüklə yanaşı, digər sahələri əhatə edən nailiyyətlər Sovet İttifaqına daxil olan respublikalar arasında ən yüksək uğurlar idi. Heydər Əliyevin müdrik siyasəti nəticəsində respublikada yaranmış güclü sosial, iqtisadi və intellektual potensial Azərbaycanın müstəqilliyi üçün mühüm zəmin yaratdı. Müasir Azərbaycan dövlətinin inkişafı məhz həmin illərdə yaradılmış bünövrə üzərində quruldu və uğurla davam etdirildi.

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri də ölkəmizdə elmin və təhsilin sürətlə inkişaf etməsidir. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, intellektdə görürdü. Belə ki, güclü təhsil sistemi gələcəyin elmi tədqiqatçılarının hazırlanmasına xidmət edirsə, elmi araşdırmalar da, öz növbəsində, ölkənin ayrı-ayrı sahələrinin müasir tələbata və qabaqcıl təcrübəyə uyğun inkişafını təmin edir. Ümummilli Lider hələ ötən əsrin 70-ci illərində Azərbaycan alimlərinə ittifaq respublikalarının və başqa ölkələrin alimləri ilə elmi əməkdaşlıq əlaqələrini yaratmağı, ümumittifaq elmi konfranslarda və simpoziumlarda fəal iştirak etməyi, Azərbaycan elmini ləyaqətlə təmsil etməyi məsləhət bilirdi. Respublikada elmi tədqiqatların təminatı məsələlərinə toxunarkən Heydər Əliyev müasir texniki vasitələrin imkanlarından geniş istifadə olunması məsələsinə xüsusi diqqət yetirirdi.

Heydər Əliyev tərəfindən əsası qoyulan kadr siyasəti dövlətçiliyimizin bütün sahələrində yeni düşüncəli, savadlı, işgüzar, bacarıqlı, saf mənəviyyatlı, yüksək təşkilatçılıq və informasiyadan istifadə etmək qabiliyyətinə malik olan kadrların hazırlanmasına, onların cəsarətlə seçilib irəli çəkilməsinə böyük zəmin yaratdı. Bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu kontekstdən yanaşdıqda Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Dövlətin gələcəyini məhz yüksəkixtisaslı, peşəkar və vətənpərvər insanların fəaliyyətində görən Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərmiş, hər il xaricə 800 tələbə yola salınmışdır. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, Ümummilli Lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə müvafiq göstərici 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97,6 faizə yüksəlmişdir. Bu addımlar bir tərəfdən Azərbaycanın yüksəkixtisaslı kadrlara olan ehtiyacını təmin edirdi, digər tərəfdən isə potensial Azərbaycan diasporunun formalaşması prosesinin konturları cızılırdı. Azərbaycan alimləri keçmiş ittifaqın nüfuzlu mərkəzlərində elmi işlər aparır və mühüm elmi nəticələr alırdılar.

Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə Azərbaycanda kadr siyasətində azərbaycançılıq prinsipinə ciddi riayət etmiş və bunu məqsədyönlü şəkildə həyata keçirmişdi. O dövrdə ali təhsil ocaqlarında ədəbiyyatımızla, tariximizlə bağlı diskussiyaların aparılması, Azərbaycan tarixinin bütün ali təhsil ocaqlarında tədris proqramına daxil edilməsi Heydər Əliyevin məfkurənin inkişafına xidmət edən siyasətinin nəticəsi idi. Azərbaycanın görkəmli şəxsiyyətlərinin fəaliyyətinin üzə çıxarılması, adlarının əbədiləşdirilməsi, ən yüksək səviyyələrdə yubileylərinin keçirilməsi onun şəxsi təşəbbüsü, böyük və tarixi xidmətidir.

Azərbaycan Milli Elmlər Akademiyasının inkişafının böyük tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Akademiyada Azərbaycan xalqının dilinin, milli-mənəvi dəyərlərinin araşdırılmasında, tarix, riyaziyyat, kimya, biologiya, neft emalı və neft-kimya sənayesi, astronomiya, kosmik tədqiqatlar və s. sahələrdə elmi araşdırmaların aparılmasında və nüfuzlu elmi məktəblərin yaradılmasında Heydər Əliyevin mühüm rolu olub.

Hakimiyyətinin ikinci dövründə də Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyası ilə xalqının yanında oldu. Vətənin ağır günlərinə biganə qala bilməyən Heydər Əliyev 1990-cı illərin əvvəllərində Azərbaycana qayıtdı. Ölkənin siyasi rəhbərliyi onun xalq arasında nüfuzundan qorxur, Bakıya yolunu hər vəchlə kəsməyə çalışırdı. Bu səbəbdən doğulub boya-başa çatdığı Naxçıvana getdi. Heydər Əliyev muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Üçrəngli bayrağımız ilk dəfə məhz Naxçıvanda ucaldıldı, Yeni Azərbaycan Partiyasının təməli burada qoyuldu. Onun muxtar respublikaya rəhbərliyi dövründə qəbul olunmuş taleyüklü qərarlar, atılan addımlar Azərbaycanın gələcək taleyində həlledici rol oynadı.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olum yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə sərf edəcəyəm" deyən Heydər Əliyevin yeritdiyi düzgün siyasət və "xalq-Heydər" sarsılmaz birliyi sayəsində ölkədə sabitlik bərpa edildi, böhranın qarşısı alındı, demokratik inkişaf proseslərinin əsası qoyuldu, xalqın öz gələcəyinə inamı yenidən özünə qayıtdı.

Azərbaycanda şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi. Minlərlə insan amnistiya edildi və böyük sayda məhkum bağışlandı, senzura ləğv edildi, KİV-in azadlığı və sərbəst fəaliyyəti təmin edildi. Ölkədə demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması yolunda gərgin iş aparıldı, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq referendumu yolu ilə qəbul olundu. Məhz Ulu Öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın "qara qızılı" bu millətin ağ günlərinin tarixini yazmağa başladı. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk beynəlxalq neft kontraktı imzalandı. Sonra üç dəniz əfsanəsi adlandırılan Bakı-Tbilisi-Ceyhan neft kəməri, onun ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəməri ərsəyə gəldi. Ümummilli Lider milli dövlətçiliyi itirməkdə olan Azərbaycanı nəinki təhlükədən xilas etdi, hətta onu davamlı inkişaf yoluna çıxartdı. Onun rəhbərliyi ilə ölkənin etibarlı tərəqqi istiqamətini göstərən strategiya işlənib hazırlandı.

Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışı məhz akademiyadan başlayıb. Azərbaycan tarixinin dönüş nöqtələrindən biri olan 1993-cü ildə Naxçıvandan Bakıya qayıdan Ümummilli Lider Heydər Əliyev ilk görüş yeri kimi Elmlər Akademiyasını seçdi. Bu bir tərəfdən möhtərəm Heydər Əliyevin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən Azərbaycan ziyalılarının Heydər Əliyev şəxsiyyətinə sonsuz inam və yüksək etimadının bariz nümunəsi idi.

Azərbaycan Prezidenti İlham Əliyev AMEA-nın 60 illik yubileyindəki çıxışında bu məqamı xatırlayaraq qeyd etmişdir: *"O görüş rəmzi xarakter daşıyırdı. Çünki Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir".*

Akademiya üçün ən çətin vaxtlarda belə Ulu Öndər akademiyanı qorumuş və inkişaf etdirmişdir. *"Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq"* deyən Heydər Əliyev bununla akademiyaya öz münasibətini bəyan etmişdir. Azərbaycan aliminə və elminə elə ilk gündən yüksək qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini də ardıcıl və sistemli şəkildə həyata keçirirdi. 2003-cü il 4 yanvar tarixli fərmanı ilə akademiyaya müstəqil dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verdi. Ümummilli Liderin bilavasitə köməyi və qayğısı ilə elmin əhatəli inkişafı və Milli Elmlər Akademiyasında keçiriləcək islahatların konsepsiyası hazırlandı.

Ulu Öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksəkixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlirdi. Onun diqqət və qayğısı nəticəsində elmi-tədqiqat institutlarının və elmi işçilərin sayı artır, Azərbaycan Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmlənir, elmi-tədqiqat institutları üçün yeni korpuslar tikilir, xüsusi təyinatlı layihə-konstruktor büroları yaradılırdı, Azərbaycan elminin ölkədə və dünyada tanıdılmasına səy göstərilir, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlir, elmin tətbiq sahələri genişlənir, elm adamlarına yaradıcılıq şəraiti yaradılır, görkəmli alimlərin fəaliyyətləri təqdir olunur, onlar mükafatlandırılırdı, Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə aparılan tədqiqatların genişləndirilməsinə xüsusi fikir verilirdi.

Xaricə üz tutan, ölkədən uzaq düşən alimlərimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra tədricən geri qayıtmağa başladılar. Elmlər Akademiyasının fəaliyyətində canlanma başladı, yeni istiqamətlər müəyyənləşdi, dövlətdə təhsil islahatlarının başlanğıcı qoyuldu. O islahatları reallaşdıranlar da elə Heydər Əliyevin vaxtilə xaricə təhsil almağa göndərdiyi gənclər idi.

Hazırda Azərbaycan elmində növbəti islahatlar aparmağın, elmimizi müasir dünyanın və ölkəmizdə sürətlə gedən inkişafın tələblərinə uyğun qurmağın əsl vaxtıdır. Əminik ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə aparılan ciddi struktur islahatları Azərbaycan elminin keyfiyyətcə daha yüksək pilləyə keçməsinə, daha çox istedadlı gəncin elmə yönəlməsinə imkan verəcəkdir.

Bu gün Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Ulu Öndərin siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev öz fəaliyyətini möhkəm zəmin, etibarlı təməl üzərində qurub. O, Heydər Əliyev siyasi kursunu sadəcə davam etdirmir, həm də yeni şəraitin, müasir dünyamızda gedən proseslərin tələblərinə uyğun surətdə yaradıcılıqla inkişaf etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşdı. Bu gün Azərbaycan xalqı İlham Əliyevə inanır, dövlət başçısının daha xoşbəxt gələcək vəd edən daxili və xarici siyasətini hamılıqla dəstəkləyir. Dünyanın aparıcı ölkələrində gedən kəskin maliyyə böhranına baxmayaraq, İlham Əliyev Azərbaycan Prezidenti kimi son on ildə respublikamızda həyata keçirilən hüquqi islahatları uğurla davam etdirməklə yanaşı, peşəkar və yüksəkixtisaslı elmi kadrların yetişdirilməsinə də xüsusi diqqətlə yanaşır. Bu il noyabrın 16-da Prezident İlham Əliyevin sərəncamı ilə növbəti "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" qəbul edilməsi buna bir nümunədir. Bu proqramın əsas hədəfi elm sahəsindəki qabaqcıl nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ali təhsil sisteminin müasir dünya standartlarına uyğun şəkildə inkişaf etdirilməsi və beləliklə, ölkəmizdə yeni nəsil mütəxəssislərin, strateji əhəmiyyət kəsb edən sahələr üzrə milli kadrların yetişdirilməsidir.

Baş verən inkişaf ildənilə gözəlləşən Bakının və regionlarımızın simasında aydın görünür. Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələr sırasında yer alıb, səsimiz beynəlxalq kürsülərdən daha gur eşidilir, bayrağımız uca zirvələrdə dalğalanır. Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə qlobal layihələr reallaşır. TANAP və TAP boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" nəqliyyat dəhlizi... Bu gün Azərbaycan bir çox nüfuzlu tədbirlərə evsahibliyi edir. Son dövrlərdə dünyada gedən qlobal proseslər ölkəmizin dayanıqlığını və onun regional güc mərkəzi kimi formalaşdığını bir daha sübut edir. Bu möhtəşəm uğurların kökündə isə Azərbaycan xalqının xilaskarı, Ümummilli Lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti dayanır.

Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində Prezident İlham Əliyev tədbir iştirakçılarının nəzərinə çatdırmışdır: *"Biz - bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin".* Gənclərimizdə vətənpərvərlik hissi çox güclü olmalıdır. Onlar ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Məhz belə gənclik ölkəmizi daha firavan gələcəyə inamla apara bilər.

***İradə HÜSEYNOVA,***
***akademik***

Azərbaycanın özü qədər əbədi

# Yaşayan və zənginləşən irs

Mənsub olduğu xalqın tarixi taleyinə məsuliyyəti öz üzərinə götürmək siyasi liderdən təkcə böyük hünər, cəsarət və müdriklik deyil, həm də dəqiq hədəflər və onlara çatmaq üçün mükəmməl fəaliyyət proqramı tələb edir. Müstəqil Azərbaycanın uğurları, nailiyyətləri Ulu Öndər Heydər Əliyevin məhz belə qüdrətli siyasi lider olduğunu sübuta yetirməklə, onun əziz xatirəsini və zəngin dövlətçilik irsini əbədiləşdirir. Öz xalqının önündə addımlamaq, onu ən çətin sınaqlardan keçirmək, onun gələcəyi üçün möhkəm bünövrə yaratmaq missiyasını şərəflə yerinə yetirən bu dahi şəxsiyyətin daim yaşayan və zənginləşən irsi tükənməz milli sərvətimizdir.

Azərbaycana əbədi müstəqillik və yüksəliş bəxş edən Heydər Əliyev irsinin gücü və həmişəyaşarlığı ölkəmizin son 16 ildəki sürətli və hərtərəfli inkişaf dövründə də öz təcəssümünü tapıb. Bu illər ərzində ölkəmizin beynəlxalq nüfuzunun, dünya miqyasında hörmətinin necə yüksəldiyini son vaxtlar paytaxtımızda keçirilən mötəbər tədbirlər bir daha təsdiqləyir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü, Dünya dini liderlərinin II Sammiti kimi qlobal miqyaslı tədbirlərin Bakıda təşkil olunması dünyanın siyasi xəritəsində ölkəmizin tutduğu yerin əhəmiyyətini göstərməkdir. BMT-dən sonra dünya miqyasında ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına üç il müddətinə sədrliyin 120 ölkənin yekdil rəyi əsasında Azərbaycana həvalə edilməsi müstəqil dövlətimizə beynəlxalq dəstəyin və etimadın aydın təzahürüdür.

Bu yaxınlarda ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhəri 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanıb. Cənab Prezident bu hadisəni çox önəmli siyasi qələbə kimi dəyərləndirərək onun Azərbaycanda texnoloji inkişafa mühüm töhfə verəcəyinə əminliyini bildirib. Bu möhtəşəm hadisə Heydər Əliyev irsinin nə qədər yaşarı olduğunu və texnoloji mübarizə əsri olan XXI əsrə öz təsirini göstərdiyini nümayiş etdirir. Belə ki, keçmiş Sovet İttifaqında cəmi bir dəfə Beynəlxalq Astronavtika Konqresi keçirilib və onda da bu mötəbər tədbirə evsahibliyi Bakıya, Azərbaycana həvalə olunub. Təbii ki, Ulu Öndər Heydər Əliyevin səyi və təşkilatçılıq istedadı sayəsində... Xalqımızın böyük oğlu hələ o zaman elmi-texnoloji inkişafın perspektiv istiqamətlərini özünəxas müdrikliklə görür və respublikamızın gələcək müstəqilliyini düşünərək onun bu sahədə beynəlxalq təcrübə ilə təmasına çalışırdı. Bu gün qürurla deyirik ki, ölkəmiz texnoloji inkişaf sahəsində böyük uğurlar əldə edib, kosmik klubun üzvüdür və onun müstəqil rabitə sisteminə hazırda üç peyk daxildir.

Ulu Öndərin qətiyyətli davamçısı kimi Prezident cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət, genişmiqyaslı quruculuq işləri Azərbaycanın hərtərəfli inkişafını təmin edir. Sıx vəhdətdə həyata keçirilən islahatlar, davamlı iqtisadi inkişaf xalqımızın sosial rifahının da durmadan yüksəldilməsinə şərait yaradıb. Son 16 ildə iqtisadiyyatımızın üç dəfədən çox artması dünya miqyasında rekord göstəricidir. Məhz bu inkişafın nəticəsində ölkəmizdə yoxsulluq səviyyəsi 5 faizə düşüb. Xarici dövlət borcu da ən aşağı səviyyədədir və ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir ki, bu göstəriciyə görə ölkəmiz dünya miqyasında doqquzuncu yerdədir.

Dövlət başçısının çıxışlarında istinad etdiyi beynəlxalq reytinq göstəricələrinə nəzər yetirməklə Azərbaycandakı dinamik inkişafın dünyada necə rəğbətlə qarşılandığını görmək olar. Dünya Bankının "Doing Business 2020" hesabatına görə, Azərbaycan 190 ölkənin arasında 34-cü mövqedə qərarlaşıb və ötən il olduğu kimi, bu il də 20 ən islahatçı ölkə sırasında yer alıb. Bu mövqe möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlarla bağlıdır. Bu islahatlar dünyada ölkəmizə marağı artırır, iqtisadiyyatımıza xarici sərmayə qoyuluşlarına və beləliklə, həm yeni iş yerlərinin yaradılmasına, həm də əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına geniş imkanlar açır. Sevindirici haldır ki, Azərbaycan hər nəfərə düşən sərmayə həcminə görə regionun lider dövlətidir. Bu il qəbul edilən çox geniş sosial paket 4 milyon 200 mindən çox insanı əhatə edib. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox, müavinətlər iki dəfə artıb. Orta əməkhaqqının 35 faiz artırılaraq 723 manata çatdırılması ölkə rəhbərinin sosial siyasətinin böyük uğurudur.

Bu məsələlərə diqqət yetirərkən, təbii ki, Ulu Öndər Heydər Əliyevin hələ respublikaya birinci rəhbərliyi dövründə, sovet hakimiyyəti illərində xalqın rifahının yüksəldilməsi sahəsində gördüyü işləri xatırlamalı oluruq. O dövrün şahidlərindən biri kimi yaxşı yadımdadır ki, həm kənd təsərrüfatında çalışanların əməyinin qiymətləndirilməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması, həm də şəhər əhalisinin həyat səviyyəsinin yüksəldilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilirdi.

Azərbaycana rəhbər seçildiyi ilk gündən Heydər Əliyev öz idarəçilik fəaliyyətini milli mənafelərimizin qorunmasına, iqtisadiyyatın dirçəlişinə, xalqın güzəranının yaxşılaşmasına, mədəniyyətin, təhsilin, səhiyyənin inkişafına yönəltdi. Bu da respublikamızda görünməmiş işgüzarlıq ab-havası, quruculuq əhvali-ruhiyyəsi yaratdı. Heydər Əliyevin hakimiyyətə gəlişi təkcə sosial-iqtisadi, mədəni sahələrdə deyil, həm də milli şüurda oyanış yaratdı. Məhz həmin dövrdə təşəbbüskar və cəsarətli rəhbərə inam xalqın öz potensialını üzə çıxarması və səfərbər etməsi üçün mühüm amil oldu. İqtisadiyyat dirçəldikcə cəmiyyət də canlandı, fəallaşdı. 1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə görülən işlər milli dövlətçilik ideyalarının cəmiyyətdə hərəkətverici qüvvəyə çevrilməsinə rəvac verdi. Həmin dövrdə Ulu Öndər özünəməxsus müdriklik və uzaqgörənliklə Azərbaycanın gələcək azadlığı, müstəqilliyi üçün yorulmadan çalışır, möhkəm və davamlı sənaye potensialı, kadr ehtiyatı yaradırdı.

Möhtərəm Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, 1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır.

Erməni separatizminin baş qaldırması məhz Heydər Əliyevin Azərbaycan rəhbərliyindən uzaqlaşdırılmasından sonra mümkün oldu. Ulu Öndərin respublikaya rəhbərlik etdiyi dövrdə Dağlıq Qarabağda azərbaycanlı əhalinin faiz nisbəti iki dəfə artaraq 30 faizə çatmışdı və bu tendensiya davamlı xarakter daşıyırdı. Təəssüf ki, keçmiş Sovet İttifaqında başlanan dırnaqarası yenidənqurma erməni millətçilərinə məkrli niyyətlərini reallaşdırmaq fürsəti yaratdı. Bunun üçünsə, əvvəlcə, Azərbaycanın qüdrətli oğlunu siyasi səhnədən uzaqlaşdırmaq planı işə düşdü, sonra isə onu təqib etməyə, hər vəchlə gözdən salmağa cəhd göstərildi. Lakin Heydər Əliyev öz mübarizliyi və müdrikliyi ilə bütün bu cəhdləri puça çıxardı. Çünki doğma xalqına, onu qəlbən sevən millətinə güvənirdi, arxalanırdı. Ulu Öndər sonralar deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Heydər Əliyevin siyasi həyatdan qısamüddətli təcridi Azərbaycana "Dağlıq Qarabağ problemi" adlı elə bir yara vurdu ki, onun əzab-əziyyəti bu gün də davam edir, xalqımızın yeganə həll edilməmiş problemi kimi qalır. Bu tarixi həqiqətdir ki, əgər Heydər Əliyev Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi.

Hələ sovet hakimiyyəti illərində milli ideallara inamına və sədaqətinə, xalqının gələcək azadlığı üçün göstərdiyi xidmətlərə müqabil olaraq uca Tanrı Heydər Əliyevə müstəqil Azərbaycanın qurucusu olmaq şərəfini nəsib etdi. Sovet dövlətinin süquta uğraması ilə formal müstəqillik qazanan, lakin naşı idarəçilik nəticəsində onu itirmək, hətta vətəndaş qarşıdurması və parçalanmaq təhlükəsi ilə üzləşən respublikamızı və milli dövlətçiliyi xilas etmək, xalqı bəlalardan qurtarmaq missiyasını Ulu Öndər özünə xas olan qətiyyətlə yerinə yetirdi. Müasir Azərbaycan dövləti quruldu, ictimai-siyasi sabitlik yarandı, iqtisadi islahatlar aparıldı. Möhtərəm Prezident İlham Əliyev Ulu Öndərin müstəqillik dövrü fəaliyyətini belə dəyərləndirir: "1993-2003-cü illər tarixdə sabitlik və inkişaf dövrü kimi qalacaq. Heydər Əliyevin strateji qərarları ölkəmizin strateji inkişaf istiqamətlərini müəyyən etdi. O vaxt bizim qarşımızda müxtəlif seçimlər var idi, müxtəlif dövlət quruluşu yarana bilərdi. Heydər Əliyevin xalq arasında nüfuzu o qədər yüksək idi ki, o, Azərbaycanda istənilən dövlət quruluşunu tətbiq edə bilərdi... Onun müdrikliyi, gələcəyə strateji baxışları o seçimi şərtləndirdi və bu gün Azərbaycan azad, demokratik, hüquqi dövlətdir".

Təəssüf ki, ölkəmizi böyük problemlərə, böhranlara düçar edən antimilli ünsürlər vaxtaşırı fəallaşır, ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərir, qanunsuz kütləvi aksiyalara əl atmağa çalışırlar. Onların əsl siması bu günlərdə aşkara çıxan "siyasi mühacir alveri" məsələsində bir daha özünü qabarıq şəkildə göstərdi. Müxtəlif şüarlar ilə adamları küçələrə çıxmağa təhrik edənlər bu qanunsuz aksiyaları özləri üçün biznes mənbəyinə çevirirlər. Belə aksiyalarda özünü kütləvi informasiya vasitələrinin nümayəndəsi kimi qələmə verən çoxsaylı foto-video çəkənlərin məqsədi Müsavat, AXC və s. bu kimi radikal dəstələrin heç də müftə vermədikləri arayışlarla Avropaya "siyasi mühacirət"ə getməyə hazırlaşanların guya təzyiq və təqiblərə məruz qalmasına sübut-dəlil düzüb-qoşmaqdır. Belələri getdikləri ölkələrdə də siyasi dələduzluqlarını davam etdirir, sosial şəbəkələrdə öz vətəninə, onun inkişafı üçün fədakarlıq göstərənlərə, dövlətimizin rəhbərlərinə qarşı hədyanlar danışaraq, orada Azərbaycan əleyhinə işləyən, əsasən də, erməni lobbisi ilə bağlı olan qrupların himayəsi altına girirlər. "Mühacir biznesi"nin ifşa edilməsinin belə şəxslərin bir çoxunun yenidən Azərbaycana qaytarılması ilə nəticələnəcəyini göstərir. Simasını itirmiş, xalqına və dövlətinə xəyanət etmiş həmin antimilli ünsürlər vətənə hansı üzlə qayıdacaqlar?.. Təbii ki, Azərbaycan hüquqi dövlətdir və mövcud qanunvericiliyi pozanların haqq etdikləri cəzanı alacağına şübhə yoxdur.

Ölkəmizdə hakimiyyətin yeganə mənbəyi xalqdır, onun siyasi avanqardı isə Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasıdır. Heydər Əliyevin Azərbaycanın milli dövlətçilik tarixindəki rolundan danışarkən onun yaratdığı və uzunmüddətli fəaliyyət strategiyasını müəyyənləşdirdiyi güclü və nüfuzlu siyasi təşkilatın - Yeni Azərbaycan Partiyasının bugünkü nailiyyətləri də göz önündə canlanır. Öz böyük öndəri ilə qurtuluş hərəkatına başlayan, onu zəfərlə başa çatdıran və bu günlərdə 27 illiyini qeyd edən partiyamızın ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi inkişafında xidmətləri əvəzsizdir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, "o vaxt özünü demokrat adlandıran, hakimiyyəti qanunsuz yollarla zəbt etmiş satqın AXC-Müsavat hakimiyyəti imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Vətənpərvər insanlar, Heydər Əliyevi dəstəkləyən insanlar, ziyalılar Naxçıvana gedib soyuq, işıqsız şəraitdə, - hər on dəqiqədən bir işıqlar kəsilirdi, - Yeni Azərbaycan Partiyasını təsis etdilər. Artıq Azərbaycanın yeni dövrü başlamışdır. Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq görəndə ki, sovet ittifaqı çökür, ondan sonra bunu etdilər".

Yeni Azərbaycan Partiyasının 27 il əvvəl Naxçıvanda keçirilmiş təsis konfransında 500 nəfər iştirak etmişdisə, bu gün partiyamızın 700 mindən çox üzvü vardır. Müqayisə üçün deyim ki, 70 il ərzində sovetlərin birpartiyalı sistemində Azərbaycan Kommunist Partiyasının cəmi 370 min üzvü var idi. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək partiya yoxdur və inanmıram ki, gələcəkdə də olsun. YAP Heydər Əliyevin dövlətçilik ideyalarının gerçəkləşməsi üçün bütün qüvvəsini səfərbər edib.

Ulu Öndərin adını daşıyan fondun, onun rəhbəri, Birinci vitse-prezident, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri, Yeni Azərbaycan Partiyasının sədr müavini Mehriban xanım Əliyevanın Heydər Əliyev irsinin qorunmasında və təbliğində, Ulu Öndərin dövlətçilik ideyalarının həyata keçirilməsində diqqətəlayiq xidmətləri vardır. Heydər Əliyev Fondu vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oynamaqla yanaşı, elmin, mədəniyyətin, təhsilin inkişafına öz sanballı töhfələrini verir, müharibədən əziyyət çəkən, həmçinin aztəminatlı şəxslərin sosial problemlərinin həllində, tibbi xidmətlərə olan ehtiyaclarının ödənilməsində fəal iştirak edir. Azərbaycanın xarici siyasət strategiyasının reallaşmasında da fond özünəməxsus yer tutur: onun dünyanın müxtəlif ölkələrində icra etdiyi proqramlar və layihələr müstəqil dövlətimizə böyük nüfuz qazandırır, xalqımızın dostluq əlaqələrini möhkəmləndirir. Ulu Öndərin azərbaycançılıq fəlsəfəsinin təbliği və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində davamlı iş aparan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə qlobal miqyasda təşkil edilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının erməni millətçilərinin bəşəriyyətə qarşı bu ağır və amansız cinayətinə mənəvi-hüquqi qiymət verilməsi tələbinə bir milyondan çox insan qoşularaq Azərbaycanın ədalətli mövqeyini müdafiə edir.

Mehriban xanımın Birinci vitse-prezident vəzifəsində fəaliyyəti isə Heydər Əliyevin müstəqil dövlətçilik irsinin daha da zənginləşdirilməsi baxımından xüsusilə mühüm əhəmiyyət kəsb edir. Hələ dörd il əvvəl ölkəmizdə mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, xalqımızın mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə ali mükafata - "Heydər Əliyev" ordeninə layiq görülən Mehriban Əliyeva Ulu Öndərin dövlət idarəçiliyi ənənələrini yaşadır və inkişaf etdirir. "Böyük siyasət xadimi, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev hər bir azərbaycanlının qəlbində qoyub getdiyi azərbaycançılıq fəlsəfəsi, dövlətçilik irsi və gördüyü nəhəng işlərlə yaşayacaqdır. Heydər Əliyev müdrik, güclü, cəsarətli, nəhəng intellektə və yenilməz iradəyə malik olan bir insan idi. Eyni zamanda onun ailə üzvü olaraq demək istərdim ki, o, çox xeyirxah, mərhəmətli və humanist insan idi. Adi insanlarla münasibətdə o, çox sadə və ədalətli idi," Mehriban xanım özü də Ulu Öndər haqqında söylədiyi bu dəyərli fikirdə ifadə olunan əsl rəhbər və insan xarakterini təcəssüm etdirir. Bu günlərdə Birinci vitse-prezident kimi Rusiya Federasiyasına səfəri, bu nəhəng dövlətlə dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün gördüyü işlər Mehriban Əliyevanın dünya səviyyəli siyasətçi, Heydər Əliyev məktəbinin ən görkəmli nümayəndələrindən biri olduğunu bir daha təsdiqlədi.

Bu gün müstəqil Azərbaycan onu hərtərəfli inkişafın zirvəsinə doğru aparan Heydər Əliyev yolu ilə gedir. Ölkə Prezidenti cənab İlham Əliyevin Sumqayıtdakı çıxışına yenidən istinad etmək istəyirəm. Dövlət başçısı Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin tarixi hadisə olduğunun qeyd edərək deyib: "Bu gün biz onun yolu ilə gedirik. Onun yürütdüyü siyasət bu gün yaşayır, zənginləşir. Əlbəttə, həyat yerində durmur. Qarşımızda yeni çağırışlar, yeni vəzifələr durur və biz bu vəzifələri icra edirik. Çünki bu gün Azərbaycanın uğurlu inkişafı aparılan islahatlarla sıx bağlıdır". Yeri gəlmişkən, cənab Prezidentin kadr islahatları da məhz Ulu Öndər Heydər Əliyevin ölməz ideyalarının təntənəsinə xidmət edir. Əminik ki, savadlı, bilikli, vətənpərvər, ölkəmizin inkişafı üçün öz səylərini göstərə bilən müasir tipli yeni kadrlar dövlətçiliyimizin möhkəmlənməsinə və qüdrətlənməsinə öz töhfələrini verəcəklər.

Azərbaycanın ərazi bütövlüyünün bərpası Ulu Öndər Heydər Əliyevin ən ümdə istəyi idi və bu istiqamətdə taleyüklü məsələlərin həlli üçün möhtərəm Prezident İlham Əliyev məqsədyönlü iş aparır, mövcud münaqişənin xalqımızın və dövlətimizin mənafeyinə uyğun formada aradan qaldırmasını, bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımızın doğma yurda qayıtmasını təmin edəcək yollar axtarır. Ölkəmizin daim artan hərbi-iqtisadi gücü, beynəlxalq nüfuzu, ən başlıcası, sarsılmaz xalq-iqtidar birliyi bizi, bütün istiqamətlərdə olduğu kimi, bu istiqamətdə də uğura, qələbəyə çatdıracaqdır.

***Tağı ƏHMƏDOV,***
***YAP Yasamal rayon təşkilatının sədri***



# Qəlblərdə yaşayan dahi

Dünyada elə bir xalq tapmaq olmaz ki, tarixin taleyüklü mərhələsində onun həyatında müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Həmin liderlər ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar. Yəni belə tarixi şəxsiyyətlərin xidmətləri xalqın yaddaşında əbədi qalır.

Azərbaycan tarixində də müdrik dövlət adamları çox olub. Lakin onlar arasında Ulu Öndər Heydər Əliyev ayrıca və misilsiz mövqe tutur. Çünki tale bu dahi insana Azərbaycanın müstəqilliyini bərpa, sonra isə onu dönməz etmək vəzifəsi ayırmışdı və o, ömrünün sonuna qədər bu missiyasına sadiq oldu. Müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaradan, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirən fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq hələ sağlığında canlı əfsanəyə çevrildi.

Müdrik, qətiyyətli olması ilə bərabər uzaqgörən, cəsarətli lider idi. Həyatını doğma xalqına həsr edən Ulu Öndər bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Xalq da ona inanırdı, güvənirdi və onu çox sevirdi.

Dahi liderin 1993-cü ildə ikinci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı daxili siyasi qarşıdurmanın dərinləşməsi nəticəsində ölkədə böhran vəziyyətinin qorxulu həddə çatdığı dövrə təsadüf edirdi. Ulu Öndər Azərbaycanın ağır vəziyyətini yaxşı görürdü və başa düşürdü ki, bu problemlər öz həllini tapmasa, Azərbaycan heç zaman qüdrətli bir dövlət ola bilməz. Xalqın qeyrətli oğlu bu problemləri həll etdi, ölkənin müstəqilliyini qorudu. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndərin müdrikliyi, uzaqgörənliyi, dəmir iradəsi sayəsində xalqımız bir çox bəlalardan xilas oldu, ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, ayrı-ayrı siyasi qüvvələrə və şəxslərə tabe olan silahlı birləşmələr ləğv edildi, vahid komandanlığa tabe olan ordu yaradıldı.

Ümummilli Liderin rəhbərliyi altında həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda böyük işlər görülməklə milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun köklü hüquqi islahatlar aparıldı. Memarı Heydər Əliyev olan müasir Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, çoxpartiyalılıq prinsipi əsasında demokratik prezident, parlament və bələdiyyə seçkiləri keçirilməsi, siyasi plüralizm, söz və mətbuat azadlığı, siyasi partiyalar və ictimai təşkilatların fəaliyyəti üçün qanunvericilik təminatı olan bazanın yaradılması, demokratik dövlət quruculuğu yolunda atılan mühüm addımlar vətəndaş cəmiyyətinin formalaşması ilə nəticələndi.

Azərbaycanın hərtərəfli inkişafı, gələcək tərəqqisi üçün möhkəm əsasların yaradılması zəngin təcrübəyə, böyük istedada, parlaq zəkaya, ali mənəvi keyfiyyətlərə, yüksək siyasi idarəçilik qabiliyyətinə malik Heydər Əliyevin sosial-iqtisadi strategiyasının həyata keçirilməsi nəticəsində mümkün oldu.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

2003-cü ildə xalqın böyük dəstəyi ilə hakimiyyət estafetini götürən cənab İlham Əliyevin ötən illərdəki çoxşaxəli fəaliyyətinin qayəsində məhz milli ideyaların gerçəkləşdirilməsi dayanır. Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü inkişaf strategiyasını inamla davam etdirməklə yanaşı, yeni dövrün tələblərinə uyğun zənginləşdirib.

Bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı Ümummilli Liderin adı ilə bağlı olmasın. Məhz Ulu Öndərin uzaqgörən, düzgün siyasəti nəticəsində ölkəmiz hazırda dünyada sürətlə inkişaf etməkdə olan dövlətlər sırasındadır.

Qarşıdakı illərdə Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilməsi, siyasi və iqtisadi cəhətdən daha da qüdrətli olması üçün möhkəm baza, güclü iqtisadi, texnoloji potensial və kifayət qədər maliyyə imkanları mövcuddur.

Bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə mütləq əminlik yaradır.

Prezident İlham Əliyevin fəaliyyətinin diqqəti çəkən əsas tərəflərindən biri və başlıcası Ulu Öndər tərəfindən yaradılan ictimai-siyasi sabitliyin qorunub saxlanması və möhkəmləndirilməsidir. Bu illər ərzində həm də Azərbaycanın xarici siyasət kursu da milli maraqlar çərçivəsində bir sıra keyfiyyət dəyişiklikləri edilməklə uğurla həyata keçirilib. Dövlət başçısının xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, özünün nümayiş etdirdiyi peşəkar siyasi məharət, milli məqsədlər naminə dünyanın ən nüfuzlu tribunalarından diplomatik bacarıqla istifadəsi Azərbaycan dövlətçiliyi və nüfuzu baxımından mühüm əhəmiyyət kəsb edib. Bu gün Azərbaycan xalqı Ümummilli Liderin ictimai-siyasi kursunu layiqincə davam etdirən, dünya dövlətçilik təcrübəsinə dərindən bələd olan, Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə inamla gedir. Məhz buna görə də xalqımız Ulu Öndər Heydər Əliyevin siyasi varisi - praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını mükəmməl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan cənab İlham Əliyevin ətrafında sıx birləşib.

Bugünkü qüdrətli Azərbaycan Ulu Öndərin şah əsəridir. Uzaqgörən şəxsiyyət "Vaxt gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq!" müdrik kəlamını bu günümüz üçün söyləyibmiş...

***Səfalı PAŞAYEV,***
***YAP Masallı rayon təşkilatının sədr müavini***

## Azərbaycanın özü qədər əbədi

# İmzası dövlətin simvoluna çevrilən dahi



*Əvvəli 1-ci səh.*

Necə ki Türkiyə Atatürkün, Fransa Şarl de Qollun adı ilə bağlıdır, eləcə də Azərbaycan Heydər Əliyevin adı eyniləşib. Hər üç dövlətin bu gün olduğu vəziyyətinin səviyyəsi məhz bir vaxtlar bu şəxsiyyətlərin yönəltdiyi, təyin etdiyi istiqamətin nəticəsidir. Maraqlıdır ki, tarixin fərqli dövrlərində baş versə də, hər üç dövlət bəzi oxşar məqamlardan, taleyüklü sınaqlardan keçməli olub.

### Xalqının həm əsgəri, həm generalı...

Xalq həmişə onu tanıyana və milli dəyərlərinə hörmət duyan şəxsə etibar edir, güvənir. Liderlik səviyyəsinə çatmaq üçün o mühitin özündə böyümək, onun güclü-zəif tərəflərini tanımaq, bütün mahiyyətini dərk etmək lazımdır ki, yolunu kəsən maneələri daha yaxşı görsün. Məsələ burasındadır ki, bu maneələr yalnız içəridən keçilməlidir, çünki xarici qüvvə belə bir "xidmət" göstərəndə, bunun adı olur işğal, müstəmləkə. Ölkə rəhbəri İlham Əliyev BDU-nun 100 illik yubileyində gənclər haqqında təsadüfən demirdi ki, "Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı". Başqa sözlə desək, xalq adlı ordunun generalı, Lideri olmağın yolu mütləq onun əsgəri olmaqdan keçir. Keçməlidir ki, hər daşının və vətəndaşının qədrini bilsin. Yalnız bu halda həlledici məqamı sezmək və zamanında müdaxilə etmək mümkündür.

Birinci Dünya müharibəsi dövründə Osmanlı ordusunda xidmət edən Mustafa Kamal bir il müddətində general rütbəsinə qədər yüksələ bilmişdi. Mövcud durumu düzgün dəyərləndirməklə o, nəinki uduzmaqda olan, hətta artıq ərazisi hərraca qoyulan Osmanlı İmperiyasının məğlubiyyətini Türk Qurtuluş Savaşına çevirə bildi və Ankara Hökumətini qurdu. Yalnız türk ruhunun gücünü bilən və özü də eyni hissi yaşadığına görə ən çətin döyüşlərdə qazi olan bir şəxs əsgərlərə belə bir əmr verə bilərdi: "Mən sizə savaşmağı əmr etmirəm, ölməyi əmr edirəm". Məhz bu ruhu oyatmaqla böyük İmperiyanın dağılması prosesini yeni bir dövlətin yaranması üçün zəminə çevirə bildi. Və tarixdə Türkiyə adlı səhifənin yazılması başladı.

Bənzər hadisələr İkinci Dünya müharibəsi dövründə Fransada baş verdi. Faşist Almaniyası tərəfindən işğal olunan və bütün mümkün köməklərdən əli üzülən Fransanın köməyinə elə öz əsgəri Şarl de Qoll gəldi: "Fransa döyüşü uduzdu, ancaq müharibəni uduzmayıb! ...Gün gələcək, Fransa öz azadlığını və əzəmətini geri qaytaracaq". Bu, həlledici məqam idi - fransız xalqını öz məhvi ilə barışmaqdan və uçurumun dibinə yuvarlanmaqdan qorumaq idi. Alman faşistlərinə qarşı Müqavimət hərəkatına rəhbərlik etməsi və iki il ərzində Fransada yaradılmış müvəqqəti hökumətin başçısı olması Şarl de Qollun öz missiyasına inanmağına və inandıra bilməsinə dəlalət edirdi.

Azərbaycanın taleyində ilk belə taleyüklü məqam 1990-cı ilin 20 Yanvarında yetişmişdi. Tərkibində olduğu sovet imperiyası ona xəyanət etdi və bir gecənin içində dinc əhalisinə divan tutdu. Əhali çaşmışdı - dünənə qədər "böyük qardaş" hesab etdiyi qatil çıxmışdı, arxalandığı şəxslər isə ümumiyyətlə kölgəyə çəkilib gizlənmişdi. Belə bir məqamda xalqa dəstək Ulu Öndər Heydər Əliyevdən gəldi. Faciənin sabahı Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməklə və etiraz səsini ucaltmaqla o, özünün Ümummilli Lider olduğunu təsdiqlədi. Maraqlıdır, o zaman Heydər Əliyev sanki siyasi meydanda tək idi. Özü də vurğulayır ki, "Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram". Ancaq bu ona öz düşüncələrini xalqa çatdırmağa mane olmadı: "Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram". Başsağlığı və təəssüf hissini çatdırmaqla əslində Ulu Öndər xalqa daha böyük bir ismarıc çatdırdı: sizin Lideriniz mənəm, nə qaçmıram, nə gizlənmirəm və heç bir maneəyə, çətinliyə baxmayaraq yanınızdayam. Bununla insanların özünə inamı da, cəsarəti də bərpa olundu. Deyilənlərdə incə və çox əhəmiyyətli bir məqam var: xalq böyük qüvvədir və onun istəyi qarşısında hər şey acizdir, ancaq bəzən qəfil təcavüz, arxalandığı şəxslərin satqınlığı, düşünülməmiş addımlar atması bu gücün üstünü örtür, sanki korşaldır. Xalq bir növ özündən bixəbər hala düşür. Buna görə də, Ulu Öndərin dediyi kimi, "səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaradan" şəxsdən başçı ola bilməz. Lider xalqa öz gücünü xatırladan, onu özünə qaytarandır. Düzdür, Lider tək şəxsdir, ancaq xalqın səsini bərpa etməklə onda bütün xalqın səsi ilə danışmaq qüdrəti yaranır. Hər üç dövlətin nümunəsində əhəmiyyətli məqam məhz budur: Liderin gücü və müqəddəs missiyası xalqla özünün birliyinə inanmaq və inandırmaq, istənilən addımında bu vəhdətin gücünə arxalanmaq.

1990-cı ilin yanvarında, uzun illər Azərbaycandan uzaqda, Moskvada olsa belə, Heydər Əliyevin bir Ümummilli Lider kimi önə çıxmağa, səsini ucaltmağa tam haqqı çatırdı. Prezident İlham Əliyevin də vurğuladığı kimi, "əgər 1970-ci illərdə onun gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı, - Azərbaycan xalqı ona müraciət etməzdi. Məhz o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində ona inam hissini saxlayırdı". Hələ Sovet dönəmindən xalqın xidmətində olan bu şəxsin fəaliyyətində bir özək xətti daim saxlanıb: Azərbaycan güclüdür, öndə durmalıdır və öz kökü ilə qürur duymalıdır. 15 respublika arasında ən öndə duranlardan, iki donor respublikadan biri olmaq, ən vacibi isə imperiyanın tərkibində ola-ola milli ruhunu qorumaq böyük hünər istəyirdi. Heydər Əliyev uzun illər təhlükəsizlik orqanlarında çalışmışdı və general-mayor rütbəsinə qədər yüksələ bilmişdi. Eyni zamanda o, universitetin tarix fakültəsini bitirmişdi. Bu ona Azərbaycanın tarixi və reallığı arasında paralellər aparmağa imkan verirdi.

Bunu deməyə əsas verən bir faktı göstərmək olar. 1969-cu ildən başlayaraq 1982-ci ilə qədər Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışarkən Heydər Əliyev xalqın milli ruhunun qorunması, milli təfəkkürün daim oyaq qalması üçün əlindən gələni edirdi. Başqa sözlə desək, o, Azərbaycanı sovet imperiyasının ən qabaqcıl respublikalarından biri etməklə kifayətlənməyərək, həm də milli kimliyinin qayğısına qalırdı. Bu istiqamətdə onun gördüyü çox əhəmiyyətli və uzaqgörən fəaliyyətlərdən biri milli kadrların yetişdirilməsi idi. Ulu Öndər Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında (7 mart 1991-ci il) bunu özü də vurğulayır: "O dövrdə respublikamızda yaranmış güclü sosial-iqtisadi və intellektual potensial xalqımızın milli sərvətidir və Azərbaycanın müstəqilliyi üçün yaxşı zəmin yaradır". Dövlət başçısı İlham Əliyev bugünün mənzərəsindən çıxış edərək deyir: "Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət göstərirdi, hər il böyük müşavirələr keçirirdi. Eyni zamanda, Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərmişdi və bu, unikal xarakter daşıyırdı. Çünki sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda imtahanlar verməklə Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərindəki aparıcı ali məktəblərinə ezam edilmişdir. Beləliklə, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialı yaradılırdı". Deyilənlərdən çox aydın bir həqiqət müşahidə edilir: bir general layiqli əsgərlərin yetişməsi və irəli getməsi üçün əlindən gələni edir, çünki çox gözəl bilir ki, Vətənin rifahı məhz millətini sevən gənclərdən asılıdır.

### Köhnə tarixdə yeni səhifə

Bir xalqın tarixinin zənginliyini təmin edən faktorlardan biri də onun kəsilməzliyidir. Əbu Turxanın dediyinə görə, "...cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir". Kontekstimizə uyğun olaraq onu da əlavə edək ki, Lider bu kəsilməzliyi təmin etməklə yanaşı, həm də xalqın taleyində yeni bir səhifə açan, yeni bir mərhələyə keçirdə biləndir. Başqa sözlə desək, xalqın ruhunun gücünü saxlamaqla və ondan düzgün istifadə etməklə Lider onu nəinki mövcud böhrandan çıxarır, üstəlik inkişaf üçün yeni, güclü bir təkan da verir. Onu da mütləq vurğulamaq lazımdır ki, hər nə qədər həlledici söz, hərəkət bir anda baş versə də, yeni müstəvidə başlayan inkişaf tədrici bir prosesdir və nəticəsini görmək üçün bir neçə il lazım olur.

Çanaqqala savaşı 1916-cı ildə, Qurtuluş Savaşı isə 1919-cu ildə bitdi. Böyük Millət Məclisi 1920-ci ildə açıldı, Türkiyə Cümhuriyyəti isə 1923-cü ildə elan edildi. Yəni ilk dönüş məqamı ilə onun tarixi nəticəsinin arası təqribən 7 il çəkdi. Mustafa Kamal Atatürk elan edilən cümhuriyyəti belə təqdim edir: "Hökumətimiz artıq despot bir hökumət deyil. Mütləq və konstitusional bir hökumət də deyil. Hökumətimiz nə Fransa, nə də Amerika respublikaları ilə oxşar deyil. Hökumətimiz xalq hökumətidir. Tam bir şura hökumətidir. Yeni Türkiyə dövlətində səltənət millətindir..." Hadisələrin sonrakı gedişi də göstərdi ki, ölkədə aparılan hər islahat xalqın özgüvənini və savadını artırmaq, xarici qüvvələrə duruş gətirə bilən bir səviyyəyə qaldırmaq məqsədi daşıyıb. Belə ki, əgər hökumət xalqındırsa, o zaman xalqın səviyyəsinin qalxması ilk şərtdir, çünki bilavasitə hökumətdə əks olunacaq. Bunu Atatürkün gəncliyə xitabında müşahidə etmək mümkündür: "İlk vəzifən Türk müstəqilliyini, Türk Cümhuriyyətini əbədi qorumaq və müdafiə etməkdir. Bu onun varlığının və gələcəyinin yeganə əsasıdır. Bu təməl ən qiymətli xəzinəndir. Lazım olan qüdrət damarlarındakı nəcib qanındadır!" İstər-istəməz yada Bakı Dövlət Universitetinin yubileyində Azərbaycan Prezidentinin çıxışı düşür: "Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin. Azərbaycan heç vaxt gözü kölgəli olmasın, heç vaxt başqasının iradəsindən asılı olmasın, heç vaxt başqa dövlətlər qarşısında baş əyməsin". Bu, bir aksiomdur: bir dövlətin müstəqilliyinin qoruyucusu da, inkişafının da, ən vacibi isə müstəqilliyinin də təminatçısı gənclərdir. Gənclərə müraciət etmək, əslində ölkənin gələcəyinə səslənməkdir.

Hadisələrin təqribən eyni gedişatını Fransada da izləmək mümkündür. 1940-cı ildə Fransanın azadlığının məsuliyyətini üzərinə götürən Şarl de Qoll 1958-ci ildə yeni konstitusiyanı qəbul etməklə 5-ci Respublikanın təməlini qoydu. Şarl de Qollun konstitusiyanın da təməlini təşkil edən görüşləri bu prinsip üzərində bərqərar etdi: "Mənim fikrimcə, dövlətin başçısı, yəni rəhbəri olmalıdır ki, millət onun simasında dövlətin təməlinə cavabdeh olan şəxsi və öz taleyinin qarantını görə bilsin". Burada birbaşa millət-Lider vəhdəti göstərilməklə yanaşı, Liderin daha bir ağır məsuliyyəti də vurğulanır: xalqın taleyinə görə məhz o cavabdehdir. İkinci dəfə hakimiyyətə gələndə Şarl de Qoll məhz bu məqamın üzərində durur: "Nə vaxtsa, ağır saatda, ölkə mənə etibar etdi ki, onu xilas edim. Bu gün ölkə yeni sınaqlar qarşısındadır və qoy bilsin ki, mən respublikanın bütün səlahiyyətlərini öz üzərimə götürməyə hazıram". 1990-cı ilin yanvarından 1993-cü ilin iyununa qədər olan Azərbaycanda baş verən hadisələri xatırlayanlar üçün çox tanış bir mənzərədir...

Tarixdə bir dövlət kimi öz mövcudluğunu qorumaq istəyən Azərbaycanda da hadisələr bir növ millət-Lider tandeminin zərurətinə aparırdı. Buna ehtiyac var idi. 1990-cı ilin tarixi məqamından sonra Heydər Əliyev Azərbaycana qayıtdı və Ali Sovetinin deputatı, 1991-1993-cü illərdə isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri kimi fəaliyyət göstərdi. Bu gəlişin hansı məqsəd daşıdığını elə ilk addımdan sezmək mümkün oldu: 1990-cı ildə Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edildi. Bu, 1918-ci il Xalq Cümhuriyyətinin yarımçıq qalmış prinsiplərinin, Azərbaycanın həqiqi müstəqilliyinin davam etdiriləcəyinə ilk çağırış idi. 7 mart 1991-ci ildə Ulu Öndər Ali Sovetin sessiyasında yeni mərhələdə göstəriləcək fəaliyyəti belə təyin etdi: "Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Ulu Öndərə olan inam, etibar idi ki, 1993-cü ildə ölkə vətəndaş müharibəsi ilə üzbəüz qaldığı bir vaxtda xalq yenə ondan kömək umdu, onu çağırdı. Və elə həmin il xalqın seçimi ilə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. İşin əhəmiyyətli məqamı budur ki, təqribən bir il sonra Azərbaycanda iğtişaş törətmək istəyənlərə cavab olaraq bu dəfə Heydər Əliyev xalqa üz tutdu: "Əziz həmvətənlər, Azərbaycanın vətəndaşları! Bu ağır dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlikdəyəm. Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda əziz həmvətənlər, mən sizə güvənirəm, sizə arxalanıram" (1994-cü il 4 oktyabr). Bu çağırışda həm öz məsuliyyətini və gücünü bilən ölkə rəhbərinin, həm xalqının taleyini düşünən, həm də öz xalqına, onunla mənəvi bağına inanan rəhbərin səsi var. Təbii ki, artıq yaxın keçmişdə oxşar ssenarini və onun nəticələrini yaşamış xalq belə bir müraciəti cavabsız qoya bilməzdi və öz Liderinin arxasında durdu. Bu güvənin əks-sədası olaraq Ulu Öndər sonralar qürurla dedi: "Mən fəxr edirəm ki, mən Azərbaycanlıyam".

### Nəticə

Lazımi məqamda xalqını sevən və tanıyan bir şəxsin - həqiqi Liderinin təklifini qəbul edib onun arxası ilə getməsi hər üç dövləti inkişafa apardı. Türkiyə keçən əsrin əvvəllərindən, Fransa ortalarından, Azərbaycan isə sonlarından başlayaraq yeni bir inkişaf mərhələsinə keçdi. Hazırda Fransa superdövlətlər sırasındadır, Türkiyə bütün çətinliklərə baxmayaraq dünyanın aparıcı dövlətlərini özü ilə hesablaşmağa məcbur etmək qüdrətindədir.

Əlbəttə, hər iki dövlətə baxanda Azərbaycan nisbətən gəncdir. Üstəlik nəzərə almaq lazımdır ki, hər nə qədər Şərqdə ilk demokratik cümhuriyyət Azərbaycanda qurulsa da, arada 70 illik bir fasilə, üst-üstə yaşadığı böhranlar, məruz qaldığı işğal ölkəni bir neçə dəfə sıfırdan başlamağa məcbur edib. Buna baxmayaraq, Azərbaycan da məhz doğru istiqamətdə olduğuna görə, qısa müddətdə adını güclülər sırasına yazdırmaq iddiasındadır və artıq bir çox nailiyyət əldə edib və etməkdədir. Ölkə rəhbərinin də qeyd etdiyi kimi, "müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha asandır. Müstəqilliyi qorumaq, onu müdafiə etmək, onu gücləndirmək böyük siyasi biliklər, böyük cəsarət tələb edir". Cəsarəti verən isə kökünə bağlılıq və millət-Lider vəhdətidir.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***

---

## Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya tariximizdə çox böyük əhəmiyyətə malikdir

Ümummilli Lider Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar Ankarada anma mərasimi təşkil olunub.



AZƏRTAC xəbər verir ki, rəsmi şəxslər, diplomatlar, Azərbaycanı qardaş ölkədə təmsil edən nümayəndələr, Ankarada təhsil alan kursantlarımızdan ibarət heyət əvvəlcə Türkiyə paytaxtındakı Heydər Əliyev Parkında olublar. Ulu Öndərin parkdakı abidəsi önünə əklillər qoyulub, gül-çiçək dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad edilib.

Heydər Əliyev adına orta məktəbdə davam edən mərasimdə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Ulu öndər Heydər Əliyevin və Mustafa Kamal Atatürkün əziz xatirələri bir dəqiqəlik sükutla yad ediləndən sonra çıxışlar dinlənilib.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Ankaranın Milli Təhsil müdirinin müavini Serkan Topbaş və Heydər Əliyev adına məktəbin müdiri Oktay Kabasakkal çıxışlarında Ümummilli Lider Heydər Əliyevin zəngin mənalı həyat və fəaliyyətindən danışıblar. Diqqətə çatdırılıb ki, bütün siyasi fəaliyyətini Azərbaycanın çiçəklənməsinə, müstəqilliyimizin möhkəmlənməsinə, xalqımızın elm və təhsilinin yüksəlişinə və sosial rifahına, Azərbaycan-Türkiyə dostluq əlaqələrinin dinamik inkişafına həsr edən Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya indi olduğu kimi, gələcəkdə də özünə layiqli yer qazanacaqdır.

Natiqlər Azərbaycan xalqının xilaskarı Heydər Əliyev ilə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün həyat və fəaliyyətləri arasında müqayisələr apararaq qeyd ediblər ki, hər iki tarixi şəxsiyyətin həyat amalı öz xalqlarına xidmət olub.

Sonra Heydər Əliyev məktəbinin şagirdləri Ulu Öndərin həmişəyaşar xatirəsinə, Azərbaycan-Türkiyə qardaşlığına həsr olunan şeirlər oxuyublar.

Sonda Ulu Öndəri məktəblilərə daha yaxından tanıtmaq məqsədilə Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşavirliyi tərəfindən Heydər Əliyev adına məktəbin şagirdləri arasında təşkil olunan şeir, rəsm və inşa müsabiqələrinin qalibləri elan olunub. Səfirliyin Təhsil müşavirliyi tərəfindən qaliblərə mükafatlar təqdim edilib.

---

## Filippin qəzetində Ulu Öndər Heydər Əliyevə həsr olunmuş məqalə dərc edilib



Heydar Aliyev

the builder of an independent and progressive Azerbaijan

December 12 is an important date in Azerbaijan's history, the 16th death anniversary of one of its greatest sons, Heydar Aliyev.

There are leaders who remain in history, but there are leaders who create history.

Heydar Aliyev in his 35 years at the helm of leadership, helped lay the solid foundation of modern-day Azerbaijan as an independent and progressive nation. His people look on Heydar Aliyev with fondness and gratitude as a selfless leader who took on his shoulders the building of a nation.

On July 14, 1969, Aliyev became the first secretary of the Communist Party of Azerbaijan under the USSR. "Modernization" was his clarion call during the Soviet period, when Azerbaijan was previously more known as a supplier of raw materials and a provincial outskirt.

At that time, he completely renewed and upgraded the oil industry, and commissioned a number of infrastructure projects, plants, and factories for manufacturing.

After independence, Heydar Aliyev's philosophy of Azerbaijanism, helped determine the place of Azerbaijan in the modern world.

Heydar Aliyev initiated the development of a new Constitution, which was adopted in 1995.

Aliyev emphasized upgrading education in the country. Education and youth development were always cornerstones in the policies of the farsighted leader.

Aliyev's governance was a holistic program for more prosperity and stability. His pragmatic and balanced foreign policy led to beneficial relations with all nations.

Besides achieving political stability in Azerbaijan, Aliyev's deft touch boosted production, raised local incomes, and attracted more investments.

The "Contract of the Century" signed with the Western oil companies in Baku in 1994 solidified the country's place on the world investment map.

Aliyev's leadership saw more foreign capital flocking into Azerbaijan, which today has the highest growth rates among the former Soviet republics.

The people of Azerbaijan are proud of their great son, who devoted his life to their service at a crucial point in history. Heydar Aliyev's memory lives on in the hearts of millions.

Filippinin məşhur "Philippine Daily Inquirer" qəzetinin 2019-cu il dekabrın 11-də nəşr edilən buraxılışında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar geniş məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə müstəqil və mütərəqqi Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin istər keçmiş Sovet İttifaqı, istərsə də müstəqillik dövründə ölkəmizin bütün istiqamətlərdə inkişafına verdiyi töhfələrdən, xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib.

Bununla yanaşı, müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq fəlsəfəsinin nəticəsi olaraq ölkəmizin beynəlxalq aləmdə müasir və qüdrətli dövlət kimi öz layiqli yerini tutduğu qeyd edilib.

Yazıda Ulu Öndərin mənalı həyatının böyük hissəsini öz xalqına həsr etdiyi vurğulanır, onun əziz xatirəsinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağı bildirilir.

---

## *Gennadi ŞMAL:* "Keçmiş SSRİ-də idarəçilik baxımından Heydər Əliyevlə müqayisə edilə biləcək şəxs yox idi"

Keçmiş SSRİ-də idarəçilik baxımından Heydər Əliyevlə müqayisə edilə biləcək şəxs yox idi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Neft-Qaz Sənayeçiləri İttifaqının prezidenti Gennadi Şmal Ümummilli Lider Heydər Əliyev haqqında xatirələrini bölüşərkən söyləyib. O qeyd edib ki, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində iqtisadi, sosial və mədəni həyatın ən mühüm sahələrinə rəhbərlik edirdi. "Onun keçirdiyi müşavirələrdə mən də dəfələrlə olmuşam. O vaxt hökumətin tərkibində operativ məsələlər üzrə komissiya vardı. Əslində, Heydər Əliyevin rəhbərlik etdiyi bu komissiya bütün ölkə iqtisadiyyatını idarə edirdi. Hökumətin başçısı siyasi məsələlərlə məşğul idi, cari məsələlər isə Heydər Əliyevin üzərinə düşürdü. O vaxt cari məsələlər indikindən çox idi, çünki ölkə böyük idi. Lakin Heydər Əliyev bütün məsələlərin öhdəsindən bacarıqla gəlirdi. O, əvvələn, bilikli, ikincisi, istedadlı insan idi və ən başlıcası, onun xarakteri vardı. Bu amillər Heydər Əliyev səviyyəli insan üçün çox vacib idi. Onu həmişə diqqətlə dinləyir, eşidir və dediklərinə əməl edirdilər. Həmin mürəkkəb dövrdə Heydər Əliyev Sovet İttifaqı üçün çox iş görüb. Heydər Əliyev Sovet İttifaqı tarixində böyük iz qoyub", - deyə G.Şmal vurğulayıb.

---

## *Pavlo MOVÇAN:* "Ulu Öndər Heydər Əliyev ədəbiyyata, sözə böyük qiymət verirdi"

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevlə ilk münasibətim hələ sovet illərindən yaranmışdı. O ədəbiyyata, sözə, yaradıcı insanlara böyük qiymət verirdi.

Bu fikri AZƏRTAC-a açıqlamasında Ukraynanın tanınmış şairi, tərcüməçisi, ictimai xadimi, nəsimişünas Pavlo Movçan söyləyib.

Ulu Öndərlə bağlı xatirələrini bölüşən P.Movçan deyib: "Sovet dövründə bir dəfə Azərbaycanda dövlət səviyyəsində ədəbiyyat tədbiri keçirilirdi. Mən də həmin tədbirə dəvət almışdım. Tədbirdə Nəsiminin tərcümə etdiyim şeirlərini səsləndirdim. Tədbirdən sonra Heydər Əliyevlə görüşümüz oldu. Məndən nə arzuladığımı soruşdu, mən isə "Nəsiminin qəbrini ziyarət etmək istədiyimi" dedim. Qısa müddətdə Heydər Əliyev məni Nəsiminin qəbrini ziyarət etmək üçün Suriyaya göndərdi".

P.Movçan vurğulayıb ki, Heydər Əliyev fenomen şəxsiyyətdir. O istər sovet dövründə, istərsə də Azərbaycanın müstəqillik illərində dövləti, xalqı üçün misilsiz xidmətlər göstərib. "Heydər Əliyevin Azərbaycan-Ukrayna münasibətlərinin inkişafında təmənnasız rolu olub. Bu xidmətlərin nəticəsi olaraq bu gün də iki ölkə arasında münasibətlər yüksək səviyyədədir", - deyə P.Movçan əlavə edib.

---

## *Leonid YAKUBOVİÇ:* "Heydər Əliyev tarixi şəxsiyyətdir"

Heydər Əliyev tarixi şəxsiyyətdir. Mən onunla cəmi bir dəfə görüşmüşəm və bu görüş mənə elə güclü təsir bağışladı ki, onun tərcümeyi-halını ətraflı öyrənməyə başladım. Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda iki və ya üç bu cür insanla rastlaşmışam.

AZƏRTAC xəbər verir ki, rusiyalı məşhur teleaparıcı Leonid Yakuboviç Ümummilli Lider Heydər Əliyev haqqında danışarkən belə söyləyib. L.Yakuboviç qeyd edib ki, "Pole çudes" verilişinin komandası Bakıda olarkən Heydər Əliyev onları qəbul edib: "Sonradan onunla söhbətimizi təhlil edərək xalqın nə üçün onun ardınca getdiyini başa düşdüm. Onu dinləyir və eşidirdilər. O, nəhəngdir. Xalq ona hədsiz hörmət bəsləyir və ümid edirdi ki, respublikanı yalnız o, xilas edə bilər. Heydər Əliyevin oğlu İlham Əliyev ona çox oxşayır. Bu, Əliyev geninin gücünə dəlalət edir. Təbiət bu genin qüdrətini İlham Heydər oğluna ötürüb. O, atasına xas olan daxili qüvvəni, güclü xarakteri əxz edib".

# Mərkəzi Seçki Komissiyasında

QƏRAR № 16/64

## Mərkəzi Seçki Komissiyasının 16 noyabr və 7 dekabr 2019-cu il tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 11 noyabr və 7 dekabr 2019-cu il tarixli iclaslarının protokolları təsdiq edilsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*11 dekabr 2019-cu il*

QƏRAR № 16/65

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2019-cu il 9 dekabr tarixli 8 saylı iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Yeni Azərbaycan Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Əli Cavad oğlu Əhmədov
Rahil Səhrab oğlu Şükürov
Sevinc Qurban qızı Abdullayeva
Ramiz Cahandar oğlu Göyüşov
Seyidmemmed İlhami oğlu Məmmədzadə
Hacı Əhməd oğlu İbrahimov
Namiq Məcid oğlu Əhmədov
İlham Rəsul oğlu Məmmədov
Rasim Əmir oğlu Nəbiyev
Tağı Məhəmməd oğlu Əhmədov
İlqar Fərzulla oğlu Quliyev
Şahin Sücəddin oğlu Quliyev
Nurulla Nurulla oğlu Məmmədov
Vaqif Məhərrəm oğlu Novruzov
Namiq Ehtibar oğlu Gəncəyev
Xeyrulla İman oğlu Hümbətov
Sübhan Eynur oğlu Əmirov
Aynur Baba qızı Abbaszadə
Ramil Vaqif oğlu Vəlibəyov
Rəşad Ağəli oğlu Abbasəliyev
Ramidə Dursun qızı İbrahimova
Bəxtiyar Əli oğlu Qasımov
Zəfər Rafiq oğlu Bayramov
Zəkiyyə Balağa qızı Musayeva
Vüqar Səməndər oğlu Seyidov
Salman Məhyəddin oğlu Əbdülov
Mayıl Qəşəm oğlu Kərimov
Aygün Əkbər qızı Əhmədli
Yeganə Məhəmmədəli qızı Qurbanova
Hacısultan Əmirçoban oğlu Ramaldanov
Mehman Elman oğlu Rzayev
İbrahim Həsən oğlu Cəfərov
Hüseyn Tağı oğlu Budaqov
Orxan Bəxtiyar oğlu Əhmədov
Elnarə Laqət qızı Yusifova
Vasif Yusif oğlu Səfiyarov
İlahə Arif qızı Əliyeva
Emin Baloğlan oğlu Əliyev
Ülvi Tofiq oğlu Salmanov
Emil Şakir oğlu Fətiyev
Cavanşir Nəriman oğlu Yusubov
Vidadi Mürsəl oğlu Qarayev
Rafiq Vaqif oğlu Əliyev
Şahin Abbas oğlu Yusifov
Kamil Sambur oğlu Sultanov
Əhməd Baloğlan oğlu Baloğlanov
Hüseyn Ağahüseyn oğlu Kərimov
Tahirə Hidayət qızı İbrahimova
Teymurşah Hümmət oğlu İşıqov
Fazil Sultanəli oğlu Rəhmətov
Niyazi Ağakişi oğlu Ağayev
İsmayıl Hüseyn oğlu İbrahimov
Elmar Ağakişi oğlu Əhmədov
Fazil Sabir oğlu Məhərrəmov
Ülvi Cəlil oğlu Fərzəliyev
Vüqar Aslan oğlu Astanov
Qalib Həmzə oğlu Rəhbəri
Nail Əligüllah oğlu Xanməmmədov
Aqşin Əhmədağa oğlu Əliyev
Əjdər Hüsən oğlu Niftiyev
Hafiz Məşi oğlu Cavadov
Əfrahim İsmayıl oğlu Hüseynov
Nadejda İvanovna Jitkova
Səfalı Bayramalı oğlu Paşayev
Aygün Balağa qızı Quliyeva
Mahir Xanış oğlu Mirzəyev
Möhübbət Hacıbaba oğlu Babayev
Böyükağa Salam oğlu Axundov
Əlimərdan Ələkbər oğlu Əliyev
Əliziyə Arif oğlu Ağayev
Rauf Həbib oğlu Hüseynov
Cəlil Yüzbaşı oğlu Baxşıyev
Qasım Əlibaba oğlu Qasımov
Orucəli Seyfəddin oğlu Qasımov
Müşfiq Arzuman oğlu Səfərov
Rövşən Nağı oğlu Əhmədov
Nazim Əlaslan oğlu Bünyatov
Aydın Mirzəli oğlu Rəşidli
Fərid Əzizağa oğlu Əliyev
Sevil Kazım qızı Əhmədova
Füzuli Tahir oğlu Abdullayev
Ləman Amil qızı Hacıyeva
Tural Zayıt oğlu Əhmədov
Elnur Tahir oğlu İmranlı
Fərid Əli oğlu İsmayılov
Rəmzi Tehran oğlu Şirinov
Səba Həsən qızı Məmmədova
Faqət Nəcəb qızı Şadlinskaya
Kamil Abbas oğlu Məmmədov
Əzra Müzəffər qızı Həşimova
Elçin Şəmil oğlu İsmayılov
Şövqi Aşır oğlu Həsənov
Azər Həkim oğlu Qəhrəmanov
Yusif Ələkbər oğlu Mehdiyev
Namiq Savalan oğlu Məmmədov
Gündüz Çankay oğlu Bayramov
Xəyyam Abil oğlu Vəliyev
Rüstəm Vaqif oğlu Nağıyev
Arifə İsrafil qızı Abbasova
Sevda Dəmir qızı Səfərova
Ömər Tacəddin oğlu Osmanov
Nadir Ramiz oğlu Hüseynov
Ehtiram Ehtibar oğlu Yusifov
Famil Şamil oğlu Rəhimov
Natiq Şükür oğlu Allahverdiyev
Rafiq Abduləli oğlu Rasulov
Cahangir Şükür oğlu Nəbiyev
Yusif Hacıbala oğlu Şükürlü
Abil Adil oğlu Ağasəfov
Mehman Nəriman oğlu Ramazanov
Səyyad Məcid oğlu Mirzəyev
Elməddin Heydər oğlu Abbasov
Arif Aydın oğlu Fərzəliyev
Xaliq Arif oğlu Musayev
Azər İngilis oğlu Süleymanov
Qənaət Fərəş oğlu Əsgərov
Elmir Zakir oğlu Rzayev
Nərmin Füzuli qızı Hüseynzadə
Kənan Elxan oğlu Hüseynli

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**
Siyavuş Dünyamalı oğlu Novruzov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*11 dekabr 2019-cu il*

QƏRAR № 16/68

## 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində əraziləri bir neçə seçki dairəsi arasında bölünmüş bələdiyyələrə keçirilən seçkilərin yekunlarının müəyyən olunması qaydasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində əraziləri bir neçə seçki dairəsi arasında bölünmüş bələdiyyələrə keçirilən seçkilərin yekunlarının müəyyən olunması məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 29.4-cü, 107-ci və 238-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində əraziləri bir neçə seçki dairəsi arasında bölünmüş bələdiyyələr üzrə səsvermənin yekunlarına dair dairə seçki komissiyalarının səsvermə protokollarının tərtib edilməsi "Əraziləri seçki dairələri arasında bölünmüş bələdiyyələr üzrə səsvermə protokollarının tərtibinə dair Cədvəl"ə uyğun olaraq müəyyən olunsun (cədvəl əlavə edilir).

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*11 dekabr 2019-cu il*

QƏRAR № 16/66

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Ümid Partiyası Ali Məclisinin 2019-cu il 7 dekabr tarixli sessiyasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Ümid Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Ağa-zadə İqbal Fehruz oğlu
Ağazadə Ənvər Sərdar oğlu
Tağızadə Rəfail Alı oğlu
Əliyev Taleh Məhəmməd oğlu
Həsənov Seyfi İnqilab oğlu
Hətəmov Səməd Əbdüləli oğlu
Muradlı Rüfət Habil oğlu
İsayev Anar Rafiq oğlu
Əliyev Faiq Həsən oğlu
Qulami Tamilla Famil qızı
İbadova Günel Mahmud qızı
Sadıqova Mehriban İbrahim qızı
Səfərov Vidadi Vaqif oğlu
Quliyev Elşən Nadir oğlu
Səfərov Natiq Musa oğlu
Əzimov Aslan İsmayıl oğlu
İsmayıllı Cavad Məmməd oğlu

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
Abbasov Elman Abdulla oğlu
Sadıqova İlahə Artur qızı

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*11 dekabr 2019-cu il*

## Əraziləri seçki dairələri arasında bölünmüş bələdiyyələr üzrə səsvermə protokollarının tərtibinə dair CƏDVƏL

| Səsvermə protokollarını tərtib etməli olan dairə seçki komissiyaları | Səsvermə protokolları tərtib olunacaq bələdiyyələrin adı |
|---|---|
| 8 saylı Binəqədi birinci seçki dairəsinin dairə seçki komissiyası | Binəqədi bələdiyyəsi |
| 17 saylı Yasamal üçüncü seçki dairəsinin dairə seçki komissiyası | Yasamal bələdiyyəsi |
| 19 saylı Nərimanov birinci seçki dairəsinin dairə seçki komissiyası | Nərimanov bələdiyyəsi |
| 21 saylı Nəsimi birinci seçki dairəsinin dairə seçki komissiyası | Nəsimi bələdiyyəsi |
| 25 saylı Nizami ikinci seçki dairəsinin dairə seçki komissiyası | Nizami bələdiyyəsi |
| 28 saylı Sabunçu üçüncü seçki dairəsinin dairə seçki komissiyası | Zabrat bələdiyyəsi |
| 29 saylı Səbail seçki dairəsinin dairə seçki komissiyası | Səbail bələdiyyəsi |
| 31 saylı Suraxanı ikinci seçki dairəsinin dairə seçki komissiyası | Qaraçuxur bələdiyyəsi |
| 33 saylı Xətai birinci seçki dairəsinin dairə seçki komissiyası | Xətai bələdiyyəsi |
| 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin dairə seçki komissiyası | Nizami bələdiyyəsi |
| 39 saylı Kəpəz birinci (Gəncə) seçki dairəsinin dairə seçki komissiyası | Kəpəz bələdiyyəsi |
| 41 saylı Sumqayıt birinci seçki dairəsinin dairə seçki komissiyası | Sumqayıt bələdiyyəsi |
| 47 saylı Mingəçevir seçki dairəsinin dairə seçki komissiyası | Mingəçevir bələdiyyəsi |
| 113 saylı Şəki şəhər seçki dairəsinin dairə seçki komissiyası | Şəki bələdiyyəsi |
| **Cəmi:** 14 seçki dairəsinin dairə seçki komissiyaları | |

QƏRAR № 16/67

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyası Siyasi Şurasının 2019-cu il 9 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Əsədli Samir Şakir oğlu
Cəfərli Real Əliqulu oğlu
Poladaşvili Laşa Zazayeviç
Şərəfxanlı Nəsimi Çərkəz oğlu
Sevindikov Mehman Şərif oğlu
Fətullayeva Tatyana Petrovna
Əsədli Seyhun Şakir oğlu
Adişov İqbal Cankişi oğlu
Nəzərli Amal İsmayıl oğlu
Abdullayev Abdulla Aydın oğlu
Əliyev Kamil Rəhim oğlu
Xantemirov Yusif Mətləb oğlu
Şirinov Eldar Patruz oğlu
Nəsirov Həşim İmaş oğlu
Hüseynova Gülnar Faiq qızı
Həsənova Dəniz Nazim qızı
Vəliyev Yaşar Məstan oğlu
Qüdrətova Şahnaz Natiq qızı
Sultanova Gülgəz Kərimxan qızı
Hüseynov Azər Aydın oğlu
İsmayılov Kamil Musarza oğlu
Məmmədov Ədalət Ağagül oğlu
Quliyev Qafar Elxan oğlu
Cahangirov Nadir Ağəli oğlu
Kazımlı Ruhin Ağaşirin oğlu
Əliyev Xəzər Telman oğlu
Abdullayev Vaqif Qubad oğlu
İlyasov Məzahir Əlimurad oğlu
Məmmədov Şamo Əhməd oğlu
Rustamov Nəsib Xosaxan oğlu
Yusifov Orxan Yolçu oğlu
Hüseynov Səxavət Kamil oğlu
Abdulov Emin Vaqif oğlu
Namazəliyev Cavid Qurban oğlu
Nuriyev Elçin Mahmudağa oğlu
Abdullayev İntiqam Mirzəfər oğlu

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**
Ələkbərov Felmar Əli oğlu

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*11 dekabr 2019-cu il*

QƏRAR № 16/69

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü, 30-cu və 241-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 42 saylı Sumqayıt ikinci seçki dairəsi dairə seçki komissiyasının üzvü Salmanov Vüqar Yusif oğlunun və 43 saylı Sumqayıt üçüncü seçki dairəsi dairə seçki komissiyasının üzvü Əfəndiyev Vaqif Məhəmməd oğlunun səlahiyyətlərinə 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərinin yekunları elan olunanadək müvəqqəti xitam verilsin.

2. Süleymanov Məzahir Salman oğlu ərizəsinə əsasən 44 saylı Sumqayıt-Xızı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

3. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərinin yekunları elan olunanadək Alizadə Yaqub Hüseyn oğlu 8 saylı Binəqədi birinci, Qulamov Anar Höcətulla oğlu 42 saylı Sumqayıt ikinci, Kərimov Eflan Kamal oğlu 51 saylı Qusar, Ələkbərov Elçin Nəhməd oğlu və Səfərov İbadət Nüsrət oğlu 68 saylı Cəlilabad kənd, Qubadlı Fuad Cahangir oğlu 69 saylı Cəlilabad - Masallı - Biləsuvar, Ələkbərov Cavid Əliağa oğlu 77 saylı Astara, Əzizov Siyab Xeyrulla oğlu 79 saylı İmişli, Hüseynov Şamil Mehti oğlu 119 saylı Ağdam kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

4. Bayramova Aytəkin Eyvaz qızı 8 saylı Binəqədi birinci, Mürsəlov Fuad Malik oğlu 46 saylı Şirvan, Cabbarov Rəfail Firidun oğlu 47 saylı Mingəçevir, Kərimov Rasim Müslüm oğlu 92 saylı Zərdab-Ucar, Məmmədov Natiq Nizami oğlu 122 saylı Xankəndi seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*11 dekabr 2019-cu il*

# Dövlət komitəsində müşavirə keçirilib

Dekabrın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib.



Komitədən AZƏRTAC-a bildiriblər ki, müşavirədə dövlət komitəsinin rəhbərliyi, eləcə də mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər. Tədbirdə əvvəlcə Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra çıxış edən DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, 2019-cu il Azərbaycan üçün mühüm uğurlarla və bir sıra əlamətdar hadisələrlə zəngin olub. Dini sahə ilə bağlı ilin ən mühüm hadisəsi noyabr ayında Prezident İlham Əliyevin sərəncamı ilə Bakıda Dünya dini liderlərinin II Sammitinin keçirilməsi olub. O, 70 ölkədən 500 nümayəndənin, nüfuzlu beynəlxalq təşkilatların qatıldığı zirvə görüşünün dinlərarası dialoqun möhkəmləndirilməsinə, mədəni əməkdaşlığa yaxşı imkanlar açdığını vurğulayıb. M.Qurbanlı belə mötəbər tədbirin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi tamam olmasına təsadüf etməsini islami dəyərlərimizə və din xadimlərinə dövlət qayğısının növbəti təzahürü kimi dəyərləndirib. Prezident İlham Əliyevin sammitdəki çıxışında din sahəsindəki bütün məsələlərin, qarşıda duran vəzifələrin öz əksini tapdığını deyən DQİDK sədri il ərzində ölkədə dini durumla bağlı sabitliyi təmin etmək, qoruyub saxlamaq, həmçinin tolerant mühitin daha da sağlamlaşdırılması, mənfi təzahürlərin aradan qaldırılması üçün bir sıra əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. Dövlət komitəsinin əsasən 2 istiqamətdə - din pərdəsi adı altında yad dini baxışların yayılmasının qarşısının alınması və xurafata, cəhalətə qarşı sistemli şəkildə maarifləndirmə tədbirlərinin keçirdiyini bildirib. Cəmiyyətin bütün təbəqələrini əhatə edən tədbirlərin müxtəlif idarə və müəssisələr, məktəblər, ali təhsil müəssisələri, hərbi hissələr, cəzaçəkmə müəssisələrində reallaşdırıldığını diqqətə çatdıran Mübariz Qurbanlı qeyd edib ki, sözügedən tədbirlər cəmiyyəti, xüsusilə gəncləri dini mühitdəki tendensiyalar, xaricdən yönəlmiş təhdidlər, yad ideologiyaların ölkəmizə ixracına cəhdlər barədə məlumatlandırılmasında və maarifləndirilməsində xüsusi önəmə malikdir. Komitə sədri növbəti ildə də bu tədbirlərin əhatə dairəsinin genişləndirilməsinin nəzərdə tutulduğunu və bunun dövlət komitəsinin 2020-ci il üçün nəzərdə tutulmuş Tədbirlər Planında öz əksini tapdığını bildirib.

Sonda dövlət komitəsinin 2020-ci il üçün fəaliyyət planı, qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# UNEC tələbələrinin "Nəsimi" tamaşası Ankarada anşlaqla qarşılanıb

Azərbaycanın böyük mütəfəkkiri və şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələri Türkiyənin paytaxtı Ankarada "Nəsimi" tamaşasını nümayiş etdiriblər.





Tədbir Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamından irəli gələn tapşırıqların icrasını təmin etmək məqsədilə UNEC-in tədbirlər planına əsasən təşkil olunub.

Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin dəstəyi və UNEC-in təşəbbüsü ilə təşkil olunan tamaşada ölkəmizin Türkiyədəki səfiri Xəzər İbrahim, rəsmi şəxslər, qardaş ölkənin paytaxtında yaşayan və fəaliyyət göstərən soydaşlarımız, eləcə də nəsimisevərlər iştirak ediblər. Tamaşa Ankaranın Keçiörən rayon bələdiyyəsinin Neşet Ertaş Sənət və Nümayiş Mərkəzində nümayiş etdirilib.



UNEC Yaradıcılıq Mərkəzinin "UNEC Tələbə Teatrı" tərəfindən təqdim olunan tamaşada Şərqin böyük ədibi və filosofunun həyat və yaradıcılığı tələbələrin ifasında canlandırılıb. Tələbələrin yüksək peşəkarlıqla ifa etdikləri tamaşa izləyicilər tərəfindən böyük maraqla qarşılanıb. Səfər çərçivəsində Ankaranın Keçiörən rayon bələdiyyəsinin sədri Turqut Altunok UNEC-in nümayəndə heyəti ilə görüşüb. Görüşdə tələbələrin aktyorluq bacarıqlarını yüksək qiymətləndirən bələdiyyə sədri onlara öz təşəkkürünü bildirib. UNEC-in tələbələrlə iş üzrə prorektoru, dosent Səadət Qəndilova tamaşanın nümayiş olunması üçün yaradılan şəraitə görə Turqut Altunoka minnətdarlığını bildirərək universitet adından ona xatirə hədiyyəsi təqdim edib.

Sonda tələbələrə sertifikatlar təqdim olunub.

# Səudiyyə Ərəbistanının İnformasiya naziri AZƏRTAC-ın İdarə Heyətinin sədri, UNA-nın İcraiyyə Şurasının üzvü Aslan Aslanov ilə görüşüb

Dekabrın 11-də Ciddədə Səudiyyə Ərəbistanı Krallığının İnformasiya naziri Turki Abdullah əş-Şəbana İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) İcraiyyə Şurasının növbədənkənar iclası çərçivəsində AZƏRTAC-ın İdarə Heyətinin sədri, UNA-nın İcraiyyə Şurasının üzvü Aslan Aslanov ilə görüşüb.

Azərbaycan haqqında xoş sözlər söyləyən səudiyyəli nazir ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin ildən-ilə inkişaf etdiyini vurğulayıb. Turki Abdullah əş-Şəbana öz sıralarında 57 islam ölkəsinin xəbər agentliklərini birləşdirən UNA-nın İcraiyyə Şurasının və Baş Assambleyasının Ciddədə keçirilən növbədənkənar iclasında müzakirə olunacaq məsələlər barədə fikirlərini bildirib.



Görüşdə Səudiyyə Ərəbistanında Azərbaycana böyük maraq göstərildiyi, ölkəmizlə əlaqələrə xüsusi önəm verildiyi diqqətə çatdırılıb. Həmçinin UNA-nın fəaliyyətinin təkmilləşdirilməsi, informasiya sahəsində qarşıda duran çağırışların birgə həlli yollarının tapılmasının vacibliyindən danışılıb. Qeyd olunub ki, müasir dövrdə baş qaldıran islamofobiya və islamın terrorizmlə əlaqələndirilməsi ciddi narahatlıq doğurur. Sülh və qardaşlıq dini olan islama qarşı yönələn feyk xəbərlərlə mübarizə İƏT-in üzv ölkələrinin milli xəbər agentliklərinin fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.

İslam ölkələrinin xəbər agentlikləri ilə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq münasibətlərinin qurulduğunu deyən Aslan Aslanov bildirib ki, AZƏRTAC ilə Səudiyyə Ərəbistanının SPA agentliyi arasında əlaqələr nümunəvi səviyyədədir. Biz bu əlaqələrin inkişafı istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Nazir Turki Abdullah əş-Şəbana yaxın zamanlarda Azərbaycana səfər etmək və onun inkişafını öz gözləri ilə görmək arzusunda olduğunu deyib.

# Pambıq qəbulu məntəqələrinə 293 min tondan çox məhsul təhvil verilib

Dekabrın 11-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 293 min 880 ton məhsul təhvil verilib.

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 31,9 faiz çoxdur. Keçən il dekabrın 11-dək 222 min 748 ton pambıq yığılmışdı. Qeyd edək ki, Azərbaycanda pambıqçılığın yeni inkişaf dövrü bu istiqamətdə əsaslı tədbirlərin görüldüyü, bu sahənin inkişafını nəzərdə tutan dövlət proqramının qəbul olunduğu 2016-cı ildən başlayıb.

AZƏRTAC respublikada pambıq tədarükünə dair dekabrın 11-nə olan operativ məlumatı təqdim edir.

**11.12.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 11 dekabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **100111,7** | **132512,0** | **75,5%** | **293880,73** | **222748,40** | **131,9%** |
| Ağcabədi rayonu | 10452,3 | 10000,0 | 104,5% | 32058,52 | 22405,10 | 143,1% |
| Ağdam rayonu | 2600,0 | 3100,0 | 83,9% | 7294,32 | 5518,43 | 132,2% |
| Ağdaş rayonu | - | 3185,0 | - | - | 3699,43 | - |
| Ağsu rayonu | 1000,0 | 2600,0 | 38,5% | 993,56 | 1844,69 | 53,9% |
| Beyləqan rayonu | 9706,1 | 9560,0 | 101,5% | 29370,60 | 20882,04 | 140,7% |
| Bərdə rayonu | 10140,0 | 9630,0 | 105,3% | 34075,82 | 24311,15 | 140,2% |
| Biləsuvar rayonu | 10257,7 | 12000,0 | 85,5% | 30059,92 | 21074,45 | 142,6% |
| Cəlilabad rayonu | 507,7 | 505,0 | 100,5% | 1233,90 | 1170,67 | 105,4% |
| Füzuli rayonu | 800,0 | 2100,0 | 38,1% | 1628,21 | 2006,59 | 81,1% |
| Goranboy rayonu | 3102,2 | 5000,0 | 62,0% | 7265,74 | 8803,94 | 82,5% |
| Hacıqabul rayonu | 400,0 | 1300,0 | 30,8% | 570,03 | 1135,23 | 50,2% |
| İmişli rayonu | 7492,3 | 13645,0 | 54,9% | 19686,76 | 17582,39 | 112,0% |
| Kürdəmir rayonu | 2809,2 | 5030,0 | 55,8% | 6387,84 | 6269,02 | 101,9% |
| Neftçala rayonu | 5087,0 | 7000,0 | 72,7% | 16067,19 | 9847,98 | 1,6 dəfə |
| Saatlı rayonu | 13741,0 | 15815,0 | 86,9% | 41725,94 | 29342,76 | 142,2% |
| Sabirabad rayonu | 8630,0 | 13055,0 | 66,1% | 25135,28 | 16619,65 | 1,5 dəfə |
| Salyan rayonu | 4788,2 | 7055,0 | 67,9% | 15861,12 | 10033,01 | 1,6 dəfə |
| Samux rayonu | - | 400,0 | - | - | 922,61 | - |
| Tərtər rayonu | 3427,2 | 3300,0 | 103,9% | 11933,36 | 7841,03 | 1,5 dəfə |
| Ucar rayonu | 500,0 | 2500,0 | 20,0% | 962,82 | 1567,84 | 61,4% |
| Yevlax şəhəri | 2406,8 | 2500,0 | 96,3% | 6333,56 | 5149,90 | 123,0% |
| Zərdab rayonu | 2264,0 | 3232,0 | 70,0% | 5236,24 | 4720,49 | 110,9% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# «EnterpriseAzerbaijan» portalı

## Yeni sərmayə imkanlarının intellektual təqdimatı

Dünyanın müasir iqtisadi xəritəsində Azərbaycan yeni dövlət kimi özünə yer alsa da, bütün istiqamətlərdə aparılan islahatlar, böyük layihələrin reallaşdırılması və iqtisadiyyatın şaxələndirilməsi bir çox sahələrdə ölkəmizin irəli çıxmasına imkan yaradır. Nüfuzlu reytinq agentliklərinin hesabatlarında uzun illər Azərbaycanın aparıcı mövqelər tutması ölkəmizə xarici investorların marağının artmasına səbəb olur.

Sahibkarlığın elmi əsaslarla inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi, ÜDM istehsalında özəl sektorun payının artması xarici investorların diqqətini cəlb edən mühüm amillərdir. Dövlət başçısı da qeyd edir ki, Azərbaycan investisiya qoyuluşu üçün çox əlverişli ölkəyə çevrilib və növbəti illərdə bu istiqamətdə tədbirlər davam edəcək.

Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi məqsədilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən "EnterpriseAzerbaijan.com" internet portalı yaradılmışdır. Bu portalın missiyası hüquqi və fiziki şəxslər tərəfindən hazırlanan investisiya layihələri, aktivlər, təbii resurslar və investisiya imkanları haqqında məlumatları yerli və xarici investorlara təqdim etməkdir. Yeni sistem sürətli və geniş əhatə dairəsi olan bir platforma kimi investorlara bir mərkəzdən davamlı yenilənən, istifadəyə rahat, təhlükəsiz və əlçatan etibarlı mənbədir.

"EnterpriseAzerbaijan" investisiya sahəsində çoxşaxəli xidmətlər paketinə sahib olmaqla yanaşı, dünyanın bir çox məşhur portallarına inteqrasiya oluna bilir, daha geniş kütləyə layihələrin təqdim edilməsinə şərait yaradır. Paralel olaraq isə yerli startapçılara məşhur "Kickstarter" portalı üzərindən dünya maliyyə bazarlarına çıxış imkanları yaradılır. İstənilən növ layihələr üçün "IndieGOGO", "Onemission", "Planeta.ru", sosial və tibbi layihələr üçün "Youcaring", fərqli texnoloji ideyalar üçün "Crowdsupply", vençur kapitalist maliyyələşməsi üçün "Crowdfunder", elmi ideyalar üçün "Experiment", sosial xarakterli layihələr üçün "Chuffed" ilə birgə əməkdaşlıq üçün portal vasitəsilə danışıqların aparılması mümkündür. Portala yerləşdirilən layihələr kənd təsərrüfatı, sənaye, energetika, tikinti, nəqliyyat-logistika, telekommunikasiya, elm və texnologiya və s. kateqoriyalardan 12 sahəni əhatə edir.

Portalın üstünlüklərindən biri də Azərbaycanda və postsovet məkanında öz məlumat zənginliyi ilə seçilən geoiqtisadi xəritənin yaradılmasıdır. Bu xəritədə nəqliyyat infrastrukturu, sənaye parkları, texnoparklar, biznes inkubatorlar, xidmət sektoru, elm və təhsil müəssisələri, təbii sərvətlər, şirkətlər və s. daxil olmaqla 1200 əsas obyekt, həmçinin inzibati və iqtisadi rayonlar haqqında 3 dildə məlumat yerləşdirilmişdir. Faktiki olaraq dünyanın istənilən yerində bu xəritə ilə tanış olan investor Azərbaycanın əsas iqtisadi parametrləri, yol strukturu, logistika, şirkətlər və rayonların iqtisadi vəziyyəti haqqında vacib məlumatları əldə edir.

"EnterpriseAzerbaijan" portalı yarandığı gündən bəri xarici təcrübənin öyrənilməsini beynəlxalq layihələrlə əməkdaşlığı fəaliyyətinin prioritet istiqaməti kimi daim diqqət mərkəzində saxlayır. Bu baxımdan Britaniya Şurası (British Council) və İngiltərənin Newcastle Universiteti ilə birgə həyata keçirilən "Kreativ Qığılcım" (Creative Spark) layihəsini portalın ən uğurlu işi kimi nümunə gətirmək olar. Məqsədi gənclər arasında innovativ sahibkarlığı inkişaf etdirmək olan layihə çərçivəsində "Big Idea Challange" adlı ideya və fikir yarışının yekunu kimi Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı Mühəndislik Universiteti (BMU) və Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) müəllimləri İngiltərənin Nyukasl (Newcastle) Universitetindəki Biznes Məktəbində təcrübə keçib, təlimlərdə iştirak ediblər. Bundan başqa, Britaniya Şurasının təşəbbüsü ilə tələbə və gənc startapçılar arasında həyata keçirilən yarışmanın qaliblərinə öz ideyalarını reallaşdırmaq üçün pul mükafatı, Birləşmiş Krallığa səfərlər və professional biznes dəstəyi təqdim edilib. Ümumilikdə müsabiqəyə 50-dən artıq yerli layihə təqdim olunub və onlardan bir qismi "İdeation" və "Boot Camp"a qatılmaq şansı qazanıb.

2018-ci ilin oktyabr ayının 2-də ictimaiyyətə təqdim olunan "EnterpriseAzerbaijan" internet portalı "EnterpriseEstonia" Sahibkarlığın İnkişafına Yardım Fondu ilə birgə əməkdaşlığa dair anlaşma memorandumu imzalayıb, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, İtaliya, Fransa, Rumıniya kimi ölkələrdə təqdim olunub.

Ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atmış bir sıra yerli və beynəlxalq qurumlarla birlikdə mühüm tədbirlər həyata keçirən portal Vergilər Nazirliyi ilə birgə Azərbaycanın 13 ali təhsil müəssisəsində "Startapa necə başlamalı: iqtisadi və hüquqi əsaslar" adlı təlim layihəsinə start verib. Ümumilikdə 2000-dən artıq tələbə və gənclər portal üzərindən biznesə başlamanın üstünlükləri barədə məlumatlandırılıb. Bu tədbirlərin təşkilindən sonra Azərbaycan universitetlərindən onlarca startapçı tələbə öz layihəsini portala yerləşdirib.

Belə qənaətə gəlmək olar ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "EnterpriseAzerbaijan" portalının əsas hədəfi ölkəmizdə biznes mühitinin daim yaxşılaşdırılması, kreativ və innovativ ideyalı startapçı gənclərimizin dünya səviyyəsində tanınması, onların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi, müxtəlif mərhələlərdə onlara mentorluq və mütəxəssis dəstəyinin göstərilməsi, xarici investorlar tərəfindən Azərbaycana kapital axınını artırmağa nail olunmasıdır. Bu istiqamətdə portalın atdığı addımlar diqqətə layiqdir. "EnterpriseAzerbaijan" portalı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzininin investisiya-biznes sahəsində yaratdığı ekosistemin bir parçasıdır. Onun ölkənin intellektual mülkiyyətinə, yeni ideyaların və innovasiyaların işlənilməsinə verdiyi töhfələr diqqətə layiqdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

təmiz şəhər

# "Təmiz Şəhər" ASC qanvermə aksiyası keçirib

Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Talassemiyasız həyat naminə" layihəsinə dəstək məqsədilə təşkil edilən aksiyada səhmdar cəmiyyətin 60-dan çox əməkdaşı talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqlara yardım üçün qan veriblər.

Qeyd edək ki, "Talassemiyasız həyat naminə" layihəsinə qoşulmaqla "Təmiz Şəhər" ASC tərəfindən hər il qanvermə aksiyası təşkil olunur.



**"Azərbaycan"**



# DÜNYA



■ Dopinq qalmaqalı

# Rusiya idmanı məhşər ayağına çəkildi

## Ölkə idmançıları dörd il beynəlxalq yarışlardan kənarda qalacaqlar

Gözlənildiyi kimi, Rusiya idmanı sərt cəza aldı: Dünya Antidopinq Agentliyinin (WADA) İcraiyyə Komitəsi Rusiya idmanını dörd il müddətinə beynəlxalq yarışlardan kənarlaşdırmaq barədə qərar qəbul etmişdir.



Bu o deməkdir ki, rusiyalı idmançılar Olimpiya Oyunlarında, Paralimpiya Oyunlarında, gənclər arasında Olimpiya Oyunlarında və dünya çempionatlarında öz bayrağı altında iştirak etməyəcəklər, ölkə irimiqyaslı beynəlxalq turnirlər təşkil etmək üçün ərizə vermək hüququnu itirir və artıq planlaşdırılmış idman tədbirlərini keçirməkdən imtina etməlidir. Rusiyalı idmançılar dörd il ərzində ölkədə dopinq testindən keçə bilməyəcəklər. Bundan başqa, WADA rusiyalı dövlət qulluqçularının, Rusiya Olimpiya Komitəsi və Rusiya Paralimpiya Komitəsi rəhbərlərinin beynəlxalq yarışlara qatılmağına qadağa qoymuşdur. Üstəlik, Rusiya cərimə cəzası almışdır. Belə ki, Rusiya Antidopinq Agentliyi (RUSADA) 100 min dollar məbləğində cərimələnmiş, Rusiya hökuməti dopinq testlərinin məlumat bazasının tədqiqi ilə bağlı xərcləri (təxminən 2 milyon dollar) ödəməlidir. Həmçinin RUSADA kənar təşkilatlardan və dövlət qurumlarından müstəqilliyini qoruyub saxlamalıdır.

Beləliklə, Rusiya təmsilçiləri 2020-ci il Tokio Yay Olimpiya Oyunlarında və 2022-ci il Pekin Qış Olimpiya Oyunlarında milli bayraq altında çıxış edə bilməyəcəklər. Dopinqsiz rusiyalı atletlərin sözügedən olimpiadalarda Beynəlxalq Olimpiya Komitəsinin bayrağı altında iştirakına icazə verilmişdir. Rusiyalı futbolçular 2022-ci ildə Qətərdə keçiriləcək dünya futbol çempionatına qatılmayacaqlar. Bununla yanaşı, Rusiya 2022-ci ildə kişilər arasında dünya voleybol çempionatını və 2023-cü ildə dünya hokkey çempionatını qəbul edə bilməyəcək. Dünya Şahmat Olimpiadası və Şahmat Paralimpiadasının, həmçinin bir sıra digər beynəlxalq turnirlərin Rusiyada keçirilməsi şübhə altına düşmüşdür.

Əslində Rusiya elə də ağır cəza almamışdır. WADA-nın vitse-prezidenti Linda Helleland Rusiyanın istisnasız olaraq bütün idmançılarını bütün beynəlxalq yarışlardan kənarlaşdırmağı tələb edirdi. Lakin təşkilatın İcraiyyə Komitəsi bu təklifi dəstəkləməyərək belə bir qərara gəldi ki, Rusiya idmançılarının dopinqdə əli olmayan gənc nəslinə beynəlxalq arenada məharətini reallaşdırmaq imkanı vermək lazımdır.

Rusiya idmanının dopinqdə "ilişmə"si çoxdanın söhbətidir. İllər əvvəl WADA rusiyalı idmançıların keçdiyi dopinq testlərinin nəticələrinə şübhə ilə yanaşmağa başlamışdır. Məlum olmuşdu ki, Moskvadakı antidopinq laboratoriyasının məlumat bazası redaktə olunmuş, idmançıları "təmizə çıxarmaq üçün" testlərin nəticələri dəyişdirilmişdir. Bu səbəbdən rusiyalı atletlər ötən il Cənubi Koreyada keçirilmiş qış Olimpiadasında dövlət bayrağı altında çıxış etməkdən məhrum olmuşdular. WADA ekspertlərinin apardığı təhqiqat Rusiyada dopinq testləri saxtakarlığının geniş miqyas aldığını ortaya qoymuşdur. Tədqiqatın gedişində aydın olmuşdur ki, Rusiyanın cari ilin yanvarında Moskva antidopinq laboratoriyasının təqdim edilmiş məlumat bazası əvvəlcədən redaktəyə məruz qalmışdır. Bu bazada rusiyalı idmançıların 2012-ci ilin yanvarından 2015-ci ilin avqustunadək keçdikləri dopinq testlərinin nəticələri barədə məlumatları ehtiva edir. Sübut olunmuşdur ki, 298 rusiyalı atletin (onların 145-i hazırda karyerasını davam etdirir) dopinq testi müsbət nəticə vermişdir, yəni bu atletlər dopinqdən istifadə etmişlər. Rusiya tərəfi iddia etmişdir ki, məlumat bazasında məlumatların dəyişdirilməsi insan səhvi, yaxud kompüter sistemində nasazlıqla əlaqədar baş vermişdir. Lakin WADA bu iddianı qətiyyətlə rədd etmişdir. WADA-nın Təhqiqat Departamentinin direktoru Günter Yanger bildirmişdir ki, "bizim ekspertlər kütləvi saxtalaşdırmanı aşkara çıxarmışlar və bu, kompüterin səhvi ola bilməz: kimsə sistemə daxil olub nəyisə dəyişdirmişdir". WADA-nın ekspertləri əmindirlər ki, dopinq testlərinin nəticələri Rusiya hakimiyyət orqanlarının birbaşa tapşırığı ilə saxtalaşdırılmışdır. Oxşar bəyanatla RUSADA-nın rəhbəri Yuri Qanus çıxış etmişdir. O təsdiqləmişdir ki, Rusiyada idmançıların minlərlə dopinq testlərinin nəticələri dəyişdirilmişdir. Onun dediyinə görə, saxtalaşdırma hazırda Rusiya hökumətində müxtəlif vəzifələr tutan keçmiş atletlərin, yaxud yüksəkvəzifəli idman məmurlarının ad-sanını qorumaq məqsədilə həyata keçirilmişdir.

Təkzibolunmaz faktlara baxmayaraq, Rusiya hakimiyyət orqanları dopinq qalmaqalını ciddi qəbul etmir. Rəsmilər hesab edirlər ki, WADA-nın qərarı siyasi motivlidir: məqsəd güclü rusiyalı idmançıları siyasi vasitələrlə beynəlxalq turnirlərdən uzaqlaşdırmaqdır. Eyni zamanda Rusiya tərəfi məsələni İdman Arbitraj Məhkəməsinə (CAS) çıxarmaq niyyətindədir. CAS məsələyə baxdıqdan sonra yekun qərar qəbul edəcək. Rusiyanın İdman naziri Pavel Kolobkov hesab edir ki, Rusiyanın məhkəmədə məqsədinə nail olmaq üçün yaxşı imkanı var. RUSADA-nın rəhbəri isə belə bir imkanın olmasına şübhə ilə yanaşır. Onun fikrincə, apelyasiya, sadəcə olaraq, qərarın qüvvəyə minməsini təxirə sala bilər, çünki 2018-ci ilin dekabrında və 2019-cu ilin yanvarında dopinq nümunələri bazasında dəyişikliklər edilməsi sübuta yetirilmişdir. WADA-nın məsul nümayəndəsi Conatan Teylor da eyni fikirdədir. O hesab edir ki, WADA məhkəmə çəkişməsində qələbə qazanacaq. Üstəlik, heç kim əmin deyil ki, CAS qərarını Tokio Olimpiadasından qabaq qəbul edəcək. Qərar Tokio Olimpiya Oyunlarından sonra qəbul olunsa, rusiyalı idmançılar 2024-cü il Paris yay Olimpiadasını da buraxmalı olacaqlar.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

■ İqlim dəyişikliyi

# Tarixin ən isti onilliyi



Yeni il ərəfəsində bir çoxları ötən ili xatırlayır. 2019-cu il isə, şübhəsiz, diqqətimizdən kənarda qalmamalıdır. Məsələn, bu ilin 7-ci ayı bütün müşahidə tarixi boyu ən isti ay olaraq temperatur rekordu vurmuşdur.

Amma məsələ bununla da bitmir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının bu yaxınlarda yayımladığı hesabata əsasən, cari onillik tarixdə ən isti dövr olacaq. Tədqiqatçılar belə bir qənaətə gəlmişlər ki, iqlim dəyişikliyi bəşəriyyətin ona uyğunlaşmaq qabiliyyətini qabaqlayır. Bundan əlavə, Dünya Meteoroloji Təşkilatı (DMT) bildirmişdir ki, cari ildə qlobal temperaturlar 1850-1900-cü illər arası sənayeləşdirmədən əvvəlki dövrdəki orta göstəricidən 1,1 dərəcə yüksəkdir.

DMT-nın məlumatına əsasən, faydalı qazıntı yanacağının yandırılmasından, kənd təsərrüfatı bitkilərinin yetişdirilməsindən və əmtəələrin nəql edilməsindən atmosferə atılan antropogen tullantıların sayı havanı daha da istiləşdirəcək. İstixana qazlarının ayırdığı izafi istiliyin 90 faizini udan okeanlar hazırda qeydə alınmış ən yüksək temperatura malikdir.

Bu gün dünya dənizlərinin vəziyyəti həyati əhəmiyyətli dəniz ekosistemlərinə təhlükə yaradır. Bu isə ərzaq məhsullarından tutmuş iş yerlərinədək milyardlarla adamı əhatə edir.

Cari ilin oktyabr ayında dənizin orta səviyyəsi bütün müşahidələr tarixi boyu ən yüksək göstəriciyə çatmışdır. Bu, son 12 ay ərzində Qrenlandiyanın itirdiyi 329 milyard ton buzun hesabına baş vermişdir.

■ Beynəlxalq siyasət

# Şimali Koreyanın nüvə tərksilahı baş tutacaqmı?

## ABŞ-KXDR münasibətlərinin gələcəyi sual altındadır





Koreya yarımadasının nüvəsizləşdirilməsi məsələsi dünyanın aparıcı dövlətlərinin, ilk növbədə, ABŞ və onun Sakit okean regionundakı müttəfiqlərinin diqqət mərkəzindədir. Şimali Koreyanın zaman-zaman həyata keçirdiyi raket sınaqları Vaşinqtonda, Tokioda, Seulda dərhal sərt reaksiya doğurur. KXDR-ə mülayim münasibəti ilə seçilən Rusiya və Çin isə hadisələrin gedişini müşahidə etməklə kifayətlənir, Pxenyanın hərəkətlərində elə bir təhlükə görmür.

Yarımadanın nüvəsizləşdirilməsi naminə ABŞ Prezidenti Donald Tramp bir sıra addımlar atmış, KXDR Dövlət Şurasının sədri Kim Çen İn ilə iki dəfə bir araya gələrək qarşılıqlı münasibətləri yaxşılaşdırmağa çalışmışdır. Tramp KXDR-in silahlanma proqramını dayandırması müqabilində Pxenyana müəyyən güzəştlər təklif etmişdi. Liderlərin xoş niyyətli bəyanatları belə bir təəssürat yaratmışdı ki, ABŞ-KXDR əlaqələrinin normal məcraya yönəlməsi sırf zaman məsələsidir.

Lakin hələ də ortada hansısa nəticə yoxdur. ABŞ Şimali Koreyaya qarşı tətbiq etdiyi sanksiyaları yüngülləşdirmək barədə düşünmür, KXDR isə silahlanma proqramına son qoymaq fikrində deyil. Başqa sözlə, ikitərəfli münasibətlərin yaxşılaşdırılması istiqamətində hər hansı irəliləyişdən söhbət açmaq lazım gəlmir. ABŞ və KXDR nümayəndələri ikitərəfli münasibətlərin normallaşdırılması perspektivlərini müzakirə etmək üçün sonuncu dəfə bu il oktyabrın 5-də Stokholmda bir araya gəlmişdilər. Amma dialoq qurmaq mümkün olmamışdır. O vaxt KXDR nümayəndə heyətinin başçısı Kim Mön Gil məsləhətləşmələrin uğursuz olduğunu bildirmiş və Amerika tərəfini mövqeyinə yenidən baxmağa çağırmışdı. Nə qədər qəribə olsa da, ABŞ Dövlət Departamenti bu qiymətlə razılaşmamış və görüşün konstruktiv keçdiyini bəyan etmişdir.

Ötən həftə Şimali Koreya Soxe poliqonunda "çox vacib" sınaqların uğurla keçirildiyini elan etmişdir. Əvvəllər Soxe poliqonundan kosmik raketlərin startı və raket mühərriklərinin sınağı üçün istifadə olunurdu.

Son günlər tərəflər bir-birinə qarşı sərt bəyanatlarla çıxış edirlər. Bu baxımdan KXDR-in BMT yanında daimi nümayəndəsi Kim Sonun bəyanatı diqqəti xüsusilə cəlb edir. O bildirmişdir ki, Koreya yarımadasının nüvəsizləşdirilməsi məsələsi daha gündəlikdə deyil. Bundan əvvəl Şimali Koreyanın Xarici İşlər naziri Li Yön Xo ABŞ-la aparılmış danışıqların effektivliyinə şübhə ilə yanaşmışdı. Onun fikrincə, ABŞ lideri KXDR rəhbəri ilə görüşlərindən daxili siyasi məqsədlərə nail olmaq üçün istifadə edir.

Öz növbəsində ABŞ Prezidenti Donald Tramp KXDR Dövlət Şurasının sədri Kim Çen İni nüvə tərksilahı məsələsində təxribatlar törətmək barədə xəbərdarlıq etmişdir. Ağ evin başçısı qeyd etmişdir ki, "Şimali Koreya lideri düşmənçilik etsə, hər şeyi itirə bilər. Asiya ölkəsinin çox böyük iqtisadi potensialı var, lakin o, vəd verdiyi kimi, nüvə silahından azad olmalıdır".

Trampın dediyinə görə, NATO, Çin, Rusiya, Yaponiya və bütün dünya bu məsələdə yekdildir. ABŞ lideri əlavə etmişdir ki, Kim Çen İn ABŞ Prezidenti ilə xüsusi münasibətlərini korlamaq, yaxud 2020-ci ilin noyabrında keçiriləcək prezident seçkilərinə müdaxilə etmək istəmir.

Pxenyan Trampın bu müraciətini tənqid etmişdir. Mərkəzi Teleqraf Agentliyinin KXDR-in yüksəkvəzifəli nümayəndəsi Kim Yon Çxolun adından yaydığı bəyanatda deyilir ki, ABŞ Prezidenti yersiz və təhlükəli çıxışlarını davam etdirsə, Şimali Koreya lideri ona münasibətini dəyişdirə bilər. Ağ evin başçısını "səbrsiz qoca" adlandıran Kim Yon Çxol bildirmişdir ki, "artıq bizim itiriləsi heç nəyimiz yoxdur".

Görünür, ABŞ və KXDR arasında dialoq potensialı tükənmək üzrədir. Belə bir şəraitdə ikitərəfli əlaqələrin xoş gələcəyindən danışmaq yersizdir. ABŞ Şimali Koreyaya münasibətdə son sözünü hələ deməyib. Yalnız onda hadisələrin hansı istiqamətdə cərəyan edəcəyindən danışmaq mümkün olacaq.

***A.MEHDİYEV,***
***"Azərbaycan"***

■ Ekologiya

# Okeanlar sürətlə oksigen itirir



Dünya okeanı planetimizdə həyatı təmin edən son dərəcə vacib elementdir. "Su mühiti"ndə baş verən dəyişikliklər hökmən həm dəniz və okeanlarda canlılara, həm də quruda yaşayanlara təsir edir.

"New Science" jurnalı Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) hesabatına istinadən xəbər verir ki, son yarım əsr ərzində Dünya okeanı oksigeninin təxminən 2 faizini itirmişdir. Bu isə elmi ictimaiyyətdə böyük narahatlığa səbəb olmuşdur, çünki bu tendensiya davam etsə, fəsadlar fəlakətli olacaq.

BTMİ-nin tərkibinə dünyanın 17 ölkəsindən 67 alim daxildir. Bu mütəxəssislər okeanın oksigenlə təmin olunmasında vəziyyət barədə genişmiqyaslı tədqiqat aparmışlar. Alimlər müəyyənləşdirmişlər ki, 1960-cı ilin əvvəlindən cari ilin sonunadək Dünya okeanında oksigenin səviyyəsi azalmışdır və bu proses davam edir. Onların "deoksigenləşdirmə" adlandırdığı bu hal əsasən iqlim dəyişməsi ilə izah olunur və qlobal istiləşmənin fəsadları, habelə insan fəaliyyəti ilə əlaqədardır.

Oksigenin səviyyəsinin azalmasına daha çox kənd təsərrüfatı təsir edir. Məsələ burasındadır ki, adamların əkin sahələrində işləyərkən istifadə etdiyi gübrə və digər komponentlərin axını əvvəl-axır qrunt sularına düşür, sonradan isə çay və okeanlara axır. Orada isə həmin maddələr nəinki yerli flora və faunaya mənfi təsir göstərir, həm də oksigenin fəal formalarının müəyyən hissəsini məhv edir və bununla onun su mühitində konsentrasiyasını daha da azaldır.

Hesabatın müəlliflərindən biri Den Laffoli deyir: "Bəli, biz aşkar etdik ki, Dünya okeanında oksigenin səviyyəsi orta hesabla 2 faiz aşağı düşmüşdür. Bu azalma sizə cüzi görünə bilər, lakin itkinin hətta belə səviyyəsi də bütün heyvan və bitkilərin həyat fəaliyyətinə təsirsiz ötüşmür. Əgər hesab edirsinizsə ki, 2 faiz kiçik itkidir, onda Everestə qalxmağa cəhd edin və inanın, yolda bu cür itki sizə çox güclü təsir göstərəcək. Bu, ictimaiyyətə çatmayan, ancaq ətraf mühitə güclü təsir göstərən tendensiyalardan biridir. Biz artıq bu dəyişikliklərin fəsadlarını görə bilərik. Məsələn, oksigenin azalması ABŞ-ın bir neçə regionunda okeanın sahilində balıqların kütləvi məhvinə səbəb olur".

Özü də "okean fəsadları"ndan əlavə, suda oksigenin konsentrasiyasının azalması Yer üzündə həyat üçün zəruri olan digər elementlərin, məsələn, azot və fosforun dövriyyəsinə də xeyli təsir edə bilər. İlk növbədə bu, hüceyrələrin bir çox qidalandırıcı maddələrinin və struktur elementlərinin əsasıdır. Bu isə öz növbəsində həyatın bütün üzvi formalarına, o cümlədən biz insanlara fəsadlar törədəcək.

## Aİ Serbiya ilə danışıqlarda yeni fəsil açdı

Avropa İttifaqı (Aİ) Serbiya ilə danışıqlarda yeni fəsil açmışdır. Bu barədə TRT telekanalı xəbər verir.

Avropa Komissiyasının bəyanatında bildirilir ki, Belçikanın paytaxtı Brüsseldə Aİ-yə daxil olmaq haqqında danışıqlar məsələsi üzrə Serbiya və Aİ nümayəndələrinin iştirakı ilə iclas keçirilmişdir. İclasda "Kapitalın sərbəst hərəkəti" başlığı altında dördüncü fəslin açılması barədə qərar qəbul olunmuşdur.

Bəyanatda qeyd olunur ki, Serbiyanın Aİ-yə inteqrasiya istiqamətində göstərəcəyi fəaliyyət diqqətlə izlənilir, Belqrad çirkli pul yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində lazımi addımlar atmalıdır. Serbiya Aİ-yə qəbulla əlaqədar 2014-cü ildə danışıqlara başlamışdır və Monteneqro ilə birgə Balkan ölkələri arasında birliyə üzv olmaq üçün ən yaxın namizəddir.

Hazırda Serbiya ilə Aİ arasında 35 fəsildən 18-i açılmışdır.

## Nyu Cersidə polislə narkotacirlər arasında atışma

ABŞ-ın Nyu Cersi ştatının Cersi-Siti şəhərində atışma nəticəsində 6 nəfər həlak olmuş, 3 polis əməkdaşı yaralanmışdır. Bu barədə şəhər meri Stiven Fulop məlumat vermişdir.

"Anadolu" agentliyinin xəbərinə görə, atışma narkotacirlərin saxlanması əməliyyatının gedişində baş vermişdir. Polisin təqib etdiyi cinayətkarlar marketdə gizlənməyə cəhd edirdilər. Ölənlərin biri polis əməkdaşı, ikisi cinayətkardır. Həmçinin üç mülki şəxs həlak olmuşdur.

Polis təhlükəsizlik nöqteyi-nəzərindən hadisə yerinin yaxınlığında yerləşən ərazidə 12 məktəbin girişini bağlamışdır. Bundan əlavə, yaxınlıqdakı ofis binaları və yaşayış evləri mühasirəyə alınmışdır.

## Praqanın on minlərlə sakini Baş Nazirə etiraz edir

Çexiyanın 60 minə yaxın sakini paytaxt Praqanın mərkəzində "Narazı vətəndaşların aksiyası" (NVA) hərəkatının lideri Andrey Babişin ölkənin Baş Naziri vəzifəsindən istefaya çıxması tələbi ilə etiraz aksiyası keçirmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Aksiyanı təşkil etmiş "Demokratiya üçün milyon an" ictimai hərəkatı Babişi seçim qarşısında qoymuşdur: hökumətin başçısı ya dekabrın 31-dək istefa verməli, ya da özünün biznes imperiyasına rəhbərlikdən əl çəkməlidir.

Müxalifətçilər xəbərdarlıq etmişlər ki, Babiş istefaya getməyəcəyi təqdirdə irimiqyaslı etiraz aksiyaları müntəzəm keçiriləcək.

Xatırladaq ki, ötən ayın 16-da Babişin istefası tələbi ilə Praqada 250 min nəfər küçələrə çıxmışdı.

## ABŞ son 30 ildə Avropada ən iri hərbi təlimlər keçirəcək

ABŞ 2020-ci ilin yazında Avropada "soyuq müharibə" başa çatandan bəri ən iri hərbi təlimlər keçirməyi planlaşdırır. Bu barədə NATO-nun Belçikadakı hərbi qərargahından müttəfiqlərin əməliyyatlarına rəhbərlik edən amerikalı general-mayor Berri Siquin "Röyter" agentliyinə məlumat vermişdir. Avropaya 20 min amerikalı əsgərin gələcəyi gözlənilir. Manevrlərdə iştirak edəcək hərbi kontingentin ümumi sayı 37 min nəfər təşkil edəcək. Təlimlərin mərkəzi Almaniya olacaq.

# Əlləri soyudan, ürəkləri isidən "Qış nağılı"

"Biri vardı, biri yoxdu..." Hələ uşaqlıqdan eşidən kimi həyəcanlandığımız, ardını səbirsizliklə dinlədiyimiz doğma, məhrəm, şirin başlanğıc... Bu dörd sözün ardını dinlədikcə bəzən özümüzü nağıl qəhrəmanlarına bənzədər, bəzən o aləmə xəyali səyahət edər, bəzən özümüz üçün nağıl qəhrəmanları uydurar, bəzən də nağıllı dünyanı gerçək bilərdik... Bu gün bəlkə də çoxumuz nağıl dünyasından qopmamışıq hələ də. O nağıllara inanmasaq belə...

















İndi sizə gerçək bir nağıldan danışacam - soyuq havada əlləri üşüdən, ürəkləri isidən "Qış nağılı"ndan. Amma o nağılı dinləmək yox, görmək, yaşamaq gərəkdir. O nağıl aləminə düşmək, orda gəzmək lazımdır. Bəzi uşaqların xəyallarındakı nağılları gerçək etmək üçün...

Bu nağıl dünyasına düşmək üçün də çox uzağa getmək lazım deyil. Yolunuzu Fəvvarələr meydanından salsanız, özünüzü sehirli aləmə düşmüş kimi hiss edəcəksiniz. Yəqin ki, söhbətin "Nargis" Fondunun təşkilatçılığı və dəstəyi ilə keçirilən "Soyuq əllər, isti ürək: Qış nağılı" xeyriyyə yarmarkasından getdiyini anladınız. Artıq 7 ildir ki, "Soyuq əllər, isti ürək" yarmarkası paytaxtımızın sakinlərinə və qonaqlarına əsl Yeni il ab-havası və sehirli əhvali-ruhiyyə bəxş edir.

## Vazkeçilməz əyləncə ünvanı...

Taxta çəpərlə əhatələnmiş, rəngarəng bayraq və işıqlarla, aksesuarlarla bəzədilmiş bu kiçik şəhərcikdə sizi Şaxta baba, müxtəlif nağıl qəhrəmanları şən əhvalla, gülər üzlə qarşılayır. İçəri daxil olan kimi gördüyü mənzərədən adamın əhvalı yüksəlir. Kənarlarda sıra ilə quraşdırılmış balaca taxta köşklər nağıllardan eşitdiyimiz evcikləri xatırladır. Bu evciklərdə doğmalarınız üçün Yeni il hədiyyələri, suvenirlər, kitablar, paltarlar, şirniyyatlar ala, yarmarkada yerləşən kiçik kafelərdə şokolad, bir fincan isti çay və ya qəhvə içə, təamları və şirniyyatları dada bilərsiniz.

Havanın soyuq olmasına baxmayaraq, yarmarkaya hər gün xeyli sayda insan gəlir. Həftəarası işdən sonra və şənbə-bazar günləri isə burada necə deyərlər, iynə atsan, yerə düşməz. Şəhərin mərkəzinə gəzməyə çıxan hər kəs bu sevimli məkana mütləq baş çəkir. Çoxlarının vazkeçilməz əyləncə ünvanı olub "Soyuq əllər, isti ürək"... Amma ziyarətçilərin sayı nə qədər çox olsa da, təhlükəsizlik də bir o qədər güclü təmin edilir, asayişə ciddi nəzarət olunur.

Bu məkan turistlər üçün də çox maraqlıdır. İrandan gələn Zöhrab İmamxani deyir ki, artıq ikinci ildir ailəsi ilə birlikdə qış fəslində Bakıya gəzməyə gəlir: "Azərbaycanı çox sevirik, burdan xeyli məmnunuq. Düzdür, Bakı küləklər şəhəri olduğu üçün bəzən burda hava daha soyuq olur. Amma bu şəhərdə Yeni il ab-havası insanda isti ovqat yaradır. Şəhəri gözəl bəzəyirlər. Keçən il də olduğum bu yarmarka həm uşaqlarıma, həm də bizə xoş təsir bağışlayır. Burada həm əylənir, həm də Azərbaycanın milli təamlarını dadırıq. İnşallah, bu, bizim ailə ənənəmizə çevrilər, hər il Bakıya gələr, "Soyuq əllər, isti ürək" yarmarkasında gəzərik".

## "Transformers" qəhrəmanı, selfi çəkən güzgü...

Yarmarkada böyüklü, kiçikli hər kəsin marağını, diqqətini çəkəcək əyləncələr var. Məsələn, uşaqların sevimli "Transformers" filminin qəhrəmanlarından biri olan Bamblbi ilə görüşüb rəqs etmələri, şəkil çəkdirmələri onlar üçün unudulmaz xatirə olacaq. Eləcə də müxtəlif oyunlar oynaya, nağıl qəhrəmanları ilə görüşə, əylənə, gözəl bir gün keçirə biləcəklər.

Əyləncə yalnız uşaqlar üçün deyil axı. Burada böyüklər də əylənməkdə uşaqlardan geri qalmırlar. Gənc qızlar və oğlanlar, orta yaşlı insanlar, turistlər yarmarkada qurulmuş Yeni il, Qar adamı maketləri, yolka ağacı qarşısında fotolar çəkdirirlər. Foto çəkdirmək ödənişsizdir. Meydana qoyulan avtomobilin qarşısında şəkil çəkdirmək üçün növbə yaranır. Yeni ilin simvolu olan yolka ilə şəkil çəkdirmək üçün insanlar sıraya düzülürlər. Burada xüsusi foto köşkü də var. Gənc cütlük Sevinclə Tural da içərisi Yeni il elementləri ilə bəzədilmiş evciyə daxil olaraq Şaxta baba və Qar qızla şəkil çəkdirib, 2019-cu ilin son günlərini tarixin, kameranın yaddaşına köçürürlər.

Ən diqqətçəkən əyləncələrdən biri selfi güzgüsüdür. Selfi həvəskarları mobil telefon və ya fotoaparatdan istifadə etmədən güzgünün köməyilə şəkillərini çəkə bilərlər. Güzgünün qarşısında dayanıb, əlinizi ona toxundurmaqla şəkliniz çəkiləcək və sizin e-mail ünvanınıza göndəriləcək.

## Xeyirxah missiya...

Yarmarkada milli mətbəximizlə yanaşı, "fast food", "balık-ekmek", dönər, "çiy köftə", "pancake" kimi xarici təamları da dadmaq mümkündür. Eləcə də kiçik, rahat kafelərdə çay, kofe, digər isti və ya soyuq içkilərdən içə bilərsiniz. Yarmarkanın ərazisində stol və stullar yerləşdirilib. Kimlərsə aldığı təamı orda əyləşib yeyə, söhbət edə bilərlər. Yarmarkaya gələn uşaqların ən çox sevdiyi isə "xırta-xırt" kartof çipsləridir.

Analarının əlindən tutan Turxan və Zərifə səbirsizliklə çips növbəsi gözləyirlər. Bu müddətdə biz Aybəniz xanımla söhbətləşirik. Deyir ki, uşaqlar ən çox "Transformers" qəhrəmanını görəndə sevindilər, onunla şəkillər çəkdirdilər: "Hətta istəyirdilər ki, onu evimizə qonaq aparsınlar... Bir də bu "xırta-xırt" kartof qızartmasını çox sevirlər. Biz demək olar ki, hər il bu yarmarkaya gəlirik. Həm uşaqlar əylənir, həm özüm hər il yenilənən köşklərə tamaşa edirəm, satılan suvenirlərdən alıram. Əsas olan bu yarmarkanın məramıdır. Onsuz da burda satılanlardan hər yerdə əldə edə bilirik. Yarmarkada satılan qidaların qiyməti şəhərin mərkəzindəki kafelərdə olan qiymətlərlə demək olar ki, eynidir. Məbləğdə ciddi fərq yoxdusa, onda niyə burdan almayaq? Axı bu, xeyriyyə yarmarkasıdır. Bu baxımdan insanlar yarmarkadan alış-veriş edib ehtiyacı olan şəxslərə faydalı ola bilərlər. Burdan əldə olunan gəlirin xeyirxah missiya daşıdığını, köməyə ehtiyacı olan uşaqlara yönəldiyini bildiyim üçün mən də əlimdən gələn kiçik köməyi əsirgəməməyə çalışıram".

## Uşaqların xəyallarındakı nağılları gerçəkləşdirək

Bildirək ki, tədbirin yüksək səviyyədə keçirilməsində "Nargis" Fonduna baş sponsorlar qismində, eləcə də rəsmi tərəfdaş kimi dövlət və özəl təşkilatlar dəstək göstərir.

Ənənəyə sadiq qalaraq, yarmarkadan toplanılan bütün vəsaitlər xeyriyyə məqsədlərinə yönləndiriləcək. "Nargis" Fondu yarmarkanın sponsorları ilə birgə əməliyyata və müalicəyə ehtiyacı olan uşaqlara, həmçinin aztəminatlı ailələrə kömək göstərəcək.

Xeyriyyə fondu 2012-ci ildə "Nargis" jurnalının baş redaktoru Ülviyyə Mahmudova tərəfindən Azərbaycanda xeyriyyə ənənələrini yaşatmaq və davam etdirmək məqsədi ilə təsis edilib, 2013-cü ildə isə aktiv fəaliyyətə başlayıb. Məhz o zaman bu gözəl ənənənin - "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkasının təməli qoyulub. Təsis olunduğu gündən etibarən fond tərəfindən bir sıra xeyriyyə layihəsi, uşaq evləri və qocalar evlərinə, aztəminatlı ailələrə maddi dəstək, habelə müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyatları həyata keçirilib. "Nargis" fondu tərəfindən 2019-cu ildən etibarən eyni prinsiplər davam etdirilir, Novruz bayramına həsr olunan "Torpaq əlimdə, bahar ürəyimdə" yaz xeyriyyə yarmarkası təşkil edilir.

"Soyuq əllər, isti ürək: Qış nağılı" xeyriyyə yarmarkası yanvarın 13-dək hər gün səhər saat 11:00-dan 23:00-dək fəaliyyət göstərəcək. Siz də bu nağıllar aləminə səyahət edin və müalicəyə ehtiyacı olan uşaqların xəyallarındakı nağılların gerçəkləşməsinə kömək edin.

*Xəyalə MURADLI,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

# "Azercell"dən rəqəmsal Yeni il kampaniyası

## Kampaniyaya qoşulan abunəçilər şirkətin rəqəmsal həllərindən internet sərf etmədən yararlanacaq

Telekommunikasiya sahəsində dünya tendensiyaları ilə hər zaman ayaqlaşaraq istifadəçilərinə rəngarəng mobil həllər təqdim edən "Azercell Telekom" qarşıdan gələn 2020-ci il münasibətilə "Yeni il kampaniyası"na start verir. Belə ki, 09.12.2019 - 09.01.2020 tarixləri ərzində davam edəcək kampaniya çərçivəsində iVi, Bookmate, Zvuk xidmətlərindən istifadə edən abunəçilər üçün internet xərcləmələri ödənişsiz olacaqdır.

Kampaniyadan yararlanmaq üçün abunəçinin xətti ikitərəfli açıq və balansda minimum 1 azn vəsait olmalı, ən əsası isə internet xətti aktiv olmalıdır. Abunəçilər kampaniyaya daxil olan xidmətlərin müvafiq şifrələrini yığaraq "Azercell"in təqdim etdiyi bu fürsətdən yararlana bilərlər.

Qeyd edək ki, iVi Mobil Cinema xidmətinə aylıq qoşulma üçün *302#, Bookmate xidmətinə aylıq qoşulma üçün *533# və Zvuk xidmətinə aylıq qoşulma üçün *707# şifrəsini yığmaq lazımdır.

Xatırladaq ki, "Azercell Plus" xidmətləri çərçivəsində təqdim edilən iVi, Bookmate və Zvukmobil tətbiqləri minlərlə film, kitab və musiqi parçasından limitsiz şəkildə yararlanmaq imkanı yaradır. "Azercell" abunəçiləri üçün xüsusi güzəştlə təqdim olunan bu rəqəmsal xidmətlərdən bir ay ərzində internet xərcləri ödəmədən yararlanma imkanı şirkətin öz müştərilərinə bayram ərəfəsində təqdim edəcəyi hədiyyələrdən biridir.

*"Azərbaycan"*

# Gürcüstandan Azərbaycan ərazisinə keçmək istəyən çobanın itləri sərhədçilərə hücum edib, yaralanan var

Dekabrın 6-da Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Şəmkir sərhəd dəstəsinin "Ceyrançöl" adlanan ərazinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 1 nəfər çobanın qoyun sürüsü ilə Azərbaycan Respublikasının ərazisinə keçməsi müşahidə olunub.

Sərhəd naryadı tərəfindən qoyun sürüsü ərazidən çıxarılarkən sürünü qoruyan 10-a qədər it sərhəd naryadına hücum edib. Sərhəd naryadı həyatına təhlükə yaranması ilə əlaqədar havaya xəbərdarlıq atəşi açıb, nəticə olmadığına görə itlərə qarşı silah tətbiq edib.

Bundan sonra sərhəd naryadı sürünün çobanının öz atının yanında yerdə uzanmasını müşahidə edib, ona yaxınlaşdığı zaman isə həmin şəxsin baş nahiyəsində sıyrılmış yaranın olmasını aşkar edib. Sərhəd naryadı tərəfindən dərhal ona ilkin tibbi yardım göstərilib və yaxınlıqdakı tibb müəssisəsinə təxliyəsi təşkil olunub. Hazırda səhhəti qənaətbəxşdir.

Həmin şəxsin şəxsiyyəti dəqiqləşdirilib, onun Gürcüstan vətəndaşı, Saqareco rayonunun Ləmbəli kənd sakini 1993-cü il təvəllüdlü Bəşirov Ramin Nizami oğlu olması müəyyənləşdirilib.

Hadisə ilə əlaqədar Dövlət Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Qoşunlarının Komandanı, general-leytenant Əsgər Xəlilov əraziyə ezam olunub, sərhəd nümayəndələri səviyyəsində Gürcüstan sərhədçiləri ilə işçi görüş keçirilib.

Hadisə ilə əlaqədar Dövlət Sərhəd Xidməti və Hərbi Prokurorluq tərəfindən müvafiq araşdırma aparılır.

*"Azərbaycan"*

# DSX əməkdaşları ölkə ərazisinə beş kiloqramadək narkotik vasitələrin gətirilməsinin qarşısını alıblar

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində ölkə ərazisinə narkotik vasitələrin qeyri-qanuni gətirilməsinin qarşısını alıb.

Dekabrın 8-də Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Lənkəran rayonunun Sütəmurdov kəndinin ərazisində DSX əməkdaşları özlərini şübhəli aparan "Mercedes-Benz Viano" markalı 99-SC-230 dövlət nömrə nişanlı avtomobildə olan iki nəfəri saxlayıblar. Həmin şəxslərin üzərlərinə baxış zamanı ümumi çəkisi 4 kiloqram 750 qram (3 kiloqram tiryək, 1 kiloqram heroin, 750 qram metamfetamin və 2680 ədəd "Metadon - 40" markalı həb) narkotik vasitə aşkarlanaraq götürülüb.



Saxlanılan şəxslərin Lənkəran rayon sakinləri 1979-cu il təvəllüdlü Məmmədov Səyavuş Ramiz oğlu və 1977-ci il təvəllüdlü Abdullayev Fariz Şaban oğlu olmaları, S.Məmmədovun əvvəllər narkotik vasitələrin istifadəsinə görə məhkum edilməsi müəyyənləşdirilib.

Fakt üzrə başlanılmış cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*"Azərbaycan"*

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun **"Xüsusi şərtlərlə pensiya təyinatı üçün elektron müraciət" alt sisteminin yaradılması işlərinin** satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş və müsabiqənin qalibi **"AİSTGroup" MMC** müəyyən edilmiş, qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun **"Bank mübadilə interfeysinin yaradılması işlərinin"** satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş və müsabiqənin qalibi **"AİSTGroup" MMC** müəyyən edilmiş, qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun fondun nəzdində olan Sosial Xidmət Müəssisələrinə **"Dəftərxana və təsərrüfat malları"**nın satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş və müsabiqənin qalibi **"BU BU" MMC** müəyyən edilmiş, qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*


## ALLAH RƏHMƏT ELƏSİN!

Qazax Xeyriyyə İctimai Birliyinin İdarə Heyətinin üzvləri Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə qardaşı

**VƏLİ VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şaiq Əfəndiyev və Ramiz Abutalıbov ailələri ilə birlikdə dostları

**YALÇIN ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8895
Sifariş 4129
Qiymәti 40 qəpik